RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 197 (9652) 11 sentyabr 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Qüdrətli dövlət, güclü ordu, yüksək rifah



QÜDRƏTLİ DÖVLƏT. Azərbaycan yaranışından zəngin yeraltı və yerüstü sərvətlərə malik olub.

Lakin tarixinin müəyyən dövrlərində, xüsusən SSRİ adlı qırmızı imperiyanın tərkibində olduğu zaman həmin sərvətlərə sahib ola, sərəncam verə bilməyib!

Faktiki olaraq "adı mənim, dadı sənin" prinsipi hökm sürüb!

Yalnız Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdıqdan, "Əsrin müqaviləsi" adlanan neft kontraktının imzalanmasına, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin reallaşmasına, beləliklə, Azərbaycan neftinin qeyri-ənənəvi marşrutla dünya bazarına nəqlinə nail olunduqdan sonra ölkə öz sərvətlərinin əsl bəhrəsini görməyə başladı.

Bundan sonra bağlanan bütün neft-qaz müqavilələrində milli maraqlarımız tam təmin olundu.

Azərbaycanı Avropanın əsas qaz təchizatçılarından birinə çevirən "Cənub qaz dəhlizi"nin çəkilişindən sonra iqtisadi gücümüz dəfələrlə artdı, iqtisadiyyatımız şaxələndirildi, aqrar sektorun və sahibkarlığın inkişafına nail olmaqla irəliyə doğru mühüm addımlar atıldı.

"Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin istifadəyə verilməsi, Orta dəhlizə bir çox dövlətin böyük maraq göstərməsi, Bakının beynəlxalq logistika mərkəzinə çevrilməsi Azərbaycanın imkanlarını genişləndirməklə yanaşı, onunla dostluq və əməkdaşlıq etmək istəyən dövlətlərin də sayını xeyli artırmışdır.

Bütün bu addımların Azərbaycanın tarixinin ən qüdrətli dövlətinə çevrilməsində, beynəlxalq nüfuzunun yüksəlməsində xüsusi rolu olmuşdur!

155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilən, onun iclaslarına sədrliyi zamanı dünyanı düşündürən və narahat edən məsələlər qaldıran, dəyərli təkliflər verən Prezident İlham Əliyev ölkəmizin müsbət imicdə tanınmasına nail olmuşdur.

Daha sonra cənab İlham Əliyevin Qoşulmama Hərəkatına rəhbərliyi, quruma sədrliyinin daha bir il artırılması, COVID-lə mübarizə dövründə atdığı cəsarətli addımlar dövlətimizin dostlarını əhəmiyyətli dərəcədə çoxaltmışdır.

44 günlük Zəfər müharibəsindəki qələbədən, əsas milli ideyanın gerçəkləşdirilməsindən sonra ölkəmiz əvvəlki uğurlarına arxalanmaqla yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

ABŞ-nin, Qərbin, o cümlədən Avropa İttifaqının Azərbaycana qarşı ermənipərəst, ikili standartlara əsaslanan siyasət yürütmələri, bu qeyri-dost addımların bir çox məsələdə təzahürü ölkəmizi öz siyasətində müəyyən dəyişikliklərə vadar etməkdədir.

AŞPA-da fəaliyyətini qeyri-müəyyən vaxtadək donduran Azərbaycan İƏT-də, TDT-də fəaliyyətini gücləndirmiş, habelə bu qurumda işlərin daha da canlandırılmasına nail olmuş, Şanxay Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlığa başlamışdır.

Türkiyə, Rusiya və Çinlə strateji müttəfiqlik münasibətlərinə yüksələn əməkdaşlıq Azərbaycanın iqtisadi gücünün və siyasi nüfuzunun daha da yüksəldiyinə dəlalət edən faktlardır.

Ölkəmiz həm də BRİCS-yə qəbul olunmaq üçün ərizə vermişdir.

Bəli, Azərbaycan heç zaman dəvət olunmadığı yerə getmir, heç kəsin qapısı ağzında gözləmir, yalnız qarşılıqlı maraqları təmin edən bərabərhüquqlu əməkdaşlığa üstünlük verir!

Artıq ölkəmiz dünyada və dünya siyasətində öz yerini dəqiqliklə müəyyənləşdirmişdir. Prezident İlham Əliyevin sözləri ilə desək: "Bizim ailəmiz türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir".

Dövlət başçısı İlham Əliyev tərəfindən indiyədək görülən bütün tədbirlər, nəzərdə tutulan planların gerçəkləşdirilməsi Azərbaycanın bir dövlət kimi daha da güclənəcəyinə, siyasi nüfuzunun durmadan artacağına möhkəm təməl yaradıb!

→ 3

# COP29 yüksək səviyyədə keçiriləcək

## Prezident İlham Əliyev Bakı Olimpiya Stadionunun ərazisində hazırlıqla bağlı görülən işlərlə tanış olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub.

→ 2

# "Biz Azərbaycan-Əlcəzair dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına xüsusi əhəmiyyət veririk"

## Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti zati-aliləri cənab Abdelmacid Tebbuna

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Seçkilərdə qazandığınız inamlı qələbə qardaş Əlcəzair xalqının şəxsən Sizə, tutduğunuz siyasi xəttə böyük inam və etimadının aşkar təzahürüdür.

Biz Azərbaycan-Əlcəzair dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına xüsusi əhəmiyyət veririk. Dövlətlərarası əlaqələrimizin bugünkü səviyyəsi məmnunluq doğurur.

Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq ölkələrimiz arasında əlaqələrin dərinləşdirilməsi, qarşılıqlı faydalı əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Əlcəzair xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə daim müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 sentyabr 2024-cü il*

# Separatçılar layiqli cəzalarını alacaqlar

## Əllərini xalqımızın qanına batırmış qatillər tezliklə Azərbaycan qanunları ilə mühakimə ediləcəklər

Bu qatillər bir zamanlar Qarabağda, digər işğal etdikləri ərazilərimizdə azərbaycanlılara divan tutmaları, o cümlədən Gəncədə, Tərtərdə, Bərdədə terror törədərək mülki insanlarımızı qətlə yetirmələri ilə öyünürdülər. Vətən müharibəsində Arayikin Gəncəni vurmaq əmrini özünün verdiyini necə əda ilə videokamera önündə etiraf etməsini hər kəs xatırlayır. Separatçının qatil xələfi Serj Sarkisyan da 2000-ci ildə britaniyalı jurnalist Tomas de Vaala müsahibəsində Xocalı soyqırımını törətmələrini boynuna almış, yüzlərlə günahsız insanın ölümünə səbəb olduğuna görə heç bir peşmanlığı olmadığını həyasızcasına dilə gətirmişdi.

Canilər elə düşünürdülər ki, xalqımıza qarşı törətdikləri bu qanlı əməllər cəzasız qalacaq. Beynəlxalq ictimaiyyətin bu cinayətlərə göz yumması, susqunluğu isə erməni qatillərini daha da ruhlandırırdı. Amma Azərbaycan hər zaman bəyan edirdi ki, torpaqlarının işğalı, etnik təmizləmə ilə barışmayacaq, xalqımıza qarşı qətliamlar, soyqırımlar törədən qatilləri, terrorçuları cəzasız qoymayacaq.

→ 10

# Fransa Azərbaycana qarşı açıq düşmənçilik siyasəti yürüdür

Fransanın milli siyasətində türkofobiya, islamofobiya tüğyan edib, zaman-zaman prezidentlər bunu gizlətməyə çalışsalar da, indiki prezident Emmanuel Makron həm Azərbaycana, həm də Türkiyəyə, ümumiyyətlə, müstəqil siyasət həyata keçirən dövlətlərə qarşı düşmənçilik siyasətini açıq-aydın göstərir. Fransa fakt qarşısında qalıb, Azərbaycanın neokolonializm ilə bağlı qaldırdığı konkret məsələlər bu ölkəni çətin duruma salıb: "Orta əsrlərdən qalan çirkin siyasət XXI əsrdə də davam edir və bunun qarşısını dünya birliyi almalıdır. Bununla mübarizədə öndə gedən ölkə Azərbaycandır. Fransa isə çətin duruma düşərək hər vəchlə Azərbaycana qarşı qarayaxma kampaniyası aparır, ölkəmizin inkişafını həzm edə bilmir. Hər kəs bilir ki, Azərbaycanda sabitlik var, bunun nəticəsidir ki, ölkəmizdə beynəlxalq səviyyəli tədbirlər keçirilir". O qeyd edib ki, Fransa Makronun simasında belə cəhdlər etməklə özünə zərər vurur. Daxildə böyük problemləri olan Paris başqa ölkələrin işlərinə qarışınca, qarayaxma kampaniyası aparınca öz məsələləri ilə məşğul olmalıdır.

→ 10

# Revanşistlərin hakimiyyət arzusu

## Onlar Paşinyanı devirmək üçün yenidən fəaliyyətə başlayıblar

Keçmiş hərbi xunta və onun liderlərindən olan sabiq prezident Robert Koçaryan yenidən hakimiyyətə iddialıdır. Lakin təhlillər onun da Ermənistan əhalisi tərəfindən dəstəklənmədiyini göstərir. Xüsusən də Koçaryanın revanşist mövqeyi, keçmiş Dağlıq Qarabağ münaqişəsinin yenidən alovlanmasının tərəfdarı olması, 1999-cu ildə Ermənistan parlamentində baş verən terror aktında, 2008-ci ilin martında əhaliyə qarşı yol verilən qırğında, çoxsaylı korrupsiya və digər cinayətlərdə əli olması fonunda cəmiyyətin mütləq əksəriyyəti ona nifrət edir. Erməni mediası isə onu satqınçılıqda, ölkəni vassala çevirməkdə ittiham edir.

Bundan əvvəlki etirazlarda baş nazir Paşinyanı təslimçilikdə ittiham edənlər çıxış yolu kimi onu devirməkdə görsələr də, bunun məsuliyyətini üzərilərinə götürmək istəmirlər.

→ 12

# COP29 yüksək səviyyədə keçiriləcək

## Prezident İlham Əliyev Bakı Olimpiya Stadionunun ərazisində hazırlıqla bağlı görülən işlərlə tanış olub





*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına COP29 məkanının tədbirə hazırlıq vəziyyətinə gətirilməsi barədə məruzə etdi.

Eyni zamanda dövlətimizin başçısına ümumilikdə bu tədbirlə bağlı stadionun 49 hektarlıq perimetrində Mavi Zona üzrə aparılan tikinti işləri, məkanların dizaynı, qonaqlar üçün müxtəlif xidmətlərin təşkili, paytaxtda nəqliyyat əməliyyatlarının hazırlığı, qonaqların yerləşdirilməsi prosesi və digər işlər barədə məlumat verildi. Həmçinin 8 hektar ərazidə qurulan Yaşıl Zona ilə bağlı görülən işlər məruzə edildi.

Qeyd olundu ki, ölkəmizdə COP29-un yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri tədbirlər görülür, lazımi infrastruktur yaradılır.

Prezident İlham Əliyev görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.





## Azərbaycan Milli Paralimpiya komandası üzvlərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

Fransanın Paris şəhərində keçirilən XVII Yay Paralimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə aşağıda adları çəkilən Azərbaycan idmançıları və onların məşqçiləri təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Aslanov Orxan Əlövsət oğlu
Vəliyeva Lamiyə Rövşən qızı

**1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Xəlilov İmaməddin Marif oğlu
Nəcəfzadə Səid Əli oğlu

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Salei Raman Serqeyeviç
Zəkiyev İlham Əzizağa oğlu

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Zeynalov Sabir Elniz oğlu

**1-ci dərəcəli "Əmək" ordeni ilə**

Panyutin Oleq Viktoroviç

**2-ci dərəcəli "Əmək" ordeni ilə**

Culfayev Alavərdi Abasoviç
Zayets Vladimir Vladimiroviç

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

İbrahimov İbrahim Eldar oğlu
Kirillov Fyodor Borisoviç

**"Tərəqqi" medalı ilə**

Xəlilov Arif Məmməd oğlu
İsrafilov Nazim Məhəmmədvəli oğlu
Şükürov Vüqar Gülağa oğlu
Tağızadə Fərid Əvəz oğlu

**"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə**

Əliyev Rəşad Rauf oğlu
Əliyev Tofiq Zöhrab oğlu
İsrafilov Vəli Rəşadət oğlu
Zahidov Azad Zakir oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 sentyabr 2024-cü il*

## Fransanın Paris şəhərində keçirilən XVII Yay Paralimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının idmançılarını və onların məşqçilərini həvəsləndirmək məqsədilə **qərara alıram:**

1. XVII Yay Paralimpiya Oyunlarında əldə etdikləri yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

1.1. birinci yeri tutan hər bir idmançıya 200 000 (iki yüz min) manat, onun məşqçisinə 100 000 (yüz min) manat;

1.2. ikinci yeri tutan hər bir idmançıya 100 000 (yüz min) manat, onun məşqçisinə 50 000 (əlli min) manat;

1.3. üçüncü yeri tutan hər bir idmançıya 50 000 (əlli min) manat, onun məşqçisinə 25 000 (iyirmi beş min) manat.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 sentyabr 2024-cü il*

## Ceyhun Bayramov Küveyt səfiri ilə iki ölkə arasında əməkdaşlıq gündəliyində duran məsələləri müzakirə edib

Sentyabrın 10-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Küveyt Dövlətinin ölkəmizdəki səfiri Abdullah Mohamed Abdullah Almauidini ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı iki ölkə arasında əməkdaşlıq gündəliyində duran məsələlər müzakirə olunub.

Ceyhun Bayramov Azərbaycan və Küveyt arasında mövcud əməkdaşlığın inkişafı istiqamətində göstərdiyi səylərə görə səfir Abdullah Mohamed Abdullah Almauidiyə təşəkkür edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Cari ildə dost və qardaş Küveyt Dövləti ilə diplomatik münasibətlərimizin əsasının qoyulmasının 30-cu ildönümünün qeyd olunduğu, bu illər ərzində ikitərəfli, o cümlədən çoxtərəfli əməkdaşlığın inkişafının məmnunluq doğurduğu diqqətə çatdırılıb. İkitərəfli əməkdaşlığımızın müxtəlif sahələrinin, o cümlədən iqtisadiyyat, ticarət, investisiyalar, turizm və sair istiqamətlərin daha da inkişaf etdirilməsi yönündə Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın fəaliyyətinin intensivləşdirilməsinin vacibliyi qeyd olunub.



Hökumətlər səviyyəsində əlaqələrin məntiqi nəticəsinin özünü xalqlarımız arasında qarşılıqlı səfərlərin dinamikasında müşahidə olunan artımda büruzə verdiyi bildirilib.

Regional və beynəlxalq təşkilatlar, xüsusilə BMT, İslam Əməkdaşlıq Təşkilatı, Körfəz Əməkdaşlıq Şurası çərçivəsində qarşılıqlı dəstək və əməkdaşlığın bundan sonra da davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Azərbaycan ərazilərinin 30 ilə yaxın işğalı dövründə Küveyt tərəfindən ərazi bütövlüyümüz və suverenliyimizə göstərilən dəstək minnətdarlıqla xatırlanıb.

Səfir ölkəmizdəki diplomatik fəaliyyətinin yekunlaşması ilə əlaqədar qəbula, habelə xoş arzulara görə təşəkkürünü bildirib, Azərbaycan və Küveyt arasında mövcud əməkdaşlığın bundan sonra da yüksələn xətt üzrə inkişafda olacağına əminlik ifadə edib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycanın və Ukraynanın XİN rəhbərləri regional təhlükəsizlik məsələlərini müzakirə ediblər

Sentyabrın 10-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Ukraynanın yeni təyin olunmuş xarici işlər naziri Andrey Sibiqa arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı Azərbaycan ilə Ukrayna arasında mövcud əməkdaşlıq gündəliyi, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə edilib.

Nazir Ceyhun Bayramov həmkarını Ukraynanın xarici işlər naziri vəzifəsinə təyin edilməsi münasibətilə ürəkdən təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.

İki ölkə arasında qarşılıqlı hörmət və dəstək, habelə beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan əməkdaşlığın məmnunluq doğurduğu bildirilib.

Nazir Andrey Sibiqa təbriklərə görə təşəkkür edib, Azərbaycan və Ukrayna arasında mövcud əməkdaşlığın bundan sonra da gücləndirilməsinə ümidvar olduğunu deyib.

Ukrayna ətrafında yaranmış təhlükəsizlik vəziyyəti ilə bağlı Azərbaycan tərəfindən göstərilən humanitar yardımlar, xüsusilə İrpen şəhərində infrastrukturun bərpası və yenidən qurulmasına, habelə minatəmizləmə fəaliyyətinə göstərilən dəstək minnətdarlıqla xatırlanıb.

Telefon danışığında həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Milli ideya haqda düşüncələr

# Qüdrətli dövlət, güclü ordu, yüksək rifah



**15 oktyabr 2023-cü ildə Xankəndidə Azərbaycanın dövlət bayrağının qaldırılması Zəfərin son nöqtəsi, Qarabağ probleminin birdəfəlik və əbədi həlli oldu!**

* Buna qədər Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruq"la Ermənistan ordusunu məhv edərək 30 illik işğala son qoymuşdu!
* Buna qədər xəyanət və separatizm yolu sayılan Laçın dəhlizində nəzarət-buraxılış məntəqəsi qurularaq Ermənistanın "dqr"ı qidalandıran şah damarı kəsilmiş, ərazi bütövlüyümüz bərpa olunmuşdu!
* Buna qədər lokal tipli antiterror əməliyyatı keçirilərək dövlət suverenliyi və Konstitusiya əsaslarının bərpası təmin edilmişdi!

**Bununla da Azərbaycan xalqı əsas milli ideyasının həyata keçirilməsinə də nail oldu!**

10 yanvar 2024-cü ildə Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bu barədə öz fikirlərini bölüşməklə yanaşı, cəmiyyətə də ismarışını çatdırdı: *"Bizim əsas milli ideyamız ərazilərimizi azad etmək idi. Yəni bütün xalq bu ideya ətrafında, bu amal ətrafında birləşmişdi, biz bunu artıq əldə etmişik. Ona görə gələcək inkişafla bağlı, əlbəttə ki, mənim fikirlərim var və bir çox hallarda onlar həlledici olacaq təbii ki. Ancaq mən istərdim ki, cəmiyyətdə də bu məsələ ilə bağlı diskussiyalar getsin, siyasətçilər, politoloqlar, elm adamları, ziyalılar, yəni bizim gələcək inkişafımızla bağlı əsas milli ideya və ideyalarımız nə olmalıdır. Bu, bir ictimai müzakirə mövzusu olmalıdır".*

❖ ❖ ❖

**Azərbaycan xalqını başlıca milli ideyasına çatdıran yol Heydər Əliyev siyasi kursu olmuşdur!**

Ötən əsrin 90-cı illərində müstəqillik yoluna qədəm qoyan Azərbaycanda baş verən təhlükəli proseslər, maymaq, qorxaq, təcrübəsiz və səriştəsiz adamların iqtidara gəlmələri, onların yeritdikləri naşı və yanlış siyasət nəinki müstəqilliyimizi, hətta bir dövlət kimi mövcudluğumuzu da real təhlükə qarşısında qoymuşdu.

*Xalqın arzu və tələbi ilə yenidən Azərbaycanın rəhbərliyinə qayıdan Ulu Öndər Heydər Əliyev dövləti məhvolmadan, xalqı bəlalardan qurtararaq möhkəm və dönməz sabitlik yaratdı, müstəqilliyimizi əbədiliyə və dönməzliyə çevirdi!*

**Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı xidmətləri saymaqla qurtarmaz!**

**Bir neçə mühüm məqamı diqqətə çəkirik:**

* İki dəfə dövlət çevrilişinə cəhdin qarşısı alındı;
* "Əsrin müqaviləsi" sayılan neft kontraktı imzalanaraq Azərbaycanın gələcək uğurlu iqtisadi inkişafı təmin edildi;
* Milli maraqlara söykənən daxili və xarici siyasət xətti müəyyənləşdirilərək həyata keçirildi;
* Bazar iqtisadiyyatına keçid, dövlət əmlakının özəlləşdirilməsinə başlanıldı;
* Yeni Konstitusiya hazırlanaraq qəbul edildi;
* Azərbaycançılıq ideologiyası gündəlik həyat tərzimizə çevrildi;
* Dövlətin və xalqın gələcək uğurlu inkişafını təmin edən Heydər Əliyev siyasi kursu müəyyənləşdirildi.

**2003-cü ildən sonra Azərbaycan xalqı çox düzgün seçim edərək Heydər Əliyev siyasi kursuna sadiqliyini bildirdi.**

Əgər Heydər Əliyev siyasəti davam etdirilməsəydi, dövlətimizin, xalqımızın başına hansı bəlalar gələrdi - bunu bir Allah bilir!

Təbii ki, yeni əsas milli ideyanın müəyyənləşdiriləcəyi halda Heydər Əliyev siyasi kursunun davam etdiriləcəyi birmənalıdır!

**Çünki Azərbaycanın müstəqilliyinin qorunması, milli maraqlarına əsaslanan daxili və xarici siyasət xəttinin təmini, dövlətin iqtisadi imkanlarının və siyasi nüfuzunun bundan sonra da artırılması yalnız Heydər Əliyev siyasi kursuna sadiqlik şəraitində mümkündür.**

Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir.

Azərbaycanda mövcud olan tolerant mühit, multikultural dəyərlərə verilən qiymət, ölkədə yaşayan xalqlar arasında ayrı-seçkiliyə yol verilməməsi, onların mədəniyyətinin inkişafına yaradılan münbit şərait bu müxtəlifliyi real gücə çevirir.

*Məhz bu birgə güc sayəsində Azərbaycan iqtisadi cəhətdən inkişaf edir, beynəlxalq nüfuz sahibinə çevrilir, düşmənlərinə və bədxahlarına qalib gəlir!*

**Bütün bu dəyərlər Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasında öz əksini tapmışdır!**

*Şübhəsiz, azərbaycançılıq ideologiyasına sədaqət bundan sonra da davam edəcək, dövlətimizin qüdrətlənməsinin şərtlərindən biri olaraq qalacaqdır!*

❖ ❖ ❖

44 günlük Vətən müharibəsi Azərbaycan xalqı və dövləti üçün mühüm bir sınağa çevrildi, milli və dövlət maraqları ətrafında xalqımızın sarsılmaz birliyini nümayiş etdirdi.

Müxalifət partiyalarının da bu müqəddəs müharibədə dövlətin yanında, xalqla birlikdə olmaları indiyədək mümkün olmayan milli birliyimizi yaratdı.

**Azərbaycanda demokratik, çoxpartiyalı, fikir müxtəlifliyinə əsaslanan vətəndaş cəmiyyəti qurulmuşdur və ölkənin hər bir vətəndaşı xarici təhdid və təhlükə qarşısında birləşərək ümumi düşmənə qarşı mübarizədə "dəmir yumruğ"a çevrilə bilir!**

44 günlük Zəfər müharibəsi, erməni faşizmi üzərindəki parlaq qələbə bunun bir daha təsdiqi oldu.

Şübhə yoxdur ki, gələcəkdə belə bir sınaqlı məqam yaranarsa, xalq yenə də milli birliyinin möhkəmliyini ortaya qoyacaqdır!

İndi isə növbəti dövr üçün təklif etdiyimiz əsas milli ideyanın komponentlərinə diqqət yetirək.

❖ ❖ ❖

QÜDRƏTLİ DÖVLƏT. Azərbaycan yaranışından zəngin yeraltı və yerüstü sərvətlərə malik olub.

Lakin tarixinin müəyyən dövrlərində, xüsusən SSRİ adlı qırmızı imperiyanın tərkibində olduğu zaman həmin sərvətlərə sahib ola, sərəncam verə bilməyib!

Faktiki olaraq "adı mənim, dadı sənin" prinsipi hökm sürüb!

**Yalnız Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdıqdan, "Əsrin müqaviləsi" adlanan neft kontraktının imzalanmasına, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin reallaşmasına, beləliklə, Azərbaycan neftinin qeyri-ənənəvi marşrutla dünya bazarına nəqlinə nail olunduqdan sonra ölkə öz sərvətlərinin əsl bəhrəsini görməyə başladı.**

Bundan sonra bağlanan bütün neft-qaz müqavilələrində milli maraqlarımız tam təmin olundu.

Azərbaycanı Avropanın əsas qaz təchizatçılarından birinə çevirən "Cənub qaz dəhlizi"nin çəkilişindən sonra iqtisadi gücümüz dəfələrlə artdı, iqtisadiyyatımız şaxələndirildi, aqrar sektorun və sahibkarlığın inkişafına nail olmaqla irəliyə doğru mühüm addımlar atıldı.

*"Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin istifadəyə verilməsi, Orta dəhlizə bir çox dövlətin böyük maraq göstərməsi, Bakının beynəlxalq logistika mərkəzinə çevrilməsi Azərbaycanın imkanlarını genişləndirməklə yanaşı, onunla dostluq və əməkdaşlıq etmək istəyən dövlətlərin də sayını xeyli artırmışdır.*

**Bütün bu addımların Azərbaycanın tarixinin ən qüdrətli dövlətinə çevrilməsində, beynəlxalq nüfuzunun yüksəlməsində xüsusi rolu olmuşdur!**

155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilən, onun iclaslarına sədrliyi zamanı dünyanı düşündürən və narahat edən məsələlər qaldıran, dəyərli təkliflər verən Prezident İlham Əliyev ölkəmizin müsbət imicdə tanınmasına nail olmuşdur.

Daha sonra cənab İlham Əliyevin Qoşulmama Hərəkatına rəhbərliyi, quruma sədrliyinin daha bir il artırılması, COVID-lə mübarizə dövründə atdığı cəsarətli addımlar dövlətimizin dostlarını əhəmiyyətli dərəcədə çoxaltmışdır.

**44 günlük Zəfər müharibəsindəki qələbədən, əsas milli ideyanın gerçəkləşdirilməsindən sonra ölkəmiz əvvəlki uğurlarına arxalanmaqla yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.**

*ABŞ-nin, Qərbin, o cümlədən Avropa İttifaqının Azərbaycana qarşı ermənipərəst, ikili standartlara əsaslanan siyasət yürütmələri, bu qeyri-dost addımların bir çox məsələdə təzahürü ölkəmizi öz siyasətində müəyyən dəyişikliklərə vadar etməkdədir.*

AŞPA-da fəaliyyətini qeyri-müəyyən vaxtadək donduran Azərbaycan İƏT-də, TDT-də fəaliyyətini gücləndirmiş, habelə bu qurumlarda işlərin daha da canlandırılmasına nail olmuş, Şanxay Əməkdaşlıq Təşkilatı ilə əməkdaşlığa başlamışdır.

**Türkiyə, Rusiya və Çinlə strateji müttəfiqlik münasibətlərinə yüksələn əməkdaşlıq Azərbaycanın iqtisadi gücünün və siyasi nüfuzunun daha da yüksəldiyinə dəlalət edən faktlardır.**

Ölkəmiz həm də BRICS-ə qəbul olunmaq üçün ərizə vermişdir.

*Bəli, Azərbaycan heç zaman dəvət olunmadığı yerə getmir, heç kəsin qapısı ağzında gözləmir, yalnız qarşılıqlı maraqları təmin edən bərabərhüquqlu əməkdaşlığa üstünlük verir!*

Artıq ölkəmiz dünyada və dünya siyasətində öz yerini dəqiqliklə müəyyənləşdirmişdir. Prezident İlham Əliyevin sözləri ilə desək: *"Bizim ailəmiz türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir".*

**Dövlət başçısı İlham Əliyev tərəfindən indiyədək görülən bütün tədbirlər, nəzərdə tutulan planların gerçəkləşdirilməsi Azərbaycanın bir dövlət kimi daha da güclənəcəyinə, siyasi nüfuzunun durmadan artacağına möhkəm təməl yaradıb!**

❖ ❖ ❖

GÜCLÜ ORDU. Müasir ordu quruculuğu dövlətin iqtisadi imkanları ilə birbaşa bağlıdır.

*Birinci Qarabağ müharibəsində Azərbaycan ona görə məğlub olaraq ərazi itkisinə məruz qaldı ki, nə ordusu, nə kifayət qədər silah-sursatı, nə də ölkənin müdafiəsini təmin edəcək rəhbəri vardı.*

**Cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan ordu quruculuğu prosesini uğurla davam etdirdi, ölkənin bütün imkanlarını səfərbərliyə alaraq işğala son qoyacaq silahlı qüvvələr formalaşdırdı.**

*Ordu quruculuğunda maliyyə əsas faktor sayılsa da, insan amili də mühüm əhəmiyyət daşıyır.*

Bu məsələdə yeni gənc nəslin yetişdirilməsi böyük rol oynadı.

Prezidentin "Neft kapitalının insan kapitalına çevrilməsi" barədə çağırışı razılıqla qarşılandı, digər ixtisaslarla yanaşı, dünyanın ən tanınmış ali hərbi məktəblərində xeyli zabit kadrları da hazırlandı və bu proses davam etməkdədir.

*Yeni vətənpərvər gənc nəslin yetişdirilməsinə Milli Olimpiya Komitəsi də dəstəkçi oldu, yüzlərlə yeniyetmə və gənc ölkəmizdə və dünyanın idman arenalarında keçirilən yarışlarda iştirak edərək bayrağımızı ucaltdı, himnimizi səsləndirdi.*

İdmançı gənclərin bir qismi orduda xidmət etdi, xüsusi təyinatlılar kimi yetişdi, komandolar hazırlığından keçdi.

**Məhz vətənpərvər, igid Azərbaycan gənclərinin sayəsində düşmən çox qısa müddətdə tam məğlubiyyətə uğradıldı, torpaqlarımızdan qovuldu, Şuşa kimi qala şəhər demək olar ki, yalın əllə, əsgər xəncəri və "lopatka"sı ilə əlbəyaxa döyüşlərdə azad edildi.**

Yüzlərlə Azərbaycan gənci qəhrəmanlıq nümunəsi göstərərək orden və medallara layiq görüldü, şəhidlik məqamına yüksəldi.

*İkiəsrlik Qarabağ münaqişəsinə birdəfəlik son qoyulsa da, düşmənin revanşizm niyyəti davam etməkdədir.*

**Diqqəti İlham Əliyevin inaqurasiya mərasimindəki nitqindən bir parçaya yönəltmək istəyirik:**

*"Biz, - İkinci Qarabağ müharibəsi zamanı və antiterror əməliyyatı zamanı mən bunu artıq demişdim, - sarsılmaz hesab olunan elə bir daşları tərpətdik ki, bunu bizə bağışlamayacaqlar, biz bunu bilməliyik. Əgər kimsə hesab edir ki, bizdən əl çəkəcəklər, səhv edir. Biz hazır olmalıyıq, səfərbər olmalıyıq, əlbəttə ki, cəmiyyət rahat yaşamalıdır. Mən Azərbaycan üçün hər hansı bir təhlükə, təhdid görmürəm. Ancaq nə üçün görmürəm, çünki bilirlər ki, bizim cavabımız amansız olacaq, sarsıdıcı olacaq və heç nəyə baxmadan o cavab veriləcək".*

**Bu gün ABŞ, başda Fransa olmaqla, Avropa İttifaqı Ermənistana hərbi məqsədlər üçün pul ayırır, İran ərazisindən keçməklə onu silahlandırır, birgə hərbi təlimlər keçirir, mütəxəssislər və pensiyaçılardan ibarət casuslar şəbəkəsi quraraq kömək göstərirlər.**

Odur ki, ordumuz da, hərbi sənaye kompleksimiz də daim hazır olmalıdır və hazırdır da!

**Azərbaycan Ordusunun daim yüksək döyüş səviyyəsində saxlanılması əsas milli ideyada öz əksini tapmalıdır!**

❖ ❖ ❖

Qırmızı imperiyanın parçalanması, Azərbaycanın müstəqillik arzusunu gerçəkləşdirməsi ağır və ağrılı keçdi.

Bir yandan dövlətə maymaq, qorxaq, naşı və səriştəsiz adamların başçılıq etmələri, bir yandan "Dağlıq Qarabağ problemi" adlı oyunbazlıqla ölkəmizə qarşı ərazi iddialarına rəvac verilməsi, xalqın buna kəskin etirazı və kütləvi aksiyaların, tətillərin baş verməsi ölkə iqtisadiyyatına da mənfi təsirini göstərdi.

Fabrik və zavodlarda işlərin dayandırılması, kolxoz və sovxozların dağıdılması və əmlaklarının mənimsənilməsi, hiper inflyasiyanın baş verməsi, bir sözlə, başsızlıq və idarəsizlik səbəbindən əhalinin güzəranı xeyli pisləşdi.

**Ölkə daxilində qaçqın və məcburi köçkün təbəqəsinin yaranması yoxsul insanların sayının sürətlə çoxalması, bütövlükdə əhalinin rifahının xeyli aşağı düşməsilə nəticələndi.**

*AXC-Müsavat cütlüyünün iqtidarda olduğu 1993-cü ildə "bəylər" dövlət büdcəsini belə formalaşdıra, təsdiq edə bilmədilər...*

Yenidən rəhbərliyə qayıdan Ulu Öndər Heydər Əliyevin ölkədəki anarxiya və qanunsuzluğun qarşısını alması, möhkəm və dönməz sabitlik yaratması, bazar iqtisadiyyatı münasibətlərinə keçidlə əlaqədar apardığı islahatlar, sahibkarlığın inkişafı, dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı həyata keçirdiyi iki dövlət proqramı, habelə atılan digər addımlar vəziyyəti müəyyən qədər yüngülləşdirsə də, hələ neft satışından kifayət qədər vəsait daxil olmadığından ciddi çətinliklər qalırdı.

**Cənab İlham Əliyevin prezidentliyə başladığı zaman diqqət ayırdığı ən mühüm məsələlərdən biri əhalinin güzəranının yaxşılaşdırılması idi.**

Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları qəbul edilərək uğurla reallaşdırıldı, ölkə ərazisində yaşayış məntəqələri fasiləsiz elektrik enerjisi ilə təmin olundu, qazlaşdırma 90 faizdən yuxarı qaldırıldı, hər il minlərlə yeni iş yeri açıldı, özəl sektorun inkişafı təmin edildi və s.

Məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması sahəsində də mühüm işlər görüldü, 116 yaşayış kompleksi və qaçqın şəhərciyi salınaraq orada 300 mindən çox insan məskunlaşdırıldı.

*Bütövlükdə Azərbaycan vətəndaşının gəliri ilə yanaşı, sosial rifahı da xeyli yüksəlmişdir. Paytaxt Bakı dünyanın ən gözəl meqapolislərindən birinə çevrilmiş, bütün şəhər, kənd və qəsəbələrin siması əsaslı şəkildə dəyişmiş, insanlar özlərinə bir-birindən gözəl fərdi evlər tikdirmiş, çoxmərtəbəli binalardakı mənzillərə köçmüş, hətta bir ailənin bir neçə üzvü özünə minik maşını almışdır.*

*Bütün bunlar təkcə statistika deyil, həm də gözlə görünənlərdir.*

Qarabağa və Şərqi Zəngəzura qayıdanlar isə müasir qəsəbələrdə, hər bir şəraiti olan evlərdə xoşbəxt günlərini yaşayırlar.

**Təbii, həyat durmadan inkişaf edir, daim yenilənir.**

**İnsanların da tələb və ehtiyacları durmadan artır.**

Cənab İlham Əliyevin illər öncə söylədiyi sözü yada salırıq: *"Azərbaycan xalqı xoşbəxt yaşamağa layiqdir".*

*Xoşbəxt günləri təmin etmək üçün dövlət başçısı İlham Əliyev əlindən gələni edir və nəticələri ilbəil görünür.*

**Hesab edirik ki, xalqın sosial rifahının daim yüksəldilməsi də mühüm hədəflərdən biri kimi əsas milli ideyada əksini tapmalıdır.**

❖ ❖ ❖

Vətən müharibəsindən əvvəl də, sonra da Azərbaycanın iqtisadi qüdrətinin artırılması və siyasi nüfuzunun yüksəldilməsi sahəsində əsaslı işlər görülmüş, tarixinin ən qüdrətli Azərbaycanı yaradılmışdır.

Bu, həm də ən müasir, ən yeni silahlarla silahlanmış ordu qurulmasına, işğal altındakı torpaqları azad etməklə ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin və Konstitusiya əsaslarının təmin olunmasına imkan yaratmışdır.

Xalqın sosial rifahının yüksəldilməsi sahəsində də mühüm işlər görülmüş, ölkə vətəndaşlarının iqtisadi durumu xeyli yüksəlmişdir.

Belə ki, görülən tədbirlər sayəsində yoxsulluq və işsizlik 40-50 faizdən 4-5 faizə enmişdir.

Lakin ölkə miqyasında hələ də həllini gözləyən müəyyən problemlər qalmaqdadır.

Ən əsası 30 il ərzində qaçqın həyatı yaşayan, bir çox halda ağır vəziyyətdə ömür sürən insanların yaşayış səviyyəsinin yüksəldilməsi vacib məsələlərdəndir.

**Dövlət başçısı İlham Əliyev bu sahəni daim diqqət mərkəzində saxlayır, "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə bağlı sistemli tədbirlər görür.**

Ən əsası Qarabağın və Şərqi Zəngəzurun məskunlaşdırılması, orada zəruri infrastruktur və iş yerlərinin yaradılması, keçmiş məcburi köçkünlərin mümkün qədər az vaxtda doğma yurd-yuvalarına qaytarılması istiqamətində mühüm addımlar atır.

2026-cı ilədək 34500 ailənin - 140 mindən çox insanın doğma yurda qaytarılması nəzərdə tutulmuşdur və onların bir qismi artıq geriyə dönərək ən müqəddəs arzularına qovuşmuşlar.

Təbii ki, bütün bunlar külli miqdarda vəsait və müəyyən zaman tələb edir.

Ən əsası geriyə dönüşün təmin olunması üçün Azərbaycanın iqtisadi gücü və maliyyə imkanları durmadan artırılmalı, ölkənin təhlükəsizliyinin təmini üçün ordu daha da gücləndirilərək daim ayaqda olmalıdır!

*Göründüyü kimi, bu üç hədəf bir-biri ilə üzvi şəkildə bağlıdır!*

*İnsanların yaşayış səviyyəsinin yüksəldilməsi üçün dövlət daim güclənməli, iqtisadi imkanlarını artırmalıdır.*

*Eyni zamanda xalq, dövlət revanşizm niyyətlərindən hələ də əl çəkməyən, havadarları tərəfindən müntəzəm surətdə silahlandırılan düşməndən etibarlı şəkildə qorunmalı, Zəfər ordusu daim yeni zəfərlərə hazır vəziyyətdə saxlanılmalıdır.*

**Bütün bu zəruri məqamları və indiyədək Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən görülən möhtəşəm işləri nəzərə alaraq hesab edirik ki, növbəti, yeni dövrdə milli hədəflərimiz davam etdirilməli, ƏSAS MİLLİ İDEYA İSƏ QÜDRƏTLİ DÖVLƏT, GÜCLÜ ORDU VƏ YÜKSƏK RİFAH OLMALIDIR!**

**Bəxtiyar SADIQOV**

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 404

QƏRAR

Bakı şəhəri, 6 sentyabr 2024-cü il

## Azərbaycan Respublikasının "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Məktəbəqədər təhsil haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" 2020-ci il 24 aprel tarixli 61-VIQD nömrəli, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 8 iyul tarixli 581-VIQD nömrəli, "Məhkəmələr və hakimlər haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Dövlət rüsumu haqqında", "Əmək pensiyaları haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında", "Dəniz limanları haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 iyul tarixli 582-VIQD nömrəli və "Yol hərəkəti haqqında", "Prokurorluq haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Notariat haqqında", "Yetkinlik yaşına çatmayanlarınbaxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnformasiya əldə etmək haqqında", "Biometrik informasiya haqqında", "Fərdi məlumatlar haqqında", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 iyul tarixli 584-VIQD nömrəli qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Məktəbəqədər təhsil haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" 2020-ci il 24 aprel tarixli 61-VIQD nömrəli, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 8 iyul tarixli 581-VIQD nömrəli, "Məhkəmələr və hakimlər haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Dövlət rüsumu haqqında", "Əmək pensiyaları haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında", "Dəniz limanları haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 iyul tarixli 582-VIQD nömrəli və "Yol hərəkəti haqqında", "Prokurorluq haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Notariat haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnformasiya əldə etmək haqqında", "Biometrik informasiya haqqında", "Fərdi məlumatlar haqqında", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 8 iyul tarixli 584-VIQD nömrəli qanunlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 9 yanvar tarixli 6 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, (Cild I) ilə təsdiq edilmiş "Əqli və fiziki inkişafında pozuntular olan uşaqlar üçün internat tipli xüsusi ümumtəhsil məktəblərinin rəhbər işçiləri, inzibati-təsərrüfat, tədris-yardımçı və xidmət işçiləri heyətinin nümunəvi ştatları"nın "Qeydlər" bölməsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 6-cı hissədə "Kar, zəif eşidən və sonradan karlaşmış, kor və zəif görən əqli cəhətdən" sözləri "Eşitmə qabiliyyəti tam və qismən məhdud olan və eşitmə qabiliyyətini sonradan tam itirmiş, görmə qabiliyyəti tam və qismən məhdud olan əqli" sözləri ilə əvəz edilsin;

1.2. 7-ci hissədə "Kor və zəif görən" sözləri "Görmə qabiliyyəti tam və qismən məhdud olan" sözləri ilə, "nitqi qüsurlu" sözləri "nitq pozuntusu olan" sözləri ilə əvəz edilsin;

1.3. 9-cu hissənin birinci cümləsində "Kar, zəif eşidən və sonradan karlaşmış" sözləri "Eşitmə qabiliyyəti tam və qismən məhdud olan və eşitmə qabiliyyətini sonradan tam itirmiş" sözləri ilə əvəz edilsin;

1.4. 10-cu hissədə "Kar" sözü "Eşitmə qabiliyyəti tam məhdud olan" sözləri ilə, "zəif eşidən və sonradan karlaşmış" sözləri "eşitmə qabiliyyəti qismən məhdud olan və eşitmə qabiliyyətini sonradan tam itirmiş" sözləri ilə əvəz edilsin;

1.5. 14-cü hissənin ikinci cümləsində "Kor və zəif görən" sözləri "Görmə qabiliyyəti tam və qismən məhdud olan" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 1 sentyabr tarixli 479 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, (Cild I) ilə təsdiq edilmiş "İstehlak mallarının və xidmətlərin qiymət artımı ilə əlaqədar əhalinin pul gəlirlərinin indeksləşdirilməsi qaydası haqqında metodiki təlimat"ın II hissəsinin birinci abzasında "şikəst olmaq və yaxud sağlamlığa digər zədə dəyməsi" sözləri "xəsarətalma və ya sağlamlığın başqa şəkildə pozulması" sözləri ilə əvəz edilsin.

3. "Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli 103 nömrəli Qərarında (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 21 noyabr tarixli 402 nömrəli Qərarı; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, (Cild I); 2024, № 1, maddə 78, № 5 (II kitab), maddə 618) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3-cü hissədə "ağıldankəm" sözü "əqli geriliyi olan" sözləri ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrində, həmçinin ağıldankəm uşaqlar üçün internat evlərində və Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin "DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində vətəndaşların qida normaları" üzrə:

3.2.1. adında "ağıldankəm" sözü "əqli geriliyi olan" sözləri ilə əvəz edilsin;

3.2.2. cədvəlin "Ağıldankəm uşaqlar üçün internat evləri" sütununun adında "Ağıldankəm" sözü "Əqli geriliyi olan" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 10 may tarixli 185 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, (Cild I); 2024, № 1, maddə 79) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında əlilliyi olan şəxslərin problemləri üzrə kompleks Proqram"da aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci hissənin ikinci abzasında "əmək şikəstlərinin" sözləri "istehsalat qəzası" sözləri ilə, "karların və korların" sözləri "eşitmə və görmə qabiliyyəti tam məhdud olan şəxslərin" sözləri ilə əvəz edilsin;

4.2. 4-cü hissənin ikinci cümləsində "fiziki cəhətdən zəif inkişaf etmiş" sözləri "fiziki çatışmazlığı olan" sözləri ilə, "lal, kar və kor" sözləri "nitq, eşitmə və görmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

4.3.5.2-ci bəndin "Tədbirlər" sütunu üzrə:

4.3.1. dördüncü abzasda "hadisələrində" sözü "hadisələri ilə" sözləri ilə, "zamanı əlil olanlar, müharibə əlilləri, Çernobıl əlilləri" sözləri "ilə, müharibə ilə, Çernobıl qəzası ilə" sözləri ilə əvəz edilsin;

4.3.2. on birinci abzasda "qabiliyyəti qüsurlu" sözləri "qabiliyyətində pozuntu olan" sözləri ilə əvəz edilsin;

4.4. 5.5-ci bəndin onuncu abzasının "Tədbirlər" sütununda "Karlar" sözü "Eşitmə qabiliyyəti tam məhdud olan şəxslər" sözləri ilə, "kar və zəif eşidən" sözləri "eşitmə qabiliyyəti tam və qismən məhdud olan" sözləri ilə əvəz edilsin;

4.5. 5.6-cı bəndin "Tədbirlər" sütunu üzrə:

4.5.1. ikinci abzasda "qüsurlar" sözü "pozuntular" sözü ilə əvəz edilsin;

4.5.2. üçüncü abzasda "cəhətdən qüsurlu" sözləri "pozuntusu olan" sözləri ilə əvəz edilsin;

4.5.3. dördüncü abzasda "inkişafı qüsurlu" sözləri "inkişafında pozuntu olan" sözləri ilə əvəz edilsin;

4.5.4. yeddinci abzasda "Kar və zəif eşidən" sözləri "Eşitmə qabiliyyəti tam və qismən məhdud olan" sözləri ilə əvəz edilsin;

4.5.5. səkkizinci abzasda "Görməyən və zəif görən" sözləri "Görmə qabiliyyəti tam və qismən məhdud olan" sözləri ilə, "kor" sözü "görmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

4.5.6. onuncu abzasda "Kar, kor, zəif görən" sözləri "Eşitmə qabiliyyəti tam məhdud olan, görmə qabiliyyəti tam və qismən məhdud olan" sözləri ilə əvəz edilsin.

5. "Büdcədən maliyyələşdirilən məktəbəqədər təhsil müəssisələrinin nümunəvi ştatı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 29 may tarixli 61 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Uşaq bağçalarının nümunəvi ştatı"nın "Qeydlər"inin 12-ci hissəsində "lal və karlara" sözləri "nitq və eşitmə qabiliyyəti tam məhdud olan şəxslərə" sözləri ilə əvəz edilsin;

5.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Körpələr evi-uşaq bağçalarının nümunəvi ştatları"nın "Qeydlər"i üzrə:

5.2.1. 15-ci hissədə "qüsuru" sözü "pozuntusu" sözü ilə əvəz edilsin;

5.2.2. 16-cı hissədə "qüsur" sözü "pozuntu" sözü ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 596 (Cild I); 2024, № 3, maddə 335) ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlarasığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"nin 116-cı hissəsinin beşinci abzasının birinci cümləsində "şikəst olması, yaxud səhhətinin başqa cür korlanmasına" sözləri "xəsarət almasına, yaxud sağlamlığının başqa şəkildə pozulmasına" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 58 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 246 (Cild I) ilə təsdiq edilmiş "Yaşı 18-dən az olan işçilərin əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısı"nın XXXIII bölməsinin "Tibb müəssisələri və tibb-əmək ekspertizası təşkilatları" hissəsinin üçüncü abzasından "cəhətdən" sözü çıxarılsın.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 aprel tarixli 75 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 321 (Cild I); 2024, № 1, maddə 73) ilə təsdiq edilmiş "Təhlükəli yüklərin dəniz nəqliyyatı ilə daşınması Qaydaları"nın 2.1-ci bəndində "şikəstliyinə" sözü "xəsarət almasına" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 10 iyul tarixli 116 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 563 (Cild I); 2024, № 1, maddə 111) ilə təsdiq edilmiş "Notariat qaydasında təsdiq edilmiş sənədlərə bərabər tutulan sənədlərin müvafiq vəzifəli şəxslər tərəfindən təsdiq edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

9.1. I bölmənin 14-cü hissəsində "cismani qüsuruna" sözləri "fiziki çatışmazlığına" sözləri ilə əvəz edilsin;

9.2. II bölmənin 9-cu hissəsi üzrə:

9.2.1. birinci abzasda "lal-kardırsa və ya lal-kar" sözləri "nitq-eşitmə qabiliyyəti tam məhdud olan şəxsdirsə və ya nitq-eşitmə qabiliyyəti tam məhdud" sözləri ilə əvəz edilsin;

9.2.2. ikinci abzasın birinci cümləsində "Kor" sözü "Görmə qabiliyyəti tam məhdud" sözləri ilə əvəz edilsin;

9.2.3. üçüncü abzasda "lal-kar-kordursa və ya lal-kar-kor" sözləri "nitq-eşitmə-görmə qabiliyyəti tam məhdud olan şəxsdirsə və ya nitq-eşitmə-görmə qabiliyyəti tam məhdud" sözləri ilə əvəz edilsin;

9.3. III bölmənin 5-ci hissəsi üzrə:

9.3.1. birinci abzasda "savadsız və ya kordursa" sözləri "görmə qabiliyyəti tam məhdud və ya savadsızdırsa" sözləri ilə əvəz edilsin;

9.3.2. ikinci abzasda (hər iki halda) "kar, kor və kar-lal" sözləri "eşitmə, görmə və eşitmə-nitq qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 23 avqust tarixli 148 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 652 (Cild I) ilə təsdiq edilmiş 23, 29, 32 və 37 nömrəli formaların adında "Cismani qüsuruna" sözləri "Fiziki çatışmazlığına" sözləri ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693 (Cild I); 2024, № 1, maddələr 110, 111, № 3, maddə 359, № 5 (II kitab), maddələr 597, 606) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

11.1. 22-ci hissə üzrə:

11.1.1. birinci abzasın birinci cümləsində "cismani qüsuruna" sözləri "fiziki çatışmazlığına" sözləri ilə əvəz edilsin;

11.1.2. ikinci abzasda "savadsız və kordursa" sözləri "görmə qabiliyyəti tam məhdud və savadsızdırsa"sözləri ilə əvəz edilsin;

11.1.3. üçüncü abzasda "kar, kor və kar-lal" sözləri "eşitmə, görmə və eşitmə-nitq qabiliyyəti tam məhdud olan" sözləri ilə, "kar, kor və ya kar-lal" sözləri "eşitmə, görmə və eşitmə-nitq qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

11.2. 64-cü hissənin üçüncü abzasının birinci cümləsində "qüsurlarına" sözü "çatışmazlığına" sözü ilə əvəz edilsin;

11.3. 65-ci hissə üzrə:

11.3.1. birinci abzasda "lal-kardırsa və ya lal-kar" sözləri "nitq-eşitmə qabiliyyəti tam məhdud olan şəxsdirsə və ya nitq-eşitmə qabiliyyəti tam məhdud" sözləri ilə əvəz edilsin;

11.3.2. ikinci abzasın birinci cümləsində "Kor" sözü "Görmə qabiliyyəti tam məhdud" sözləri ilə əvəz edilsin;

11.3.3. üçüncü abzasın birinci cümləsində "lal-kar və ya lal-kar-kor" sözləri "nitq-eşitmə-görmə qabiliyyəti tam məhdud olan və ya nitq-eşitmə-görmə qabiliyyəti tam məhdud" sözləri ilə əvəz edilsin;

11.4. 130-cu hissənin birinci və ikinci abzaslarında "cismani qüsurlarına" sözləri "fiziki çatışmazlığına" sözləri ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 aprel tarixli 73 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 4 (II kitab), maddə 214 (Cild I) ilə təsdiq edilmiş "Loqopedik xidmət haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

12.1. I bölmənin 1-ci hissəsi üzrə:

12.1.1. birinci abzas üzrə:

12.1.1.1. birinci cümlədə "nitqi qüsurlu" sözləri "nitqində pozuntu" sözləri ilə əvəz edilsin;

12.1.1.2. ikinci cümlədə "Zəif eşidən, zəif görən, çəpgöz, əqli və fiziki inkişafdan geri qalan" sözləri "Eşitmə, görmə qabiliyyəti qismən məhdud olan, çəpgözlüyü olan, fiziki çatışmazlığı, əqli geriliyi olan" sözləri ilə, hər iki halda "nitqi qüsurlu" sözləri "nitq pozuntusu olan" sözləri ilə, "zəif eşidən və sonradan karlaşmış, kor və zəif görən, əqli və fiziki inkişafdan geri qalan" sözləri "eşitmə qabiliyyəti qismən məhdud olan və eşitmə qabiliyyətini sonradan tam itirmiş, görmə qabiliyyəti tam və qismən məhdud olan, fiziki çatışmazlığı, əqli geriliyi olan" sözləri ilə əvəz edilsin;

12.1.2. ikinci abzasda "qüsurunun" sözü "pozuntusunun" sözü ilə əvəz edilsin;

12.2. II bölmə üzrə:

12.2.1. 1-ci hissənin birinci abzasının ikinci cümləsində "kəkələmə" sözü "qeyri-iradi nitq pozuntusu" sözləri ilə, "qüsurları" sözü "pozuntuları" sözü ilə, "qüsurlar" sözü "pozuntular" sözü ilə əvəz edilsin;

12.2.2. 2-ci hissənin birinci abzası üzrə:

12.2.2.1. birinci cümlədə "nitqi qüsurlu" sözləri "nitq pozuntusu olan" sözləri ilə əvəz edilsin;

12.2.2.2. ikinci cümlədə "nitqi qüsurlu" sözləri "nitq pozuntusu olan" sözləri ilə, "qüsurundan" sözü "pozuntusundan" sözü ilə əvəz edilsin;

12.2.3. 3-cü hissədə "qüsurlara" sözü "pozuntulara" sözü ilə əvəz edilsin;

12.2.4. 4-cü hissə üzrə:

12.2.4.1. ikinci abzasda "qüsurları" sözü "pozuntuları" sözü ilə əvəz edilsin;

12.2.4.2. səkkizinci abzasda "kəkələmə" sözü "qeyri-iradi nitq pozuntusu" sözləri ilə əvəz edilsin;

12.2.4.3. doqquzuncu abzasda "nöqsanı" sözü "pozuntusu" sözü ilə əvəz edilsin;

12.2.5. 5-ci hissənin birinci abzasının ikinci cümləsində "qüsuru" sözü "pozuntusu" sözü ilə əvəz edilsin;

12.2.6. 7-ci hissə üzrə:

12.2.6.1. üçüncü və beşinci abzaslarda "qüsuru" sözü "pozuntusu" sözü ilə əvəz edilsin;

12.2.6.2. dördüncü abzasda "kəkələyən" sözü "qeyri-iradi nitq pozuntusu olan" sözləri ilə əvəz edilsin;

12.2.7. 9-cu hissədə "qüsurlarının" sözü "pozuntularının" sözü ilə əvəz edilsin;

12.2.8. 10-cu hissədə "Nitqi qüsurlu" sözləri "Nitq pozuntusu olan" sözləri ilə əvəz edilsin;

12.3. III bölmənin 3-cü hissəsi üzrə:

12.3.1. üçüncü abzasda "qüsurlarının" sözü "pozuntularının" sözü ilə əvəz edilsin;

12.3.2. dördüncü abzasda "qüsuru" sözü "pozuntusu" sözü ilə əvəz edilsin;

12.3.3. altıncı abzasda "nitqi qüsurlu" sözləri "nitqində pozuntu olan" sözləri ilə əvəz edilsin;

12.3.4. səkkizinci abzasın üçüncü cümləsində "qüsurları" sözü "pozuntuları" sözü ilə əvəz edilsin;

12.4. IV bölmənin 3-cü hissəsinin dördüncü cümləsində "nitqi qüsurlu" sözləri "nitqində pozuntu olan" sözləri ilə əvəz edilsin;

12.5. həmin Əsasnaməyə 1 nömrəli əlavə - "NİTQİ QÜSURLU UŞAQLARIN SİYAHISI"nın adında "NİTQİ QÜSURLU" sözləri "NİTQ POZUNTUSU OLAN" sözləri ilə əvəz edilsin;

12.6. həmin Əsasnaməyə 2 nömrəli əlavə - "NİTQ XƏRİTƏSİ" üzrə:

12.6.1. 15-ci hissədə "Kəkələmə" sözü "Qeyri-iradi nitq pozuntusu" sözləri ilə əvəz edilsin;

12.6.2. 16-cı hissədə "qüsuruna" sözü "pozuntusuna" sözü ilə əvəz edilsin;

12.7. həmin Əsasnaməyə 3 nömrəli əlavə - "Loqopedik xidmət göstərilmiş şifahi və yazılı nitqində qüsurları olan uşaqların sayı haqqında HESABAT" üzrə:

12.7.1. adında "qüsurları" sözü "pozuntu" sözü ilə əvəz edilsin;

12.7.2. cədvəlin yeddinci sütununda "Kəkələmə" sözü "qeyri-iradi nitq pozuntusu" sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 may tarixli 78 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 315 (Cild I); 2024, № 1, maddə 73) ilə təsdiq edilmiş "Xüsusi təhsil müəssisələri haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

13.1. 1-ci hissədə "kar" sözü "eşitmə qabiliyyəti tam məhdud olan" sözləri ilə, "zəifeşidən və sonradan karlaşmış" sözləri "eşitmə qabiliyyəti qismən məhdud olan və eşitmə qabiliyyətini sonradan tam itirmiş" sözləri ilə, "nitqi qüsurlu" sözləri "nitq pozuntusu olan" sözləri ilə, "kor və zəifgörən" sözləri "görmə qabiliyyəti tam və qismən məhdud olan" sözləri ilə, "əqli cəhətdən zəif inkişaf etmiş" sözləri "əqli geriliyi olan" sözləri ilə və "kar-kor" sözü "eşitmə-görmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

13.2. 9-cu hissə üzrə:

13.2.1. ikinci abzasda "Kar" sözü "Eşitmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

13.2.2. dördüncü abzasda "Zəifeşidən və sonradan karlaşmış" sözləri "Eşitmə qabiliyyəti qismən məhdud olan və eşitmə qabiliyyətini sonradan tam itirmiş" sözləri ilə əvəz edilsin;

13.2.3. altıncı abzasda "qüsurlarının" sözü "pozuntularının" sözü ilə əvəz edilsin;

13.2.4. səkkizinci abzasda "Nitqi qüsurlu" sözləri "Nitq pozuntusu olan" sözləri ilə əvəz edilsin;

13.2.5. doqquzuncu abzasın birinci cümləsində (hər iki halda) "qüsurları" sözü "pozuntuları" sözü ilə, "kəkələyən" sözü "qeyri-iradi nitq pozuntusu olan" sözləri ilə əvəz edilsin;

13.2.6. on birinci abzasda "Kor və zəifgörən" sözləri "Görmə qabiliyyəti tam və qismən məhdud olan" sözləri ilə əvəz edilsin;

13.2.7. on üçüncü abzasın birinci və ikinci cümlələrində, on dördüncü abzasda "Əqli cəhətdən zəif inkişaf etmiş" sözləri "Əqli geriliyi olan" sözləri ilə əvəz edilsin;

13.2.8. on səkkizinci abzasda "kar-kor" sözü "eşitmə-görmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

13.3. 10-cu hissədə "Kar, zəifeşidən və sonradan karlaşmış, kor və zəifgörən" sözləri "Eşitmə qabiliyyəti tam və qismən məhdud olan və eşitmə qabiliyyətini sonradan tam itirmiş, görmə qabiliyyəti tam və qismən məhdud olan" sözləri ilə, "əqli cəhətdən zəif inkişaf etmiş" sözləri "əqli geriliyi olan" sözləri ilə əvəz edilsin;

13.4. 11-ci hissənin ikinci abzasında "kar" sözü "eşitmə qabiliyyəti tam məhdud olan" sözləri ilə, "zəifeşidən və sonradan karlaşmış" sözləri "eşitmə qabiliyyəti qismən məhdud olan və eşitmə qabiliyyətini sonradan tam itirmiş" sözləri ilə, "nitqi qüsurlu" sözləri "nitq pozuntusu olan" sözləri ilə, "kor və zəifgörən" sözləri "görmə qabiliyyəti tam və qismən məhdud olan" sözləri ilə, "əqli cəhətdən zəif inkişaf etmiş" sözləri "əqli geriliyi olan" sözləri ilə və "kar-kor" sözü "eşitmə-görmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

13.5. 12-ci hissədə "Əqli cəhətdən zəif inkişaf etmiş" sözləri "Əqli geriliyi olan" sözləri ilə, "kar, zəifeşidən və sonradan karlaşmış, kor və zəifgörən" sözləri "eşitmə qabiliyyəti tam və qismən məhdud olan və eşitmə qabiliyyətini sonradan tam itirmiş, görmə qabiliyyəti tam və qismən məhdud olan" sözləri ilə əvəz edilsin;

13.6. 13-cü hissədə "Əqli və ya fiziki cəhətdən ağır" sözləri "Ağır əqli və fiziki" sözləri ilə əvəz edilsin;

13.7. 22-ci hissədə "qüsurları" sözü "pozuntuları" sözü ilə əvəz edilsin;

13.8. 26-cı hissə üzrə:

13.8.1. birinci abzasda "Kor və zəifgörən" sözləri "Görmə qabiliyyəti tam və qismən məhdud olan" sözləri ilə əvəz edilsin;

13.8.2. üçüncü abzasda "qüsurunun" sözü "pozuntusunun" sözü ilə əvəz edilsin;

13.9. 27-ci hissənin birinci abzasında "Əqli cəhətdən zəif inkişaf etmiş" sözləri "Əqli geriliyi olan" sözləri ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 may tarixli 85 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 322 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "Reabilitasiya mərkəzləri haqqında Əsasnamə"nin2.1-ci bəndində "karlar və zəifeşidənlər, korlar və zəifgörənlər, ağır nitq qüsurları" sözləri "eşitmə qabiliyyəti tam və qismən məhdud olanlar, görmə qabiliyyəti tam və qismən məhdud olanlar, ağır nitq pozuntuları" sözləri ilə, "əqli cəhətdən geri qalanlar" sözləri "əqli geriliyi olanlar" sözləri ilə əvəz edilsin.

*Ardı 5-ci səh.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 404

QƏRAR

Bakı şəhəri, 6 sentyabr 2024-cü il

## Azərbaycan Respublikasının “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında”, “Məktəbəqədər təhsil haqqında” və “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” 2020-ci il 24 aprel tarixli 61-VIQD nömrəli, “Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 8 iyul tarixli 581-VIQD nömrəli, “Məhkəmələr və hakimlər haqqında”, “Əməliyyat-axtarış fəaliyyəti haqqında”, “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında”, “Dövlət rüsumu haqqında”, “Əmək pensiyaları haqqında”, “Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Bədən tərbiyəsi və idman haqqında”, “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında”, “Dəniz limanları haqqında”, “Məktəbəqədər təhsil haqqında”, “Peşə təhsili haqqında” və “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” 2022-ci il 8 iyul tarixli 582-VIQD nömrəli və “Yol hərəkəti haqqında”, “Prokurorluq haqqında”, “Vəkillər və vəkillik fəaliyyəti haqqında”, “Notariat haqqında”, “Yetkinlik yaşına çatmayanlarınbaxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında”, “İnformasiya əldə etmək haqqında”, “Biometrik informasiya haqqında”, “Fərdi məlumatlar haqqında”, “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında” və “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” 2022-ci il 8 iyul tarixli 584-VIQD nömrəli qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

*Əvvəli 4-cü səh.*

15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 may tarixli 86 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 323 (Cild I) ilə təsdiq edilmiş "Sağlamlıq imkanları məhdud şəxslərin pulsuz xüsusi təhsil almaq Qaydası"nın 2-cı hissəsində "karlar və zəifeşidənlər, korlar və zəifgörənlər, ağır nitq qüsurları" sözləri "eşitmə qabiliyyəti tam və qismən məhdud olanlar, görmə qabiliyyəti tam və qismən məhdud olanlar, ağır nitq pozuntuları" sözləri ilə, "əqli cəhətdən geri qalanlar" sözləri "əqli geriliyi olanlar" sözləri ilə əvəz edilsin.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 may tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 324 (Cild I) ilə təsdiq edilmiş "İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili Qaydaları"nın 7-ci hissəsində "Kar, kor" sözləri "Eşitmə, görmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin.

17. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 oktyabr tarixli 161 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 644 (Cild I) ilə təsdiq edilmiş "Dövlət sirri təşkil edən məlumatlarla işləməyi istisna edən xəstəliklərinSiyahısı"nın 10-cu hissəsində "Kəmağıllıq" sözü "Əqli gerilik" sözləri ilə əvəz edilsin.

18. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 12 avqust tarixli 106 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 461 (Cild I) ilə təsdiq edilmiş "İşçilərə həftə ərzində 36 saatdan çox olmayan, qısaldılmış iş vaxtı müəyyən edilən yüksək həssaslıq, həyəcan, zehni, fiziki və əsəb gərginliyi, habelə insanın səhhətinə mənfi təsir göstərən digər amillər olan əmək şəraitli iş yerləri üzrə iş vaxtının konkret müddəti göstərilməklə peşələrin, vəzifələrin Siyahısı"nın 5-ci hissəsində "ağıldankəm" sözü "əqli geriliyi olan" sözləri ilə əvəz edilsin.

19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627 (Cild I); 2024, № 1, maddələr 110, 124) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın 3.3-cü bəndinin birinci abzasında, 5.11.1-ci yarımbəndində və 5.13-cü bəndinin birinci cümləsində "kəmağıllıq" sözü "əqli gerilik" sözləri ilə əvəz edilsin.

20. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 9 yanvar tarixli 2 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 50 (Cild I); 2024, № 5 (II kitab), maddə 579) ilə təsdiq edilmiş "Büdcədən maliyyələşdirilən səhiyyə işçilərinin əməyinin ödənilməsi sistemi, növləri və məbləği"nin 2.2.1.1-ci yarımbəndində aşağıdakı dəyişikliklər edilsin:

20.1. "ə" abzasında "(kar-lal, kar, ağır eşidən)" sözləri "(eşitmə-nitq qabiliyyəti tam məhdud, eşitmə qabiliyyəti tam və qismən məhdud olan)" sözləri ilə, "kəkələyən" sözü "qeyri-iradi nitq pozuntusu olan" sözləri ilə, "(kor, zəif görən)" sözləri "(görmə qabiliyyəti tam və qismən məhdud olan)" sözləri ilə əvəz edilsin;

20.2. "o" abzasında "kor-kar-lal" sözü "görmə-eşitmə-nitq qabiliyyəti tam məhdud olan" sözləri ilə, "qabiliyyəti qüsurlu" sözləri "qabiliyyətində pozuntu olan" sözləri ilə, "kar və korlar" sözləri "eşitmə və görmə qabiliyyəti tam məhdud olanlar" sözləri ilə, "kar-lal" sözü "eşitmə-nitq qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

20.3. "ö" abzasında "qabiliyyəti qüsurlu" sözləri "qabiliyyətində pozuntu" sözləri ilə əvəz edilsin.

21. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 4 mart tarixli 24 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 191 (Cild I); 2024, № 1, maddə 76) ilə təsdiq edilmiş "Sağlamlıq imkanları məhdud şəxslər üçün məktəbəqədər xüsusi təhsil müəssisələri haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

21.1. 6-cı hissə üzrə:

21.1.1. ikinci abzasda "karlar və zəifeşidənlər" sözləri "eşitmə qabiliyyəti tam və qismən məhdud olanlar" sözləri ilə əvəz edilsin;

21.1.2. üçüncü abzasda "korlar və zəifgörənlər" sözləri "görmə qabiliyyəti tam və qismən məhdud olanlar" sözləri ilə əvəz edilsin;

21.1.3. dördüncü abzasda "qüsurları" sözü "pozuntuları" sözü ilə əvəz edilsin;

21.1.4. altıncı abzasda "əqli cəhətdən geri qalanlar" sözləri "əqli geriliyi olanlar" sözləri ilə əvəz edilsin;

21.2. 7-ci hissə üzrə:

21.2.1. ikinci abzasda "qüsurları" sözü "pozuntuları" sözü ilə, "kəkələmə" sözü "qeyri-iradi nitq pozuntusu" sözləri ilə əvəz edilsin;

21.2.2. üçüncü abzasda "(karlar, zəifeşidənlər və sonradan karlaşanlar)" sözləri "(eşitmə qabiliyyəti tam və qismən məhdud olanlar və eşitmə qabiliyyətini sonradan tam itirmiş şəxslər)" sözləri ilə əvəz edilsin;

21.2.3. dördüncü abzasda "(korlar, zəifgörənlər, çəpgözlər və s.)" sözləri "(görmə qabiliyyəti tam və qismən məhdud olanlar, çəpgözlüyü olanlar və s.)" sözləri ilə əvəz edilsin;

21.2.4. beşinci abzasda "(əqli cəhətdən gerilik, psixi inkişaf ləngliyi, ağır əqli geriliyi)" sözləri "(əqli geriliyi və ağır əqli geriliyi, psixi inkişaf ləngliyi)" sözləri ilə əvəz edilsin;

21.2.5. yeddinci abzasda "kar-korlar" sözü "eşitmə-görmə qabiliyyəti tam məhdud olanlar" sözləri ilə əvəz edilsin;

21.3. 8-ci hissə üzrə:

21.3.1. ikinci abzasda "kor" sözü "görmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

21.3.2. üçüncü abzasda "zəifgörən, çəpgöz" sözləri "görmə qabiliyyəti qismən məhdud olan, çəpgözlüyü olan" sözləri ilə əvəz edilsin;

21.3.3. dördüncü abzasda "kar" sözü "eşitmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

21.3.4. beşinci abzasda "zəifeşidən" sözü "eşitmə qabiliyyəti qismən məhdud olan" sözləri ilə əvəz edilsin;

21.3.5. yeddinci abzasda "kəkələyən" sözü "qeyri-iradi nitq pozuntusu olan" sözləri ilə əvəz edilsin;

21.3.6. doqquzuncu abzasda "cəhətdən qüsurlu" sözləri "pozuntusu olan" sözləri ilə əvəz edilsin;

21.4. 10-cu hissə üzrə:

21.4.1. birinci abzasda "qabiliyyəti qüsurlu" sözləri "qabiliyyətində pozuntu olan" sözləri ilə əvəz edilsin;

21.4.2. ikinci abzasda "kor" sözü "görmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

21.4.3. üçüncü abzasda "zəifgörən" sözü "görmə qabiliyyəti qismən məhdud olan" sözləri ilə əvəz edilsin;

21.4.4. dördüncü abzasda "çəpgöz" sözü "çəpgözlüyü olan" sözləri ilə əvəz edilsin;

21.5. 11-ci hissə üzrə:

21.5.1. birinci abzasda "qabiliyyəti qüsurlu" sözləri "qabiliyyətində pozuntu olan" sözləri ilə, "kar-lal" sözü "eşitmə-nitq qabiliyyəti tam məhdud olan" sözləri ilə, "əqli inkişafdan geri qalan" sözləri "əqli geriliyi olan" sözləri ilə əvəz edilsin;

21.5.2. ikinci abzasda "Kar" sözü "Eşitmə qabiliyyəti tam məhdud olan" sözləri ilə, "zəifeşidən" sözü "eşitmə qabiliyyəti qismən məhdud olan" sözləri ilə əvəz edilsin;

21.5.3. "Qeyd"in birinci cümləsində "eşitmə qabiliyyəti zəif olan" sözləri "eşitmə qabiliyyəti qismən məhdud olan" sözləri ilə əvəz edilsin;

21.6. 12-ci hissənin birinci abzasından "cəhətdən" sözü çıxarılsın;

21.7. 13-cü hissə üzrə:

21.7.1. birinci abzasda "Nitqi qüsurlu" sözləri "Nitq pozuntusu olan" sözləri ilə, "qüsurunun" sözü "pozuntusunun" sözü ilə əvəz edilsin;

21.7.2. üçüncü abzasda "kəkələyən" sözü "qeyri-iradi nitq pozuntusu olan" sözləri ilə əvəz edilsin;

21.7.3. onuncu abzasda "Kəkələyən" sözü "Qeyri-iradi nitq pozuntusu olan" sözləri ilə əvəz edilsin;

21.7.4. on ikinci abzasda "nitqi qüsurlu" sözləri "nitq pozuntusu olan" sözləri ilə əvəz edilsin;

21.8. 14-cü hissənin birinci abzasında "orqanları qüsurlu" sözləri "orqanlarında çatışmazlıq olan" sözləri ilə əvəz edilsin;

21.9. 32-ci hissə üzrə:

21.9.1. "a" bəndi üzrə:

21.9.1.1. birinci abzasda "qabiliyyəti qüsurlu" sözləri "qabiliyyətində pozuntu olan" sözləri ilə əvəz edilsin;

21.9.1.2. dördüncü abzasda "kar, zəifeşidən" sözləri "eşitmə qabiliyyəti tam və qismən məhdud olan" sözləri ilə əvəz edilsin;

21.9.2. "b" bəndi üzrə:

21.9.2.1. birinci abzasda "qabiliyyəti qüsurlu" sözləri "qabiliyyətində pozuntu olan" sözləri ilə əvəz edilsin;

21.9.2.2. ikinci abzasda "kor-karlar" sözü "görmə-eşitmə qabiliyyəti tam məhdud olanlar" sözləri ilə əvəz edilsin;

21.9.2.3. üçüncü abzasda "lal" sözü "nitq qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

21.9.2.4. dördüncü abzasda "əqli cəhətdən geri qalanlar" sözləri "əqli geriliyi olanlar" sözləri ilə əvəz edilsin;

21.9.3. "c" bəndi üzrə:

21.9.3.1. birinci abzasdan "cəhətdən" sözü çıxarılsın;

21.9.3.2. üçüncü abzasda "kar və zəifeşidənlər" sözləri "eşitmə qabiliyyəti tam və qismən məhdud olanlar" sözləri ilə əvəz edilsin;

21.9.3.3. dördüncü abzasda "kor və zəifgörənlər" sözləri "görmə qabiliyyəti tam və qismən məhdud olanlar" sözləri ilə əvəz edilsin;

21.9.4. "ç" bəndi üzrə:

21.9.4.1. birinci abzasda "nitqi qüsurlu" sözləri "nitq pozuntusu olan" sözləri ilə əvəz edilsin;

21.9.4.2. ikinci abzasda "kar və zəifeşidənlər" sözləri "eşitmə qabiliyyəti tam və qismən məhdud olanlar" sözləri ilə əvəz edilsin;

21.9.4.3. üçüncü abzasda "kor və zəifgörənlər" sözləri "görmə qabiliyyəti tam və qismən məhdud olanlar" sözləri ilə əvəz edilsin;

21.9.4.4. dördüncü abzasda "əqli inkişafdan geri qalanlar" sözləri "əqli geriliyi olanlar" sözləri ilə əvəz edilsin;

21.9.5. "d" bəndinin birinci abzasında "orqanları qüsurlu" sözləri "orqanlarında çatışmazlıq olan" sözləri ilə əvəz edilsin.

22. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 5 iyul tarixli 92 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 583 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 579) ilə təsdiq edilmiş "Əmək şəraitinə və əmək funksiyasının xarakterinə görə əlavə məzuniyyət hüququ verən, zərərli və ağır istehsalatların, peşə və vəzifələrin Siyahısı"nın "XXXVII. Səhiyyə" bölməsinin "İstehsalat, peşə və vəzifələrin adı" sütununda aşağıdakı dəyişikliklər edilsin:

22.1. "Uşaq psixiatrik (ruhi-əsəb) müalicə-profilaktika müəssisələri, şöbələr, palatalar və kabinetləri (psixikası pozulmamaqla mərkəzi sinir sistemi zədələnmələri olan uşaqlar üçün nəzərdə tutulmuşlardan başqa); ağıldan kəm uşaqlar və psixikası pozulmaqla mərkəzi sinir sistemi zədələnmiş uşaqlar üçün sosial-təminat müəssisələri (şöbələr), məktəblər (siniflər), internat məktəbləri (siniflər), uşaq evləri (qrupları), körpələr evi-bağçalar (qruplar), körpələr evi (qruplar) və uşaq evləri (qrupları); kor-lal-kar uşaqlar üçün evlər, internatlar" hissəsinin adında "ağıldan kəm" sözləri "əqli geriliyi olan" sözləri ilə, "kor-lal-kar" sözü "görmə-nitq-eşitmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

22.2. 178-ci hissədən "cəhətdən" sözü çıxarılsın.

23. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 noyabr tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 963 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 579) ilə təsdiq edilmiş "İşçilərə həftə ərzində 36 saatdan çox olmayan, qısaldılmış iş vaxtı müəyyən edilən əmək şəraiti fiziki, kimyəvi, bioloji və habelə insanın sağlamlığı üçün zərərli olan digər ağır istehsalat amilləri mövcud olan əmək şəraitli istehsalatların, peşə və vəzifələrin Siyahısı"nın "İstehsalatların, peşə və vəzifələrin adı" sütununun "XXXV. İqtisadiyyatın bütün sahələrində" bölməsinin "Ümumi peşələr və vəzifələr" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

23.1. 3-cü bənddə "kor" sözü "görmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

23.2. 4-cü bənddə "kora" sözü "görmə qabiliyyəti tam məhdud olan şəxsə" sözləri ilə əvəz edilsin.

24. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 13 iyul tarixli 172 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 639 (Cild I) ilə təsdiq edilmiş 3 nömrəli əlavə - "Uşaq evlərinin normalar üzrə əlavə ştatları"nda aşağıdakı dəyişikliklər edilsin:

24.1. cədvəlin "Məktəbəqədər yaşlı uşaq evləri üçün" sütunu üzrə:

24.1.1. səkkizinci sətirdə "cəhətdən qüsurları" sözləri "qabiliyyətində pozuntu" sözləri ilə, "çəpgöz və nitqi qüsurlu" sözləri "çəpgözlüyü və nitq pozuntusu olan" sözləri ilə əvəz edilsin;

24.1.2. doqquzuncu sətirdə "nitqi qüsurlu" sözləri "nitq pozuntusu olan" sözləri ilə, "danışığında ağır formada qüsuru" sözləri "ağır nitq pozuntusu" sözləri ilə, "kəkələyən" sözü "qeyri-iradi nitq pozuntusu olan" sözləri ilə əvəz edilsin;

24.1.3. on birinci sətirdə "cəhətdən qüsurlu" sözləri "qabiliyyətində pozuntu olan" sözləri ilə əvəz edilsin;

24.2. "Qeydlər" üzrə:

24.2.1. 4-cü hissədə "qüsuru" sözü "pozuntu" sözü ilə, "çəpgöz" sözü "çəpgözlüyü olan" sözləri ilə əvəz edilsin;

24.2.2. 6-cı hissədə "qüsuru" sözü "çatışmazlıq" sözü ilə əvəz edilsin;

24.2.3. 8-ci hissənin birinci cümləsində "nitqində qüsuru" sözləri "nitq pozuntusu" sözləri ilə, ikinci cümləsində "Nitqində qüsuru" sözləri "Nitq pozuntusu" sözləri ilə əvəz edilsin.

25. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 134 (Cild I); 2024, № 1, maddə 81, № 5 (II kitab), maddə 594) ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"nin "IX. Xəstəliklər cədvəli yoluxucu və parazitar xəstəliklər" bölməsində qeyd edilən "Xəstəliklər cədvəli"nin 38-ci maddəsindən sonra gələn mətnin ikinci abzasının ikinci cümləsində "lal-karlara" sözləri "nitq-eşitmə qabiliyyəti tam məhdud olan şəxslərə" sözləri ilə əvəz edilsin.

26. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 oktyabr tarixli 218 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 10, maddə 1000 (Cild I); 2024, № 1, maddə 83, № 5 (II kitab), maddələr 605, 612) ilə təsdiq edilmiş "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

26.1. 2.4-cü bənd üzrə:

26.1.1. 2.4.1-ci yarımbənddə "qüsurları" sözü "pozuntuları" sözü ilə, "kəkələmə" sözü "qeyri-iradi nitq pozuntusu" sözləri ilə əvəz edilsin;

26.1.2. 2.4.2-ci yarımbənddə "(karlar, zəifeşidənlər və sonradan karlaşanlar)" sözləri "(eşitmə qabiliyyəti tam və qismən məhdud olanlar və eşitmə qabiliyyətini sonradan tam itirmiş şəxslər)" sözləri ilə əvəz edilsin;

26.1.3. 2.4.3-cü yarımbənddə "(korlar, zəifgörənlər, çəpgözlər və s.)" sözləri "(görmə qabiliyyəti tam və qismən məhdud olanlar, çəpgözlüyü olanlar və s.)" sözləri ilə əvəz edilsin;

26.1.4. 2.4.4-cü yarımbənddə "(əqli cəhətdən gerilik, psixi inkişaf ləngliyi, ağır əqli gerilik)" sözləri "(əqli geriliyi və ağır əqli geriliyi, psixi inkişaf ləngliyi)" sözləri ilə əvəz edilsin;

26.1.5. 2.4.6-cı yarımbənddə "kar-korlar" sözü "eşitmə-görmə qabiliyyəti tam məhdud olanlar" sözləri ilə əvəz edilsin;

26.2. 5.3-cü bənd üzrə:

26.2.1. 5.3.4-cü yarımbənddən ", çatışmazlıqların (nitq qüsurları, eşitmə və görmə qabiliyyətlərinin zəifliyi) korreksiya edilməsi üçün psixoloji-tibbi-pedaqoji yardım almaq" sözləri çıxarılsın;

26.2.2. aşağıdakı məzmunda 5.3.4-1-ci yarımbənd əlavə edilsin:

"5.3.4-1. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;";

26.3. 6.38-ci bəndə "təşkil olunur" sözlərindən sonra "və "Psixoloji yardım haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməklə psixoloji yardım həyata keçirilir" sözləri əlavə edilsin.

27. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 avqust tarixli 317 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1454 (Cild I); 2024, № 3, maddə 303; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 iyul tarixli 333 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"na 21 nömrəli əlavə - "Qanunsuz miqrantların saxlanılması mərkəzində saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin daktiloskopik qeydiyyat vərəqi"nin "Fərqli əlamətləri və ya fiziki pozuntuları" hissəsində "şikəstlik" sözü "əlillik" sözü ilə, "kəkələmək" sözü "qeyri-iradi nitq pozuntusu" sözləri ilə əvəz edilsin.

28. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 622 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2567 (Cild I); 2024, № 4, maddə 479) ilə təsdiq edilmiş "Dövlət məktəbəqədər təhsil müəssisələrində təhsilalanların sosial müdafiəsi Qaydası"nın 2.1.8-ci yarımbəndində "qüsurlar" sözü "pozuntular" sözü ilə əvəz edilsin.

29. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 26 fevral tarixli 62 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 365 (Cild I); 2024, № 1, maddə 80) ilə təsdiq edilmiş "Sağlamlıq imkanları məhdud olan məktəbəqədər yaşlı uşaqların təhsilinin dövlət standartları"nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

29.1. 2.2.7-ci və 2.2.8-ci yarımbəndlərdə "əqli cəhətdən geri qalan" sözləri "əqli geriliyi olan" sözləri ilə əvəz edilsin;

29.2. 2.3-cü bənd üzrə:

29.2.1. ikinci abzasda "kor" sözü "görmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

29.2.2. üçüncü abzasda "zəifgörən, çəpgöz" sözləri "görmə qabiliyyəti qismən məhdud olan, çəpgözlüyü olan" sözləri ilə əvəz edilsin;

29.2.3. dördüncü abzasda "kar" sözü "eşitmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

29.2.4. beşinci abzasda "zəifeşidən" sözü "eşitmə qabiliyyəti qismən məhdud olan" sözləri ilə əvəz edilsin;

29.2.5. yeddinci abzasda "kəkələyən" sözü "qeyri-iradi nitq pozuntusu olan" sözləri ilə əvəz edilsin;

29.2.6. doqquzuncu abzasda "əqli cəhətdən geri qalan" sözləri "əqli geriliyi olan" sözləri ilə əvəz edilsin.

30. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 iyun tarixli 320 nömrəli, 25 iyul tarixli 359 nömrəli və 30 iyul tarixli 369 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə"nin "272220. "Müharibə və 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi müəyyən edilən şəxslərin uşaqlarına aylıq müavinət" maddəsindən "əlilləri" sözü çıxarılsın.

31. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyul tarixli 270 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1000 (Cild I) ilə təsdiq edilmiş "Ümumi təhsil müəssisələrinin növlər üzrə Meyarları"nda aşağıdakı dəyişikliklər edilsin:

31.1. 10.1-ci bənd üzrə:

31.1.1. 10.1.1-ci yarımbənd üzrə:

31.1.1.1. 2-ci abzasda "əqli cəhətdən zəif inkişaf etmiş" sözləri "əqli geriliyi olan" sözləri ilə əvəz edilsin;

31.1.1.2. 3-cü abzasda "kor və zəifgörənlər" sözləri "görmə qabiliyyəti tam və qismən məhdud olanlar" sözləri ilə əvəz edilsin;

31.1.1.3. 4-cü abzasda "kar" sözü "eşitmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

31.1.1.4. 5-ci abzasda "zəifeşidən və sonradan karlaşmış" sözləri "eşitmə qabiliyyəti qismən məhdud olan və eşitmə qabiliyyətini sonradan tam itirmiş" sözləri ilə əvəz edilsin;

31.1.1.5. 6-cı abzasda "nitqi qüsurlu" sözləri "nitq pozuntusu olan" sözləri ilə əvəz edilsin;

31.1.1.6. 7-ci abzasda "kar-kor" sözü "eşitmə-görmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

31.1.2. 10.1.5-ci və 10.1.6-cı yarımbəndlərdə "əqli cəhətdən zəif inkişaf etmiş" sözləri "əqli geriliyi olan" sözləri ilə əvəz edilsin;

31.2. 11.1-ci bənd üzrə:

31.2.1. 11.1.1-ci yarımbənd üzrə:

31.2.1.1. 2-ci abzasda "əqli cəhətdən zəif inkişaf etmiş" sözləri "əqli geriliyi olan" sözləri ilə əvəz edilsin;

31.2.1.2. 3-cü abzasda "kor və zəifgörənlər" sözləri "görmə qabiliyyəti tam və qismən məhdud olanlar" sözləri ilə əvəz edilsin;

31.2.1.3. 4-cü abzasda "kar" sözü "eşitmə qabiliyyəti tam məhdud olan" sözləri ilə əvəz edilsin;

31.2.1.4. 5-ci abzasda "zəifeşidən və sonradan karlaşmış" sözləri "eşitmə qabiliyyəti qismən məhdud olan və eşitmə qabiliyyətini sonradan tam itirmiş" sözləri ilə əvəz edilsin;

31.2.1.5. 6-cı abzasda "nitqi qüsurlu" sözləri "nitq pozuntusu olan" sözləri ilə əvəz edilsin;

31.2.2. 11.1.4-cü və 11.1.5-ci yarımbəndlərdə "əqli cəhətdən zəif inkişaf etmiş" sözləri "əqli geriliyi olan" sözləri ilə əvəz edilsin.

32. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 414 (Cild I); 2024, № 1, maddə 110, № 4, maddələr 478, 479, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evlərinə qəbulu, qrup evlərini tərk etməsi, qrup evlərində xidmətin təşkili, həmçinin qrup evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın 3.8.1-ci yarımbəndində "ağıldankəm" sözü "əqli geriliyi olan" sözləri ilə əvəz edilsin.

33. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 112 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 415 (Cild I); 2024, № 1, maddələr 75, 110, № 4, maddələr 478, 479) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın 3.7.1-ci yarımbəndində "ağıldankəm" sözü "əqli geriliyi olan" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

QƏRAR

№ 409

Bakı şəhəri, 7 sentyabr 2024-cü il

### Azərbaycan Texnologiya Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.12.1-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Texnologiya Universiteti" Məhdud Məsuliyyətli Cəmiyyəti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Texnologiya Universitetinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

2. "Azərbaycan Texnologiya Universitetinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qərarın qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində Azərbaycan Texnologiya Universitetinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

QƏRAR

№ 411

Bakı şəhəri, 7 sentyabr 2024-cü il

### Azərbaycan Memarlıq və İnşaat Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.12.1-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Memarlıq və İnşaat Universiteti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Memarlıq və İnşaat Universitetinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

2. "Azərbaycan Memarlıq və İnşaat Universitetinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qərarın qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

QƏRAR

№ 410

Bakı şəhəri, 7 sentyabr 2024-cü il

### Azərbaycan Rəssamlıq Akademiyasının yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.12.1-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Rəssamlıq Akademiyası Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan Rəssamlıq Akademiyasına çevrilmə yolu ilə yenidən təşkil edilsin.

2. "Azərbaycan Rəssamlıq Akademiyasının Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qərarın qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində Azərbaycan Rəssamlıq Akademiyasının "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

QƏRAR

№ 412

Bakı şəhəri, 7 sentyabr 2024-cü il

### Bakı Slavyan Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.12.1-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Bakı Slavyan Universiteti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Bakı Slavyan Universitetinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

2. "Bakı Slavyan Universitetinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qərarın qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində Bakı Slavyan Universitetinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu ikinci gün işini müzakirələrlə davam etdirib

Bakıda keçirilən Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumu sentyabrın 10-da işini müxtəlif mövzularda müzakirələrlə davam etdirib.




AZƏRTAC xəbər verir ki, forumun ikinci günündə Aynur Quliyeva və Reyhan Həsənovanın (hər ikisi Fransa) moderatorluğu ilə "Məlumat elminin (data science) inkişafı Azərbaycanda prioritet sahələrdən biri ola bilər", "Proqnozlaşdırılma və insan müdaxilələrinin təsirinin qiymətləndirilməsində riyazi modellərin rolu", "1918-1920-ci illərdə nəşr olunmuş "Azərbaycan" qəzetinin müasir zamanda əks-sədası", "Azərbaycan və Türkiyə arasında elm və təhsil sahəsindəki əməkdaşlıq məsələləri üzrə hazırkı yanaşma", "Azərbaycan ilə Skandinaviya, həmçinin digər Qərbi Avropa dövlətləri arasında elm və təhsil münasibətləri", "Ərəb mənbələrində Azərbaycan və azərbaycanlılar", "Azərbaycanla Rusiya arasında elmi əməkdaşlığın xüsusiyyətləri və perspektivləri" və "DAAB-ın virtual məkanda fəaliyyəti" mövzularında müzakirələr aparılıb.

Tədbirdə əvvəlcə "Azərbaycan ilə Skandinaviya və digər Qərbi Avropa dövlətləri arasında elm və təhsil münasibətləri" mövzusu ətrafında danışılıb.

Çıxış edənlər beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişafında elmi-tədqiqatların rolunu vurğulayıblar. İsveçdən olan azərbaycanlı alim Səadət Kərimi yaşadığı ölkənin elmi-tədqiqat sahəsindəki təcrübəsindən bəhs edib. O deyib ki, tədqiqatların nəticələrinin cəmiyyətə açıq olmasının müsbət tərəfləri var.

"Proqnozlaşdırılma və insan müdaxilələrinin təsirinin qiymətləndirilməsində riyazi modellərin rolu" mövzusunda çıxış edən Yulduz Rəhimov (Kanada) diqqətə çatdırıb ki, 1968-ci ilə nisbətən 2023-cü ildə adambaşına düşən enerji istehsalı 10,6 dəfə artıb. Bərpaolunan enerji mənbələri ilə bağlı fikirlərini bölüşən alim insanların tələblərinin azaldılması, istifadə edilən mənbələrin sayının artırılmasının vacibliyini vurğulayıb.

"Məlumat elminin (data science) inkişafı Azərbaycanda prioritet sahələrdən biri ola bilər" mövzusunda çıxış edən Asəf Salmanov (ABŞ) dəqiq elmlərə tələbin artdığını vurğulayaraq informatikanın müasir dövrdə inkişafından danışıb. O, süni intellekt və yeni informasiya texnologiyaları ilə bağlı fikirlərini bölüşüb.

Mehdi Gəncəli isə (Türkiyə) "1918-1920-ci illərdə nəşr olunmuş "Azərbaycan" qəzetinin müasir zamanda əks-sədası" mövzusu ətrafında danışıb. Azərbaycanın müstəqillik tarixinə nəzər salan alim həmin dövrdə nəşr edilən "Azərbaycan" qəzetinin əhəmiyyətini vurğulayıb. Deyib ki, XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə "Azərbaycan" adlı rəsmi dövlət qəzetinin nəşri ölkə tarixinin mühüm hadisəsi idi.

Azərbaycanın Misirdə Diaspor Təşkilatları Birliyinin sədri Seymur Nəsirov (Misir) "Ərəb mənbələrində Azərbaycan və azərbaycanlılar" mövzusunda fikirlərini bölüşüb. Vurğulayıb ki, ərəb mənbələrində Azərbaycanla bağlı apardığı tədqiqatların nəticəsi onu qürurlandırıb. Çünki tədqiqatlarında ölkəmiz, xalqımız ilə bağlı çox müsbət məlumatlara rast gəlib. Alim 500-dən çox ərəb mənbəsini araşdırdığını və orada Bərdədən Zəncana qədər ərazilərin Azərbaycana aid olması faktı ilə rastlaşdığını diqqətə çatdırıb.

"Azərbaycan və Türkiyə arasında elm və təhsil sahəsindəki əməkdaşlıq məsələləri üzrə hazırkı yanaşma" mövzusunda fikirlərini bölüşən Toğrul İsmayıl (Türkiyə) iki qardaş ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirib. Türkiyədə təhsil alan gənclərimizin sayının kifayət qədər olduğunu deyən T.İsmayıl qardaş ölkədə çalışan azərbaycanlı alimlərin sayının da xeyli artdığını diqqətə çatdırıb.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetində çalışan Nigar Məsimova (Rusiya) "Azərbaycan və Rusiya arasında elmi əməkdaşlığın xüsusiyyətləri və perspektivləri" mövzusu ətrafında danışıb. Təhsilə, elmə sərmayə qoyulmasının vacibliyini qeyd edən N.Məsimova Azərbaycan ilə Rusiya arasındakı əlaqələrin elm və təhsil sahəsində də yüksək səviyyədə inkişaf etdiyini bildirib. Deyib ki, Rusiyada azərbaycanlı gənclərin bir araya gəlməsinə, fikir mübadiləsi aparmasına səy göstərirlər.

Nobel mükafatçısı, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Bəxtiyar Siracov (Avstriya) "Dünya Azərbaycanlı Alimlər Birliyinin (DAAB) virtual məkanda fəaliyyəti" ilə bağlı genişməzmunlu çıxış edib.

DAAB-ın fəaliyyət planı haqqında danışan B.Siracov Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun əhəmiyyətini qeyd edib. Strateji planların qəbul ediləcəyini bir daha vurğulayan Nobel mükafatçısı forumla bağlı bir il ərzində konkret nəticənin ortaya qoyulmalı olduğunu bildirib. Vurğulayıb ki, Azərbaycan hökuməti, Elm və Təhsil Nazirliyi konkret layihələr üçün kredit ayırmağa hazırdır və biz ortaya konkret iş qoyaraq bu etimadı doğrultmalıyıq.

Forumun Azərbaycanda elm və təhsil, tədqiqatlar sahəsində ümumi işə töhfə verəcəyindən əminliyini ifadə edən Nobel mükafatçısı forumda müzakirəyə çıxarılan mövzular, gəlinən ümumi nəticələr, qarşıda görüləcək işlərlə bağlı kitab nəşr olunacağını diqqətə çatdırıb.

Tədbirdə həmçinin müxtəlif mövzularda sessiyalar təşkil edilib. Sessiyalarda elm sahələri üzrə qruplaşdırılmış iştirakçılar forum çərçivəsində müzakirə olunan prioritet mövzular və ali məktəb rəhbərlərinin məruzələrində toxunulmuş məsələləri nəzərə alaraq, DAAB-ın strateji planlarının hazırlanması üzərində işləyiblər.

Forum iştirakçıları birinci sessiyada qrup bir il ərzində hansı işlərin görülə biləcəyini müzakirə edib, təkliflərini veriblər. İkinci sessiyada təkliflərə baxılıb, birillik strateji planla bağlı müzakirələr aparılıb.

Sessiyalardan sonra moderatorlar əldə olunmuş nəticələrlə bağlı təqdimat ediblər.

Tədbirin sonunda təşkil edilən yekun iclasda qısa, orta və uzaqmüddətli strategiya planı hazırlanaraq qəbul edilib.

Qeyd edək ki, Diasporla İş üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin dəstəyi, Dünya Azərbaycanlı Alimlər Dərnəyinin təşkilatçılığı ilə keçirilən tədbirə bu gün yekun vurulacaq.

Forumda 23 ölkədən 80-dən çox azərbaycanlı alim, ümumilikdə 200-ə yaxın elm xadimi iştirak edir.

## Zəfər salnaməsi




**2020-ci ilə qədər sentyabr ayında üç əlamətdar hadisəni qeyd edirdik. Onlardan biri 15 Sentyabr Bilik Günü, digəri 18 Sentyabr Musiqi Günü, o birisi də 20 Sentyabr "Əsrin müqaviləsi"nin imzalandığı gün.**

Bu günlərin hər üçü xalqımız üçün əlamətdar idi. Çünki bu günlər biliyimizi, musiqi dünyamızı, iqtisadiyyatımızı zənginləşdirirdi. Artıq 4-cü ildir ki, xalqımız sentyabr ayında daha bir neçə möhtəşəm hadisənin sevincini yaşayır. O hadisələri ki, qəhrəmanlıq tariximizə böyük hərflərlə yazılıb. Bu tarixlərlə hamımız fəxr edir və qürur duyuruq.

... 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində Vətən müharibəsi başladı. 44 gün davam edən uğurlu döyüşlərdə Azərbaycan Ordusunun hərbi qulluqçuları Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında cəsarətlə vuruşaraq erməni qəsbkarlarını məğlub etdilər. 30 ilə yaxın davam edən işğala son qoydular. Əvvəllər sözdə meydan sulayan Ermənistan ordusu bu müharibədə darmadağın olundu. Beş rayonumuz və Qarabağ ətrafındakı kənd və qəsəbələr düşmənlərdən azad edildi.

27 sentyabr 2020-ci il tariximizə torpaqlarımızın azadlığı uğrunda döyüşlərin başladığı gün - Anım günü kimi yazıldı.

Ordumuzun aramsız və güclü əks-hücumları qarşısında aciz qalan Ermənistan hakimiyyəti 10 noyabr 2020-ci ildə kapitulyasiya aktına imza atmağa məcbur oldu. Bundan sonra cəbhədə əməliyyatlar dayandırıldı, atəş səsləri bir az səngidi. Ancaq Qarabağın bəzi ərazilərinə hələ də erməni separatçıları nəzarət edirdilər. Ermənistan imzaladığı üçtərəfli Bəyanata əməl etmir, separatçıları, ordunun tör-töküntülərini Qarabağdan çıxarmırdı. Bu da növbəti antiterror tədbirlərinin keçirilməsinə zərurət yaradırdı.

Azərbaycan Ordusundan aldıqları ağır zərbələrdən geri çəkilən ermənilər uğradıqları məğlubiyyətdən düzgün nəticə çıxarıb, silahı yerə qoymurdular. Yenə də tez-tez Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutur, təxribatlar törədirdilər. Separatçılar Laçın rayonunun Zabux, Sus və başqa kəndlərindən çıxmırdılar. Görünür, İkinci Qarabağ müharibəsindəki acı məğlubiyyəti, ağır itkiləri ermənilərə yaxşı dərs olmamışdı. Deməli, yenə də düşmənə layiq olduğu yeri göstərmək lazım idi. Separatçıları məhv etmək, mövqelərimizdən geri oturtmaq üçün 12 sentyabr 2022-ci ildə ordumuz uğurlu "Qisas" əməliyyatını həyata keçirdi. Erməni separatçılarına bir-birinin ardınca güclü zərbələr endirildi. Ağır itkilərə məruz qalan düşmən bir günün içində dayandığı mövqelərdən geri çəkilmək məcburiyyətində qaldı. Əlverişli yüksəkliklər, həmçinin Laçın rayonunun Ermənistanın şərti sərhədlərinə yaxın olan kəndlərimiz separatçılardan azad edildi. 12 sentyabr 2022-ci il tariximizə "Qisas" əməliyyatının keçirildiyi gün kimi yazıldı.

Xislətləri saxtakarlıqdan yoğrulmuş ermənilərə "Qisas" əməliyyatı da yaxşı dərs olmadı. 30 ilə yaxın Qarabağda məskən salmış separatçılar, Ermənistan ordusunun tör-töküntüləri yenə də Azərbaycanın əbədi-əzəli ərazisi olan bu torpaqlardan çıxmaq istəmirdilər, həm də dinc dayanmırdılar. Mövqelərimiz qarşısında istehkamlar qazır, yeni qurğular quraşdırır, yerlərini daha da möhkəmləndirirdilər. İşğaldan azad olunmuş ərazilərimizə təxribatçı qruplar göndərirdilər. Bu qruplar nə qədər cəhd göstərsələr də, heç nəyə nail ola bilmirdilər. Hərbi qulluqçularımız tərəfindən onlar vaxtında aşkarlanır və zərərsizləşdirilirdilər.

Həmişəki rəzil məqsəd və niyyətlərindən əl çəkməyən, hələ də şirin xəyallarla yaşayan separatçılar yenə də gizli yollarla Qarabağa silah-sursat daşıyır, bu gözəl diyarda miskin varlıqlarını uzatmağa çalışırdılar. Separatçıların bu əməlləri getdikcə həddini aşırdı. Bütün bu amillər yeni antiterror əməliyyatların keçirilməsinə yol açırdı.

Nəhayət, separatçıların cinayət və təxribat hərəkətlərinin qarşısının alınması məqsədilə 2023-cü il sentyabrın 19-da yenə də silahlar dilə gəldi. Getdikcə gücünü, qüdrətini artıran Azərbaycan Ordusu həmin gün Qarabağı qan çanağına döndərmək istəyən erməni separatçılarına qarşı antiterror tədbirləri həyata keçirməyə başladı. İllərdən bəri atəş səslərinin kəsilmədiyi Qarabağa sülh gətirmək üçün hərbi qulluqçularımız torpaqlarımızdan çıxmaq istəməyən separatçıları məhv etmək üçün döyüşə girdilər. Ermənilərin neçə vaxtdan bəri möhkəmləndikləri mövqelərini, çəkdikləri beton sədləri, quraşdırdıqları qurğuları ordumuzun hərbi qulluqçuları qısa müddət ərzində darmadağın etdilər. Separatçılar ağır itki verib geri çəkildilər. Bu itkilər ermənilərin məğlubiyyətindən, ordumuzun zəfərindən xəbər verirdi.

Əməliyyata başlayandan 23 saat 43 dəqiqə sonra erməni separatçıları məğlubiyyətin rəmzi olan ağ bayraq qaldıraraq təslim oldular. Özlərini məğlubedilməz zənn edən Ermənistan ordusunun tör-töküntüləri Silahlı Qüvvələrimizin gücü, qüdrəti qarşısında yalnız bu qədər müddətə dayana bildilər. Sentyabr ayının 20-də güclü, qüdrətli Azərbaycan Ordusunun qarşısında diz çökən separatçılar bildirdilər ki, mövqelərdən çıxır, döyüşləri dayandırır, silahları yerə qoyurlar. Beləliklə, sentyabrın 19-u tariximizə separatçılara qarşı sonuncu döyüşün başlandığı gün kimi düşdü.

Atəş dayanan kimi Qarabağın dağlarına sakitlik çökdü. Separatçılar silahı yerə qoyub təslim olandan sonra xunta rejiminin nümayəndələri görüşmək üçün ölkəmizə yalvar-yaxar etdilər. Danışıqlar zamanı ermənilər utanmaz-utanmaz daha çox sosial "problemlərindən" söz açdılar. Dedilər ki, bəs tibbi sahədə, kommunal işlərdə çətinlikləri var, yanacaq çatışmazlığından əziyyət çəkirlər. Nümayəndələr bu çətinlikləri dilə gətirəndə yaddaşımız bizi 35 il əvvələ - 1988-ci ilə apardı. Həmin il fevral ayının 24-də ermənilər mitinq keçirib keçmiş ittifaq rəhbərliyindən guya Azərbaycanın tərkibində Qarabağda iqtisadi, sosial problemlərdən əziyyət çəkdiklərini bildirmiş, Ermənistana birləşmək istədiklərini tələb etmişdilər.

Aradan 35 il keçmişdi. Amma ermənilərin nə özləri, nə də "problemləri" dəyişmişdi. Bəs bu yalançı, saxtakar ermənilər ötən 35 ildə Qarabağda nə işlə məşğul olublar? Nəyə görə özlərinə şərait qurmayıblar? Nə əcəb indiyə qədər xəstəxanalarına, uşaq bağçalarına, məktəblərinə istilik sistemləri çəkməyiblər. Zod, Vejnəli və başqa yataqlardan çıxardıqları qızılları, gümüşləri, misləri hara xərcləyiblər, kimlərə veriblər? Yoxsa gözləyiblər ki, 35 ildən sonra azərbaycanlılar qayıdıb gəlib onlara istilik sistemləri çəkməlidi, yanacaq verməlidi, sosial şəraitlərini yaxşılaşdırmalıdı? Yerüstü və yeraltı anbarlara sığmayan silah-sursatlara verdikləri pullara özlərinə istilik sistemləri çəkə bilməzdilərmi?

Danışıqlara gələn ermənilərin bir yalanı da üzə çıxdı. Onlar danışıqlarda ağlaşma qurub deyirdilər ki, yanacaqları tamam tükənib, bizə kömək edin. Danışıqlardan iki-üç gün sonra Xankəndidə 100 tonluq tutumu olan yanacaqdoldurma məntəqəsində partlayış baş verdi. Həmişə humanizmin tərəfində olan dövlətimiz görüşün ertəsi günü Qarabağda yaşayan ermənilərə kömək etmək üçün humanitar yardım göndərdi.

2023-cü il sentyabr ayının 19-da başlayan və 20-də başa çatan antiterror tədbirləri Qarabağa əbədi sülh gətirdi. Erməni faşizminə, erməni separatizminə, erməni vandalizminə, bir sözlə, bütün başqa erməni "izmlərinə" son qoydu. Bir daha Qarabağda atəş səsləri eşidilmədi. Erməni separatçılarından təmizlənəndən sonra Qarabağda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında böyük quruculuq işlərinə başlanıldı. Gündən-günə abadlaşan, gözəlləşən Qarabağ ömrünün ikinci baharını yaşayır. Artıq Xocalı sakinləri doğma ocaqlarına qayıdıblar. Həsrətə, nisgilə son qoyulub. Geriyə qayıdan xocalılılar dövlətimizin onlar üçün tikdikləri hərtərəfli şəraiti olan evlərdə rahatca yaşayırlar.

Sentyabr ayının 12-si, 19-u və 27-si Qarabağda qələbəmizin, zəfərimizin təntənəsi heç vaxt unudulmayacaq. İllər, əsrlər boyu həmin günləri, döyüşlərdə canlarından keçmiş şəhidlərimizin xatirəsini xalqımız hörmət və ehtiramla xatırlayacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan "***



MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

Sentyabrın 10-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə komissiyanın sentyabrın 9-da keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb. Media mənsubları tərəfindən operativ şəkildə işıqlandırılan iclasda öncə müraciətlər barədə ətraflı məlumat verilib, beynəlxalq müşahidə missiyalarının təmsilçilərinə, media nümayəndələrinə və maraqlı subyektlərə daxil olan müraciət və məlumatların hərtərəfli, obyektiv və şəffaf araşdırılması prosesində yaxından iştirak etmək üçün hər cür imkan yaradıldığı vurğulanıb. Vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması üçün qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada iclasa çıxarılan müraciətlər komissiya üzvləri tərəfindən geniş müzakirə edildikdən sonra müvafiq qərarlar qəbul olunub.

Mərkəzi Seçki Komissiyasının iclasında həmçinin cari məsələlərə də baxılıb.



## *Məzahir PƏNAHOV:*
## "Azərbaycan seçici siyahıları ilə bağlı fəaliyyətində dünyada bir nümunə kimi göstərilir"



"Azərbaycan seçici siyahıları ilə bağlı fəaliyyətində dünyada bir nümunə kimi göstərilir. Biz bu fəaliyyətin nəticəsini görürük".

AZƏRTAC xəbər verir ki, bu sözləri Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov MSK-nın sentyabrın 10-da keçirilən iclasında söyləyib.

O bildirib ki, seçki prosesi qanunla tənzimlənir. Heç bir seçicinin konstitusion hüququ pozula bilməz. Əlimizdə 5 şikayət var.

QƏRAR № 39/195

## Mərkəzi Seçki Komissiyasının 2024-cü il 9 sentyabr tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 9 sentyabr tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*10.09.2024*

QƏRAR № 39/198

## 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 sentyabr 2024-cü il tarixli 71 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 120 saylı Cəbrayıl - Qubadlı seçki dairəsi üzrə qeydə alınmış namizəd Şahverdiyev Araz Vəli oğlu 2024-cü il sentyabrın 10-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü adıçəkilən seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 120 saylı Cəbrayıl - Qubadlı seçki dairəsi üzrə qeydə alınmış namizəd Şahverdiyev Araz Vəli oğlunun 2024-cü il 10 sentyabr tarixli 71 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*10.09.2024*

QƏRAR № 39/196

## 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 9 sentyabr 2024-cü il tarixli 67 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 31 saylı Suraxanı ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Mahmudov Mahmud Avdı oğlu 2024-cü il sentyabrın 9-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü həmin seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularının baş verdiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və səsvermənin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 31 saylı Suraxanı ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Mahmudov Mahmud Avdı oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 9 sentyabr 2024-cü il tarixli 67 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*10.09.2024*

QƏRAR № 39/197

## 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 9 sentyabr 2024-cü il tarixli 69 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 69 saylı Biləsuvar seçki dairəsi üzrə qeydə alınmış namizəd Mirəli Nurlan Sabir oğlu 2024-cü il sentyabrın 9-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət edərək səsvermə günü həmin seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların aradan qaldırılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə əsasən şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 69 saylı Biləsuvar seçki dairəsi üzrə qeydə alınmış namizəd Mirəli Nurlan Sabir oğlunun 9 sentyabr 2024-cü il tarixli 69 saylı müraciəti şikayətvermə müddətinin ötürülməsi ilə daxil olduğundan onu təqdim edən şəxsə geri göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*10.09.2024*

QƏRAR № 39/199

## 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 sentyabr 2024-cü il tarixli 73 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 11 saylı Binəqədi - Qaradağ seçki dairəsindən qeydə alınmış namizəd Mehdiyev Fəxrəddin Məhəddin oğlu 2024-cü il sentyabrın 10-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək səsvermə günü həmin seçki dairəsinin seçki məntəqələrində qanun pozuntularının baş verdiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və səsvermənin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 11 saylı Binəqədi - Qaradağ seçki dairəsindən qeydə alınmış namizəd Mehdiyev Fəxrəddin Məhəddin oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 sentyabr 2024-cü il tarixli 73 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*10.09.2024*

# Azərbaycan, Gürcüstan və Türkiyə müdafiə nazirləri arasında görüş olub

Sentyabrın 10-da Batumi şəhərində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun, Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Gülerin və Gürcüstanın müdafiə naziri İrakli Çikovani arasında üçtərəfli görüş keçirilib.




Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə əsrlərdir xalqlarımızın mehriban qonşuluq və dostluq şəraitində yaşadığı, hazırda da dövlət və hökumət başçılarımızın rəhbərliyi ilə qarşılıqlı əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi xüsusi olaraq qeyd edilib.

Qarşılıqlı etimada əsaslanan əməkdaşlığın xalqlarımızın xoşbəxt gələcəyi və rifahının təmin olunması baxımından böyük əhəmiyyət kəsb etdiyi bildirilib. Üçtərəfli görüşdə müasir dövrün çağırışları, eləcə də regionumuzun təhlükəsizliyinə təhdid törədə biləcək amillərlə mübarizədə birgə səylərin birləşdirilməsinin və bu istiqamətdə fəaliyyətlərin qarşılıqlı əlaqədə həyata keçirilməsinin vacibliyi vurğulanıb.

Müdafiə nazirləri üçtərəfli və ikitərəfli birgə təlimlərin, qarşılıqlı təcrübə mübadiləsinin əhatə dairəsinin genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırıblar.

Əminliklə vurğulanıb ki, müdafiə sahəsində üçtərəfli əməkdaşlığın inkişafı yalnız ölkələrimiz üçün deyil, eləcə də regionda dayanıqlı sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olmasına böyük töhfələr verəcək.

Görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil, hərbi tibb sahələrində əməkdaşlığın yeni perspektivləri müzakirə olunub, həmçinin qarşılıqlı maraq doğuran bir çox mövzularla bağlı ətraflı fikir mübadiləsi aparılıb.

Sonda üçtərəfli görüşün yekununa dair protokol imzalanıb və media nümayəndələri üçün mətbuat konfransı keçirilib.

# Azərbaycanla Qazaxıstan arasında hüquqi sahədə qarşılıqlı fəaliyyət haqqında memorandum imzalanıb



Ədliyyə naziri Fərid Əhmədov Qazaxıstana səfəri çərçivəsində həmin ölkənin ədliyyə naziri Azamat Yeskarayev ilə görüşüb.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə ortaq soykök və tarixi-mədəni əlaqələrə malik Azərbaycan və Qazaxıstan arasındakı münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində davam etdiyi vurğulanıb. Qeyd edilib ki, dövlət başçıları arasında sıx münasibətlər, eləcə də qarşılıqlı yüksəksəviyyəli səfərlər ölkələr arasında əlaqələrə və ikitərəfli əməkdaşlığın inkişafına mühüm töhfə verir.

Görüşdə ədliyyə sahəsində qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib, iki ölkə arasında müvafiq sahə üzrə müxtəlif istiqamətlərdə əməkdaşlığın daha da genişləndirilməsi, eləcə də müasir tendensiya və təcrübələrin öyrənilməsinin vacibliyi vurğulanıb.

Görüş çərçivəsində "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Qazaxıstan Respublikasının Ədliyyə Nazirliyi arasında hüquqi sahədə qarşılıqlı fəaliyyət haqqında Memorandum" imzalanıb.

Memoranduma əsasən, tərəflər yerli qanunvericiliklərin beynəlxalq standartlara uyğunlaşdırılması, ədliyyə sahəsində müasir İKT-nın tətbiqi, ədliyyə xidmətlərinin təkmilləşdirilməsi və əlçatanlığın artırılması, kadr hazırlığı, icra və məhkəmə ekspertizası fəaliyyəti üzrə təcrübə mübadiləsinin həyata keçirilməsi, ekspert görüşlərinin və səfərlərin təşkil edilməsi, eləcə də qarşılıqlı maraq doğuran digər istiqamətlər üzrə əməkdaşlıq edəcəklər.

# Baş prokuror Abşeron rayonunda vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür. Sentyabrın 10-da baş prokuror Kamran Əliyev Abşeron Rayon Prokurorluğunun inzibati binasında Abşeron, Zəngilan rayon və digər bölgələrdən olan vətəndaşları qəbul edib.



Qəbuldan əvvəl baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Abşeron rayonunun mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 31 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# Prezident Administrasiyasının nümayəndəsi Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətinin üzvləri ilə görüşüb

Sentyabrın 9-da Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin QHT-lərlə iş sektorunun müdiri Tural Əliyev Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət Heyətinin üzvləri ilə görüşüb.



Bu barədə AZƏRTAC-a Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, görüşdə Rəyasət Heyətinin üzvləri Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının fəaliyyətinə göstərilən daimi diqqət və qayğıya görə təşəkkür edib, bunun bariz nümunəsi kimi təşkilatın rəhbəri Fatma Səttarovanın yüksək dövlət təltifi olan "İstiqlal" ordeni ilə mükafatlandırılmasını məmnunluqla xatırlayıblar.

Görüşdə Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının fəaliyyətinin daha da gücləndirilməsi üçün əlavə imkanlar müzakirə edilib, təkliflər dinlənilib. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının nümayəndəsi müvafiq qeydlər götürüb.

# Dövlət komitəsində keçmiş məcburi köçkünlərin müraciətləri dinlənilib

Sentyabrın 10-da Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev vətəndaşların növbəti qəbulunu keçirib.

Komitədən AZƏRTAC-a verilən məlumata görə, Rövşən Rzayevin fərdi qaydada qəbul etdiyi məcburi köçkünlər tezliklə doğma yurda qayıdacaqlarına əmin olduqlarını bildiriblər. Qəbulda iştirak edən vətəndaşların müraciətləri, əsasən, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət, məşğulluq, işğaldan azad olunmuş ərazilərə qayıdış və digər məsələlərlə əlaqədar olub. Onlara bildirilib ki, müraciətləri və qaldırdıqları məsələlər araşdırılacaq, qanunvericiliyə uyğun şəkildə cavablandırılacaq.



Eyni zamanda bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması üçün genişmiqyaslı tədbirlər həyata keçirilib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da müharibədən əziyyət çəkən insanlara, o cümlədən məcburi köçkünlərə xüsusi diqqət və qayğı göstərdiyi qeyd olunub.

# "Ermənistan tərəfini sülh perspektivlərinə xələl gətirən açıqlamalardan əl çəkməyə çağırırıq"

Ermənistanın baş nazirinin sentyabrın 10-da "İrəvan dialoqu" adlı forumda çıxışı zamanı həm "sülh sazişi" layihəsi, həm də ümumilikdə 10 noyabr tarixli üçtərəfli Bəyanat ilə bağlı səsləndirdiyi iddialar reallıqların açıq-aşkar təhrif olunmasıdır.

Ermənistan rəsmilərinin "sülh sazişi" layihəsini razılaşdırılmamış müddəalar çıxarılmaqla imzalanması çağırışı, bununla ikitərəfli münasibətlərdə mövcud problemlərin həllini növbəti mərhələyə saxlamaq cəhdləri qəbuledilməzdir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistanın baş nazirinin sentyabrın 10-da "İrəvan dialoqu" adlı forumda çıxışı zamanı Azərbaycana qarşı səsləndirdiyi fikirlərə dair şərhində yer alıb.

A.Hacızadə həmçinin bildirib: "Bir daha xatırladırıq ki, Ermənistan tərəfinin "sülh sazişi" layihəsini hansı formada imzalamaq niyyətindən asılı olmayaraq, Azərbaycanla Ermənistan arasında real və davamlı sülh müqaviləsinin imzalanması üçün əsas şərt başda "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran Ermənistanın Müstəqillik Aktına açıq şəkildə istinad edən Ermənistan konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit olunmuş Azərbaycana qarşı ərazi iddialarına son qoyulmasıdır.

Guya Azərbaycanın Konstitusiya Aktında Ermənistana qarşı ərazi iddialarının olması barədə iddialara gəldikdə bir daha qeyd edək ki, Azərbaycan Konstitusiyası ilə Ermənistan konstitusiyası arasında paralellik və bərabərlik yaratmaq cəhdi heç bir nəticə verməyəcək. Ermənistan Konstitusiyasından fərqli olaraq, Azərbaycan Konstitusiyasında istinad olunan 1991-ci il Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı və 1918-ci il İstiqlal Bəyannaməsində Ermənistana qarşı heç bir ərazi iddiası mövcud deyil.

Ermənistan tərəfinin sülh müqaviləsi layihəsində mövcud olan "heç bir tərəf sülh sazişi çərçivəsində öz öhdəliklərini yerinə yetirməməsi ilə əlaqədar öz daxili qanunvericiliyinə istinad edə bilməz" müddəasını qeyd edərək, bu ölkənin konstitusiyasında yer alan ərazi iddiasının zərərsiz olduğunu bildirməsi də tamamilə əsassızdır. Bir daha qeyd edirik ki, heç bir beynəlxalq sazişin konstitusiyadan üstün olmadığı hər kəsə yaxşı məlum olan faktdır.

Almatı Bəyannaməsi çərçivəsində Azərbaycanın və Ermənistanın bir-birinin ərazi bütövlüyünü tanıdığı barədə baş nazirin açıqlamasına gəldikdə, baş nazirin təmsil etdiyi ölkənin məhz bu öhdəliyi kobud şəkildə pozaraq Azərbaycan ərazilərini işğal altında saxladığı faktını xatırlatmaq istərdik.

Kommunikasiyaların açılması məsələsində də Ermənistanın baş naziri üzərinə götürdüyü öhdəlikləri növbəti dəfə yanlış şərh edib. Üçtərəfli Bəyanatın 9-cu bəndində Ermənistanın hansı öhdəliklərinin olduğu, nəqliyyat əlaqəsi üzrə nəzarətin necə təşkil ediləcəyi açıq-aydın yazılıb.

Ümumilikdə üçtərəfli Bəyanat imzalanandan sonra öhdəliklərinə zidd olaraq 2023-cü ilin sentyabrınadək Azərbaycan ərazilərində hərbi fəaliyyətini davam etdirmiş və erməni silahlı qüvvələrini ərazilərimizdən çıxarmayan Ermənistan tərəfinin guya qaçqın və məcburi köçkünlərin geri qayıtmasına maneə törədildiyini, yerli ermənilərə qarşı etnik təmizləmə həyata keçirildiyini, hərbi əsirlərin qaytarılmadığını iddia etməsi reallıqların təhrif olunmasıdır. Bununla yanaşı, 2023-cü il antiterror tədbirlərindən sonra erməniəsilli şəxslərin könüllü əsasda Azərbaycanı tərk edərək Ermənistana və digər ölkələrə köçməsinin etnik təmizləmə kimi qələmə verilməsi növbəti böhtandır.

Hərbi əsirlərin qaytarılması məsələsinə gəldikdə, hərbi cinayətkarların və separatçı xunta rejiminin nümayəndələrinin azad edilməsi barədə Azərbaycan hər hansı bir öhdəliyə malik deyil. Azərbaycan indiyə qədər humanizm prinsipinə sadiq qalaraq hərbi əsirlərin hamısını Ermənistana təhvil verib. Lakin Azərbaycan tərəfindən qaytarıldıqdan sonra hərbi əsirlərin Ermənistan dövləti tərəfindən kütləvi surətdə həbslərə və təqiblərə məruz qalmaları bu dövlətin öz vətəndaşlarına "qayğısı" kontekstində xüsusi təəccüb doğurub.

Müxtəlif platformalardan yararlanmaqla ölkəmizə qarşı aqressiv böhtan xarakterli ritorikanı davam etdirən Ermənistan tərəfini sülh perspektivlərinə xələl gətirən açıqlamalardan əl çəkməyə çağırırıq".

# "Ermənistan indiyədək razılaşdırılmış şərtlərlə sülh müqaviləsi imzalamağa hazırdır"



"Ermənistan indiyədək razılaşdırılmış şərtlərlə Azərbaycanla sülh müqaviləsi imzalamağa hazırdır".

AZƏRTAC xəbər verir ki, bu bəyanatla Ermənistanın baş naziri Nikol Paşinyan "İrəvan dialoqu" forumunda çıxış edib.

"Son vaxtlar sülh sazişinin 80 faizinin razılaşdırılması ilə bağlı müxtəlif platformalardan bəyanatlar səslənib. Hazırda sülh müqaviləsi layihəsinin 13 maddəsi və preambulası tam razılaşdırılıb, əsasən iki cümlədən ibarət daha üç maddə qismən razılaşdırılıb", - deyə Paşinyan bildirib.

Onun sözlərinə görə, razılaşdırılmış müddəaların təməl daşını beynəlxalq səviyyədə qəbul edilən fundamental normalar təşkil edir. Bunu nəzərə alaraq, Ermənistan bütün razılaşdırılmış müddəaların imzalanmasına hazırdır.

# Azərbaycan "Belarus Nəqliyyat Həftəsi - 2024" Beynəlxalq Forumunda iştirak edir

Minskdə "Belarus Nəqliyyat Həftəsi - 2024" beynəlxalq ixtisaslaşmış forumu işə başlayıb.

AZƏRTAC BELTA-ya istinadla xəbər verir ki, nəqliyyat həftəsinə "Nəqliyyat və logistika" beynəlxalq ixtisaslaşmış sərgisi və tematik biznes proqramı daxildir. Forumda Azərbaycan, Qazaxıstan, Özbəkistan və Rusiyanın nəqliyyat idarələrinin rəhbərləri, Rusiya Federasiyasının parlament və regional hökumətlərinin, həmçinin Belarus, Rusiya və Çinin aparıcı nəqliyyat universitetlərinin nümayəndələri iştirak edirlər. İşgüzar proqramın əsas tədbirləri Avrasiya İqtisadi Komissiyasının və İttifaq Dövlətinin Daimi Komitəsinin nümayəndələrinin iştirakı ilə "Avrasiyanın nəqliyyatı və logistikası: yeni imkanlar" plenar iclası və Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin nəqliyyat üzrə koordinasiya müşavirəsinin (MDB NKM) sahə şuralarının 14-cü sessiyasının plenar iclası olacaq.

"Belarus Nəqliyyat Həftəsi - 2024" zamanı elmi-praktik konfranslar, seminarlar və "dəyirmi masa"lar keçiriləcək. Nəqliyyat və logistika sektorunun aktual inkişaf məsələləri, tendensiyalar, infrastrukturun təkmilləşdirilməsi, rəqəmsallaşma, beynəlxalq əməkdaşlıq, hava, avtomobil, dəmir yolu və su nəqliyyatı ilə daşımaların inkişafının əsas istiqamətləri müzakirə olunacaq.

Tematik müzakirələrdə 100-dən çox belaruslu və beynəlxalq ekspert iştirak edəcək. Xüsusilə "Yük daşımalarının inkişafı və "Şimal-Cənub" və "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizlərinin rəqəmsallaşdırılması" mövzusunda diskussiya, "Taksi avtomobilləri ilə sərnişinlərin daşınması: novasiyalar bazarı və inkişaf perspektivləri", "Sərnişinlərin avtomobil ilə daşınması: nizam, təhlükəsizlik, əlçatanlıq, rəqabət", "Magistral yollar - keyfiyyətin yüksəldilməsi kursu" mövzularında "dəyirmi masa"lar, "Yeni logistika şəraitində beynəlxalq avtomobil daşımaları" konfransı və digər tədbirlər planlaşdırılır. Bundan əlavə, Belarus Dövlət Nəqliyyat Universitetinin bazasında "Gənclərin elminin keyfiyyətinin artırılması" mövzusunda beynəlxalq seminar keçiriləcək.

XIV Beynəlxalq "Nəqliyyat və Logistika" İxtisaslaşdırılmış Sərgisi çərçivəsində nəqliyyat, logistika və ekspeditor şirkətləri, nəqliyyat və logistika mərkəzləri, logistika mərkəzlərini təchiz etmək üçün avadanlıq təchizatçıları, avtomobil və dəmir yolu avadanlıqları istehsalçıları və dilerləri, aviaşirkətlər, Belarus, Rusiya və Çin dəmir yolu administrasiyaları ekspozisiyalarını təqdim edəcəklər. "Belarus Nəqliyyat Həftəsi" 2007-ci ildən keçirilir. Forumun keçirilməsində məqsəd Belarusun və digər ölkələrin nəqliyyat-logistika potensialının inkişafına təkan vermək, innovasiyaların tətbiq edilməsi, nəqliyyat sektoruna investisiyaların cəlb edilməsi, beynəlxalq sərnişin və yüklərin daşımalarının artırılmasıdır.

Tədbirin təşkilatçısı Nəqliyyat və Kommunikasiyalar Nazirliyi və Belarus Respublikasının "Texnika və Kommunikasiyalar" Qapalı Səhmdar Cəmiyyətidir.




# Baş katib: "OPEC Azərbaycanın COP29-da əməkdaşlıq ruhunu tam dəstəkləyir"

"OPEC Azərbaycanın COP29-da əməkdaşlıq ruhunu tam dəstəkləyir". Bunu Trend-ə özəl müsahibəsində OPEC-in baş katibi Heysəm əl-Qeys deyib.

"Azərbaycan 2017-ci ilin əvvəlində imzalanandan bəri OPEC və qeyri-OPEC istehsalçıları arasında Əməkdaşlıq Bəyannaməsinin (DoC) dəyərli tərəfdaşıdır. Ölkə təkcə neft bazarının sabitliyinin təşviqində və enerji təhlükəsizliyinin təmin edilməsində deyil, həm də tullantıların azaldılması kimi mühüm məqsədə nail olmaqda əsas oyunçudur.

İlkin enerjiyə qlobal tələbatın 2045-ci ilə qədər 23 faiz artacağı və dünya əhalisinin 1,5 milyard nəfər artacağı proqnozlaşdırıldığı üçün bir-biri ilə əlaqəli problemlərin kompleks həlli getdikcə daha vacib məsələyə çevrilir. Bundan əlavə, 2030-cu ilə qədər dünya üzrə təxminən 500 milyon insanın şəhərlərə köçəcəyi gözlənilir ki, bu da Bakı ölçüsündə 225-dən çox yeni şəhər təşkil edəcək", - deyə o bildirib.

Heysəm əl-Qeys vurğulayıb ki, Azərbaycanın COP29-a praqmatik və inklüziv yanaşması tullantıların azaldılması və sərfəli enerji məhsulları və xidmətlərinin təmin edilməsi arasında balansın əldə edilməsinin vacibliyinin göstəricisidir:

"Unutmamalıyıq ki, milyardlarla insan hələ də müasir enerji xidmətlərindən məhrumdur. Bu insanlar üçün onların enerji gələcəyi tullantılar azaltmaq, elektrikli avtomobil almaq qərarına gəlmək və ya enerji mənbələrinin xərcləri və faydaları haqqında düşünməkdən ibarət deyil (onlar heç bir töhfə vermirlər). Burada söhbət işıqları yandırmaq, təmiz sobada yemək bişirmək və ya işə və ya məktəbə gedib-gəlmək üçün motorlu nəqliyyat vasitəsinə sahib olmaq kimi başqalarının təbii qəbul etdiyi enerji əsaslarına nail olmaqdan gedir.

OPEC Azərbaycanın COP29-da əməkdaşlıq ruhunu və həm enerji təhlükəsizliyinə, həm də tullantıların azaldılmasına diqqət yetirən ədalətli, nizamlı və sabit enerji yollarını tam dəstəkləyir. İnkişaf etməkdə olan ölkələrə gecikmədən adekvat iqlim maliyyəsinin təmin edilməsi kimi milli şərait və ümumi, lakin fərqli məsuliyyətlər həmişə nəzərdə saxlanılmalıdır".

Heysəm əl-Qeys bildirib ki, COP29 ərəfəsində OPEC katibliyi oktyabrın ortalarında üzv ölkələr və Əməkdaşlıq Bəyannaməsi (DoC) tərəfdaşları üçün iqlim dəyişikliyi ilə bağlı texniki seminar və koordinasiya iclası keçirəcək.

O qeyd edib ki, OPEC-Azərbaycan münasibətləri son dərəcə müsbətdir.

"Bu ilin iyun ayında Bakı Enerji Həftəsində iştirak etdim və Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə keçirilən tədbirə gəlmək və ölkənin energetika naziri Pərviz Şahbazovla tribunanı bölüşmək mənim üçün şərəf idi", - deyə o bildirib.

Heysəm əl-Qeys Prezident İlham Əliyevin DoC-un böyük dəstəkçisi olduğunu vurğuladı və dövlətimizin başçısının bu yaxınlarda "Neft və qaz Tanrıdan verilən böyük nemətdir" və "faydalı qazıntı ilə zəngin olan ölkənin rəhbəri kimi, əlbəttə ki, biz həmin ölkələrin sərmayəni və hasilatı davam etdirmək hüququnu müdafiə edəcəyik, çünki dünyanın buna ehtiyacı var" dediyini eşitmək çox xoş oldu.

"Bunlar son dərəcə vacib sözlərdir. Bu qiymətli sərvətlər həqiqətən də "Allahın nemətidir". Onlar dünyaya böyük faydalar gətiriblər. Neft və onun əlavə məhsulları avtomobilləri, gəmiləri və təyyarələri, evləri işıqlandırmaq və qızdırmağa kömək edir, plastik, əczaçılıq və tibbi ləvazimatların inkişafına imkan verir. Siyahını davam etdirmək olar və bu, neftin gündəlik həyatımızda nə qədər vacib olduğunu göstərir", - deyə o bildirib.

OPEC-in baş katibi əlavə edib ki, may ayında Azərbaycanın ekologiya və təbii sərvətlər naziri və COP29-un prezidentli Muxtar Babayevlə Vyanada keçirilən yüksəksəviyyəli enerji dialoqu COP29-dan əvvəl mühüm hadisə kimi qiymətləndirilə bilər:

"Qarşılıqlı əlaqələrimizdən aydın oldu ki, Azərbaycan bütün maraqlı tərəflərin, o cümlədən neft sənayesi nümayəndələrinin fikirlərini nəzərə almaq, hər bir ölkəyə milli şəraiti, eləcə də prinsipləri, ədalətlilik, ümumi, lakin fərqli rəftar və müvafiq imkanlarını



nəzərə alaraq, öz yolunu müəyyən etmək imkanı vermək öhdəliyinə sadiqdir. COP29 ərəfəsində OPEC katibliyi həmçinin oktyabrın ortalarında üzv ölkələr və DoC üzrə tərəfdaşlarımız üçün iqlim dəyişikliyi ilə bağlı texniki seminar və koordinasiya görüşü keçirəcək".

O, ümidvar olduğunu bildirib ki, Azərbaycanla bu yaxınlarda keçirilən görüş Əməkdaşlıq Bəyannaməsinə və daha geniş Əməkdaşlıq Xartiyasına, könüllü dialoq çərçivəsinə və enerji məsələləri üzrə çoxtərəfli iştirak platformasına uyğun gələn enerji məsələləri üzrə yüksəksəviyyəli çoxsaylı dialoqlardan birincisi olacaq:

"Bu baxımdan, biz COP29 prezidentini və onun komandasını COP29-dan əvvəl Vyanada salamlamağı səbirsizliklə gözləyirik".

### OPEC-ə üzv ölkələrin iqlim dəyişikliyi ilə bağlı həllər üzrə səyləri

Heysəm əl-Qeys vurğulayıb ki, davamlı inkişaf və iqlim dəyişikliyinin həlli zərurəti arasında tarazlıq mühüm məsələdir və OPEK üzvü olan ölkələr bunu nəzərə alırlar:

"Biz enerji təhlükəsizliyini, enerjinin əlçatanlığını təmin etməyə və tullantıları azaltmağa kömək edə biləcək bütün enerji növlərini və bütün texnologiyaları təşviq etməliyik. Bu baxımdan, xatırlamalıyıq ki, neft sənayesi, bərpaolunan enerji və tullantıların azaldılması səyləri bir çox insanın düşündüyü qədər ziddiyyətli deyil. Reallıq budur ki, karbohidrogenlər həm də bərpa olunan infrastrukturun inkişafı üçün lazım olan nəqliyyat və tikinti sənayesini yanacaqla təmin edir. Məsələn, ölçüdən asılı olaraq, külək turbinləri sürət qutularının, podşipniklərin, hidravlik sistemlərin və transformatorların rəvan işləməsini təmin etmək üçün 200 ilə 1400 litr arasında sürtkü yağları tələb edir, eyni zamanda turbinlərin özlərini suya davamlı etmək üçün etilenlə istehsal olunan qatranlar da lazımdır. Neft-kimya əsaslı məhsullar olmadan günəş panellərinin kütləvi istehsalı da qeyri-mümkün olardı".

Heysəm əl-Qeys qeyd edib ki, bundan əlavə, neft və onun törəmələri bir çox ölkələr üçün mühüm fiskal dəstək verir, onların bir çoxu hökumət büdcələrini maliyyələşdirmək, iqtisadi fəaliyyəti dəstəkləmək, iqtisadiyyatı şaxələndirmək və keçidin potensial mənfi sosial-iqtisadi təsirlərini yumşaltmaq üçün neft sənayesindən əldə edilən gəlirlərə əsaslanır:

"Məhz buna görə OPEC üzvü olan ölkələr həm karbohidrogenlərə, həm də bərpaolunan enerjiyə sərmayə qoyurlar və eyni zamanda bu ölkələr və bütövlükdə neft sənayesi əməliyyat səmərəliliyi və qabaqcıl texnologiyalar vasitəsilə emissiyaları azaltmaq üçün fəal işləyirlər. Bura 2030-cu ilə qədər metan emissiyalarını sıfıra yaxın azaltması haqqında COP28-də 50-yə yaxın əsas neft və qaz istehsalçısının razılaşması ilə nümayiş etdirildiyi kimi, çənlərin üstün idarəçiliyi təcrübələri daxil olmaqla, yuxarı və aşağı axın proseslərini optimallaşdırmaq, eləcə də məşəldə yandırma və metan sızmalarını minimuma endirməkdə iştirak daxildir. Sənaye həmçinin karbon tutma, utilizasiya və saxlanmasını genişləndirir və təmiz hidrogen, birbaşa havanın tutulması və karbon qazının çıxarılması texnologiyalarını inkişaf etdirir - bunların hamısı dairəvi karbon iqtisadiyyatı çərçivəsində həyata keçirilir".

O vurğulayıb ki, əlavə olaraq OPEC-ə yaxın təşkilat olan OPEC-in Beynəlxalq İnkişaf Fondunun gördüyü mühüm işləri qeyd etməyim vacibdir:

"OPEC Fondu 1976-cı ildə OPEC-ə üzv ölkələr tərəfindən aydın bir məqsədlə yaradılmışdır: inkişafı stimullaşdırmaq, icmaları gücləndirmək və insanların səlahiyyətlərini artırmaq. O, qida, enerji, infrastruktur, məşğulluq, təmiz su və kanalizasiya, səhiyyə və təhsil kimi əsas davamlı inkişaf ehtiyaclarına cavab verən layihələrin maliyyələşdirilməsinə diqqət yetirir. Bu günə qədər OPEC Fondu 125-dən çox ölkədə inkişaf layihələrinə təxminən 27 milyard ABŞ dolları ayırıb".

OPEC baş katibi deyib ki, emissiya problemini həll etmək üçün real yanaşmalar lazımdır: "Üzv ölkələrimiz COP-un bütün iclaslarında iştirak edirlər. OPEC katibliyi iqlim dəyişikliyi ilə bağlı danışıqlarda üzv ölkələrə dəstək verir, lakin Paris Sazişinə uyğun olaraq Milli Müəyyən edilmiş Töhfələri (NDC) təqdim etmək ayrı-ayrı üzv ölkələrə aiddir".

"Bu, həm də Paris sazişinin bir hissəsidir və tərəflərə sazişin məqsədlərinə nail olmaq istiqamətində kollektiv irəliləyişi qiymətləndirmək üçün onun icrasını vaxtaşırı hesablamağa imkan verir.

OPEC-ə üzv ölkələr iqlimlə bağlı öhdəliklərində fəallıq nümayiş etdirirlər. Bu məqsədlə, iqtisadi artıma təkan verən, enerji yoxsulluğunun aradan qaldırılmasına kömək edən və eyni zamanda davamlılığı yaxşılaşdıran emissiyalarla mübarizə üçün ətraflı və real yanaşmalara ehtiyacımız var", - deyə baş katib əlavə edib.

### Gələcək enerji strategiyaları

Heysəm əl-Qeys hesab edir ki, gələcək enerji strategiyaları dünyanın bütün guşələrində insanların ehtiyaclarını nəzərə almalıdır: "Aydındır ki, universal həll yoxdur. Söhbət tək bir yolu inkişaf etdirməkdən getmir, bir neçə yol var ki, onların hər birinin ayrı-ayrı ölkələr və xalqlar üçün uyğun həlləri var. Biz bütün dünya ölkələrinin və xalqlarının fərqli şəraitini tam qiymətləndirməliyik".

Heysəm əl-Qeys vurğulayıb ki, məhz buna görə də OPEC-ə üzv olan ölkələr dünyanın gələcək enerji yollarının ən yaxşı və ədalətli seçilməsinin təmin edilməsinə ciddi yanaşırlar: "Gələcək enerji yolları dünyanın hər yerində insanların ehtiyaclarını nəzərə almalı və bütün enerjiyə, bütün texnologiyaya əsaslanan yanaşmaya əməl etməlidir. Biz enerjinin və ya texnologiyanın heç bir formasına məhəl qoymamalıyıq. Onların hamısına ehtiyacımız olacaq".

# Azərbaycan səfiri İraq Kürdüstanı regionunun Baş nazirini COP29-a dəvət edib

Azərbaycan İraqdakı səfiri Nəsir Məmmədov İraq Kürdüstanı regionunun Baş naziri Məsrur Bərzanini COP29-a dəvət edib. "Report" xəbər verir ki, bu barədə region hökumətinin Mətbuat xidməti bildirib.



"9 sentyabr 2024-cü il, bazar ertəsi Kürdüstan Regional Hökumətinin (KRH) Baş naziri Məsrur Bərzani Azərbaycan Respublikasının İraqdakı səfiri Nəsir Məmmədov ilə görüşüb. Görüş zamanı səfir Məmmədov Baş nazir Bərzaniyə 2024-cü ilin sonunda Bakıda keçiriləcək Birləşmiş Millətlər Təşkilatı (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək üçün rəsmi dəvət göndərib", - məlumatda qeyd olunub. Bildirilib ki, görüşdə "ikitərəfli münasibətlərin gücləndirilməsinə də diqqət yetirilib, hər iki tərəf Azərbaycan və Kürdüstan regionu arasında daha sıx əməkdaşlığı asanlaşdırmaq üçün konsulluq xidmətlərinin yaradılmasının vacibliyini vurğulayıb".

"Baş nazir Bərzani genişlənmiş diplomatik və iqtisadi əlaqələrin qarşılıqlı faydalarını vurğulayaraq Azərbaycanla daha güclü tərəfdaşlığın təşviqinə sadiqliyini ifadə edib", - Mətbuat xidməti nəql edib.

# Sıfır karbon emissiyalı dünya xəyal deyil

## Atmosferə atılan istixana qazlarını azaltmaqla bu hədəfə çatmaq mümkündür

Son illər dünyada iqlim dəyişmələri ilə mübarizə getdikcə kütləvi hal alır. Bu, bəşəriyyəti gözləyən qlobal ekoloji təhlükə ilə əlaqədar hər kəsin öz məsuliyyətini dərk etməsindən irəli gəlir.



Azərbaycanın COP29-a hazırlıq çərçivəsində keçirdiyi ikitərəfli görüşlərdə və beynəlxalq tədbirlərdəki çağırışları ilə dünya dövlətlərini bu prosesə təşviqi də məsələyə diqqəti artırır. Bununla bağlı ən çox toxunulan mövzu, səslənən fikirlərdən biri də sıfır karbon emissiyasıdır ki, bütün müzakirələrdən qırmızı xətt kimi keçir. Bəs "sıfır karbon emissiyası" ifadəsi nəyi ehtiva edir və həmin göstəriciyə nail olmaq mümkündürmü?

Əvvəla bildirək ki, sıfır emissiya insan fəaliyyətindən qaynaqlanan istixana qazlarını və qlobal istiləşmə nəticəsində iqlim dəyişikliyinə səbəb olan amilləri azaltmaq məqsədilə müəyyənləşən bir hədəfdir. Amma bir həqiqət də var ki, atmosferdəki su ($H_2O$), karbon dioksid ($CO_2$), metan ($CH_4$), ozon ($O_3$) kimi istixana qazları planetimiz üçün son dərəcə vacibdir. İstixana qazları olmasaydı, dünyanın orta səth temperaturu -18 °C ətrafında cərəyan edərdi. İstixana qazları planetimizin təxminən 33 °C istiliyini qoruyub saxlayır. Atmosferdəki müxtəlif qazlar Yer üzündən kosmosa yayılan istiliyin bir qisminin yenidən geridönüşünün təminatçısıdır. İstixana effekti adlandırılan bu proses dünyada hərarətə səbəb olur. Bununla yanaşı, istixana qazları meşə yanğınları və vulkan püskürmələri kimi təbii proseslər nəticəsində atmosferə yayıla və okeanlar, meşələr və ya torpaq tərəfindən yenidən sovrula bilər. Beləliklə, havanın yuxarı təbəqələrindəki istixana qazı nisbətləri tarazlıqda qalır.

Lakin xüsusən sənaye inqilabından sonra insanqaynaqlı fəaliyyətlər nəticəsində atmosferə yayılan istixana qazlarının miqdarı sürətlə artmağa başlayıb. Bu da dünya səthinin lazımi səviyyədən daha çox qızmasına səbəb olaraq qlobal istiləşməyə və nəticə etibarilə iqlim dəyişikliklərinə gətirib çıxarır.

Sıfır karbon emissiyasına gəlikdə, o, dünyanın orta temperaturundakı artımın məhdudlaşdırılması üçün istixana qazı emissiyasının azaldılaraq sıfıra çatması üçün Paris sazişi ilə müəyyən edilib. Birləşmiş Millətlər Təşkilatının 2015-ci ildə Parisdə keçirilən İqlim Dəyişikliyi Konfransında (COP15) 200 ölkə bu sazişi qəbul edib. Paris sazişi sıfır emissiyasına çatmaq konsepsiyasını məşhurlaşdırsa da, $CO_2$-nin miqdarı artmaqda davam edir. Maraqlı və həm də təəccüblüdür ki, 2020-ci ildən ümumi qlobal emissiyaların təxminən 50 faizi Çin, ABŞ, Hindistan, Rusiya, Yaponiya, İran və Avropa İttifaqının payına düşür.

Paris sazişi dünyanın orta temperaturundakı artımın, sənaye inqilabı öncəsindəki dövrlə müqayisədə 1,5 °C-də azaldılması məqsədi daşıyır. Temperatur artımını 1,5 °C ilə məhdudlaşdırmaq üçün istixana qazı emissiyasını 2030-a qədər 50 faiz azaltmaq, 2050-yə qədər isə sıfır emissiya hədəfinə çatmaq lazımdır. Sıfır emissiya hədəfinə çatmaq üçün isə bərpaolunan enerji mənbələrinə keçid, elektrik nəqliyyat vasitələrinin genişləndirilməsi və ağacəkmə layihələrinin artırılması vacibdir. Bundan əlavə, qida israfının qarşısını almaqla istixana qazı emissiyalarını əhəmiyyətli dərəcədə azaltmaq mümkündür.

Sıfır emissiya hədəfi qlobal istiləşmənin səbəb olduğu ekstremal iqlim hadisələrini azaltmaq və ətraf mühit çirkliliyini minimuma endirmək üçün vacibdir. Bu hədəfə çatmaq kənd təsərrüfatında məhsuldarlığı artırmağa kömək edər, dəniz ekosistemlərini qoruyar və hava çirkliliyini azaldar. Nəticədə insan sağlamlığına və təbiətə ciddi təhlükələr yaradan təsirlər minimuma enər.

2008-ci ildən etibarən hər il sentyabrın 21-də dünyanın fərqli ölkələrində "Planetə ildə bir gün tətil haqqı vermək" şüarı ilə dünya "Sıfır Emissiya Günü" qeyd edilir. Azərbaycanın da əsas məramı sıfır emissiya hədəfinə çatmaqdır. Bu, fərdlərin, vətəndaş cəmiyyətinin, özəl sektorun və dövlətin eyni məqsəd üçün birgə işləməsini tələb edir.

***Qurban MƏMMƏDOV,***
***"Azərbaycan"***



# "Yaşıl Həmrəylik - 2024" ideya müsabiqəsi təşkil edilib

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və İqtisadiyyat Nazirliyinin birgə təşkilatçılığı ilə "Yaşıl Həmrəylik - 2024" ideya müsabiqəsi keçirilib.



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən AZƏRTAC-a verilən məlumata görə, "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş tədbir İqtisadiyyat Nazirliyi yanında Elmi-Tədqiqat İnstitutunun nəzdindəki Təlim Tədris Mərkəzinin dəstəyi ilə Şamaxıda təşkil olunub.

Müsabiqədə ümumilikdə hər iki qurumun əməkdaşlarından ibarət 20 komanda yarışıb. İştirakçılar "yaşıl ictimai xidmətlər", ekoloji məlumatlılığın artırılması, "yaşıl iş mühiti", bu sahədə ictimai iştirakçılığın təşviqi mövzularında rəqəmsal həll konseptləri hazırlayıblar.

Məqsəd innovasiya yönümlü potensialın aşkarlanması, "yaşıl iqtisadiyyat"ın və "yaşıl iş mühiti"nin təşviqi, əməkdaşlar arasında şəbəkələşmənin genişləndirilməsi, innovativ düşüncə tərzinin aşılanması olub.

Tədbir çərçivəsində İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin nümayəndəsi tərəfindən "Rəqəmsal İqtisadiyyat və Sənaye 4.0" mövzusunda təqdimat edilib. İnnovativ yanaşmanın tətbiqi, dayanıqlılıq, prosesə strateji yanaşma, səmərəlilik və təqdimat bacarıqları meyarlarına uyğun aparılan qiymətləndirməyə əsasən müsabiqədə I yerin qalibi Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin "Yaşıl işıq" komandası, II yerin qalibi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "Ekoland" komandası, III yerin qalibi isə Əmlak Məsələləri Dövlət Xidmətinin "Horizon" komandası olub.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

# Ermənistanın niyyəti sülh deyil

## İrəvan razılaşdırılmamış müddəaları layihədən çıxarmaqla bir daha öz məkrini nümayiş etdirir

Azərbaycan sülh prosesinin uğurla başa çatdırılması, Ermənistanla münasibətlərin normallaşdırılması üçün ilk gündən bütün lazımi təşəbbüsləri göstərib. Vətən müharibəsindən sonra bu prosesin irəliyə aparılmasının əsas əngəli məhz Ermənistanın təxribatları, Fransadan aldığı direktivlər əsasında nümayiş etdirdiyi davranış olub.

### Problemli məsələlərə aydınlıq gətirilməlidir

Yenə də respublikamızın təşəbbüsləri və səyləri ilə son dövrlərdə sülhün əldə edilməsi üçün unikal şans yaranıb. Deyə bilərik ki, hər iki dövlət üçün düşmənçilik səhifəsini qapatmaq, münasibətləri normallaşdırmaq üçün əlverişli tarixi zaman formalaşıb. Lakin rəsmi İrəvan sülhə hazır olduğunu bəyan etsə də, bu ad altında məkrli oyun oynamağa çalışır.

Qeyd edək ki, Azərbaycanla Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsi üzrə sonuncu dəfə Azərbaycan tərəfindən iyun ayında təqdim olunmuş şərhlərə Ermənistan tərəfi avqust ayının sonunda, təqribən 70 gün sonra cavab göndərib. Bir neçə gün öncə isə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Lüksemburqun xarici işlər və ticarət naziri ilə birgə mətbuat konfransında bildirib ki, sonuncu dəfə Ermənistan tərəfindən Azərbaycana təqdim edilmiş "sülh sazişi" layihəsinin mətni tam olaraq razılaşdırılıb və layihə razılaşdırılmış müddəaları ehtiva edir.

Əslində isə, Ermənistan tərəfi bu layihədə öz əksini tapması zəruri olan müddəaları çıxarıb və belə bir açıqlama verməklə yenə də ictimai rəyi aldatmağa cəhd göstərib. Layihənin Ermənistanın maraqlarına uyğun şəkildə, yəni razılaşdırılmamış müddəaları çıxmaqla imzalanmasına cəhd göstərməkdə isə məqsəd odur ki, gələcəkdə Azərbaycana qarşı ərazi iddialarını davam etdirsinlər. Məsələ ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib: "Ermənistan tərəfi, Azərbaycanın təqdim etdiyi şərhlərə adekvat reaksiya vermək əvəzinə layihədə əks olunması zəruri olan müddəaları çıxarmaqla problemlərə göz yummağa cəhd göstərib. Layihə üzrə indiyə qədər bir çox müddəalar, yəni təqribən 80 faiz razılaşdırılsa da, bəzi müddəaların razılaşdırılması hələlik mümkün olmayıb. Ancaq bu, o demək deyil ki, Ermənistan tərəfi təklif etdiyi kimi, razılaşdırılmamış müddəaları layihədən çıxarmaqla saziş imzalanmalıdır. Bu məqbul hesab edilə bilməz. Çünki sülh sazişinin davamlı və uğurlu olması üçün bir sıra istiqamətlərdə iki ölkə arasında problemli məsələlərə layihədə aydınlıq gətirilməlidir".



### Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır

Göründüyü kimi, Ermənistan bir sıra müddəaların çıxarılmasına nail olmaqla "sülh sazişi"nin mətninin əhatə dairəsini azaltmağa çalışır. Bu da İrəvanın gələcək məkrli niyyətlərindən xəbər verir. Sülh prosesinin inkişaf etdirilməsi və müvafiq sazişin imzalanması üçün Ermənistan ilk növbədə konstitusiyasına dəyişikliklər etməli, ölkəmizə qarşı ərazi iddialarını ehtiva edən istinadları oradan çıxarmalıdır. Daha dəqiq desək, real və davamlı sülh müqaviləsinin imzalanması üçün əsas şərt, başda "Ermənistan və Dağlıq Qarabağın birləşməsi"nə çağıran Ermənistanın Müstəqillik Aktına açıq şəkildə istinad edən Ermənistan konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarına son qoyulmasıdır.

Eyni zamanda Ermənistan keçmiş münaqişənin qalığı olan Minsk qrupunun işinin bərpasına yönəlik məkrli əməllərindən əl çəkməli, onun hüquqi ləğvi ilə bağlı müraciət etməlidir. İrəvanın Minsk qrupu ilə bağlı hazırkı mövqeyi Azərbaycana qarşı məkrli niyyətin göstəricisidir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Fransua Olland Mişel Barnye hökumətinə qarşı etimadsızlıq təklifinə səs verəcəyini bildirib

Sosialist Partiyası (PS) və Yeni Xalq Cəbhəsi (NFP) qrupunun Korrezdən seçilmiş deputatı, Fransanın sabiq prezidenti Fransua Olland yeni Baş nazir Mişel Barnyenin hökumətinə qarşı etimadsızlıq təklifinə səs verəcəyini bildirib.

AZƏRTAC xəbər verir ki, F.Olland Mişel Barnyenin ifrat sağçı Milli Birlik (RN) Partiyasının nəzərləri altında sağyönümlü siyasət aparacağını qeyd edib. F.Olland deyib ki, fransızlar sağçıları hakimiyyətdən uzaqlaşdırmaq məqsədilə Yeni Xalq Cəbhəsinə səs veriblər. Xalq istəyir ki, dəyişiklik olsun, alıcılıq qabiliyyəti yaxşılaşsın,



pensiya islahatına yenidən baxılsın, daha yaxşı institusional vəziyyət olsun, E.Makronun davamlılığına son qoyulsun. O hesab edir ki, M.Barnyenin gələcək hökuməti xalqın istəyini təmsil etməyəcək.

Fransua Olland qeyd edib ki, Mişel Barnyenin təyinatı üçün Marin Lö Pen razılıq verib.

# Separatçılar layiqli cəzalarını alacaqlar

## Əllərini xalqımızın qanına batırmış qatillər tezliklə Azərbaycan qanunları ilə mühakimə ediləcəklər

Qarabağda yaradılmış qondarma qurumun separatçı rəhbərlərinin barəsində olan cinayət işlərinin istintaqı artıq başa çatıb. Bir neçə gün öncə baş prokuror Kamran Əliyev Rusiya KİV-inə müsahibəsində məlumat verib ki, yaxın vaxtlarda cinayət işi materialları baxılmaq üçün məhkəməyə göndəriləcək.



Xatırladaq ki, antiterror tədbirlərindən sonra Azərbaycanın hüquq-mühafizə orqanları Qarabağda qondarma qurumun "prezidentləri" olmuş Arkadi Qukasyan, Bako Sahakyan, Araik Arutyunyan, sabiq "xarici işlər naziri" David Babayan, eləcə də "parlament sədri" David İşxanyan, generallar Lyova Mnatsakanyan, David Manukyan və keçmiş "dövlət naziri" Ruben Vardanyanı həbs edərək Bakıya gətirib.

İstintaqı Baş Prokurorluq və DTX əməkdaşlarından ibarət birgə istintaq qrupu tərəfindən aparılan cinayət işi üzrə separatçı rejimin ümumilikdə 15 nəfər üzvü məsuliyyətə cəlb olunub. Separatçılar sülh və insanlıq əleyhinə, müharibə cinayətlərində, terrorçuluqda, terrorçuluğu maliyyələşdirmədə, qətl, qanunsuz silahlı birləşmə yaratmaqda və digər cinayət əməllərində təqsirləndirilirlər.

### İlahi ədalət öz yerini tapdı

Bu qatillər bir zamanlar Qarabağda, digər işğal etdikləri ərazilərimizdə azərbaycanlılara divan tutmaları, o cümlədən Gəncədə, Tərtərdə, Bərdədə terror törədərək mülki insanlarımızı qətlə yetirmələri ilə öyünürdülər. Vətən müharibəsində Arayikin Gəncəni vurmaq əmrini özünün verdiyini necə əda ilə videokamera önündə etiraf etməsini hər kəs xatırlayır. Separatçının qatil xələfi Serj Sarkisyan da 2000-ci ildə britaniyalı jurnalist Tomas de Vaala müsahibəsində Xocalı soyqırımını törətmələrini boynuna almış, yüzlərlə günahsız insanın ölümünə səbəb olduğuna görə heç bir peşmanlığı olmadığını həyasızcasına dilə gətirmişdi.

Canilər elə düşünürdülər ki, xalqımıza qarşı törətdikləri bu qanlı əməllər cəzasız qalacaq. Beynəlxalq ictimaiyyətin bu cinayətlərə göz yumması, susqunluğu isə erməni qatillərini daha da ruhlandırırdı. Amma Azərbaycan hər zaman bəyan edirdi ki, torpaqlarının işğalı, etnik təmizləmə ilə barışmayacaq, xalqımıza qarşı qətliamlar, soyqırımlar törədən qatilləri, terrorçuları cəzasız qoymayacaq.

Budur, artıq ilahi ədalət öz yerini tapıb. Bir ilə yaxındır ki, Qarabağdakı quldur yuvası dağıdılıb, qondarma qurumun separatçı rəhbərləri əliqandallı şəkildə Bakıya gətirilib. Onlar istintaq təcridxanasında dövlət başçımızın təbirincə desək, çay içə-içə öz layiqli cəzalarını gözləyirlər. Artıq zaman yetişib və çox tezliklə separatçılar Azərbaycan qanunları ilə mühakimə ediləcəklər.

### Qisas qiyamətə qalmadı

Bir məqamı da diqqətə çatdıraq ki, bəzi qərəzli Qərb təsisatlarının separatçıların həbsi ilə bağlı məsələdə riyakarlığı müşahidə edilir. Bir müddət əvvəl Aİ Komissiyasının vitse-prezidenti Cozef Borelin Avropa Parlamenti üzvlərinin suallarına cavabında "erməni məhbuslar"ın azad olunması kimi fikirlər səsləndirməsi də buna nümunədir. Bu isə göstərir ki, Borelin timsalında erməni lobbisinə xidmət edən bəzi siyasətçilərin gözlərini pul o qədər örtüb ki, hətta xalqımıza qarşı cinayətlər törətmiş qatillərin azad olunması kimi absurd fikirlər səsləndirməkdən belə çəkinmirlər. Ancaq onların bu çirkin davranışları heç nəyi dəyişdirmək iqtidarında deyil.

Azərbaycan dövləti həmin terrorçuları beynəlxalq hüquq və qanunlar çərçivəsində mühakimə edir. Qondarma rejimin rəhbərlərinin cinayət məsuliyyətinə cəlb edilməsi ilə bağlı məsələ ölkəmizin daxili işidir və sülh gündəliyinin də predmeti deyil.

Əliqanlı separatçılar, bir zamanlar Qarabağda at oynadan qondarma qurumun təlxək prezidentləri, deputatları, nazirləri törətdikləri cinayət əməllərinin layiqli cəzasını alırlar.

Bu barədə 2023-cü il sentyabrın 20-də xalqa müraciəti zamanı Prezident İlham Əliyev qətiyyətlə bəyan etmişdi: "Bütün haqsızlıqlara baxmayaraq, bütün kriminal Ermənistan rejimi tərəfindən törədilmiş cinayətlərə baxmayaraq, biz erməni xalqını bu cinayətlərdə heç vaxt günahlandırmamışıq. Xocalı soyqırımında, şəhərlərimizin, kəndlərimizin dağıdılmasında, qəbirlərin qazılmasında biz erməni xalqını günahlandırmamışıq. Biz kriminal rejimin ünsürlərini, başda duranlarını ittiham etmişik və biz onları məsuliyyətə cəlb edirik və edəcəyik. Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Fransa Azərbaycana qarşı açıq düşmənçilik siyasəti yürüdür

"Azərbaycan Vətən müharibəsindəki böyük qələbəsi və birgünlük antiterror tədbirləri ilə öz suveren ərazisini tam bərpa edib və bununla da uzun illər həsrətində qaldığı torpaqlarına qovuşub. Bununla paralel həm bölgədə, həm də böyük arenada öz nüfuzunu, hörmətini qaldırmış olub.



Bu gün Azərbaycan Prezidenti qlobal anlamda nüfuzlu, hörmət edilən dünyamiqyaslı liderdir. Bu uğurlara sevinən dost ölkələrlə bərabər, bunu həzm edə bilməyən, öz siyasətində cürbəcür yanlış hərəkətlərə, qanunazidd əməllərə əl atan, bunu az qala özünün milli siyasəti sayan dövlətlər də mövcuddur".

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında siyasi ekspert Vüqar İskəndərov deyib. O bildirib ki, belə siyasət yürüdən ölkələrdən biri də Fransadır. Belə ki, Fransanın milli siyasətində türkofobiya, islamofobiya tüğyan edib, zaman-zaman prezidentlər bunu gizlətməyə çalışsalar da, indiki prezident Emmanuel Makron həm Azərbaycana, həm də Türkiyəyə, ümumiyyətlə, müstəqil siyasət həyata keçirən dövlətlərə qarşı düşmənçilik siyasətini açıq-aydın göstərir: "Xüsusilə Vətən müharibəsində qələbəmizdən sonra Fransanın Azərbaycana qarşı maskaları yırtılıb. Ölkəmizin uğurlarını həzm edə bilməyən, Azərbaycan və Ermənistan arasında sülh gündəliyinin irəliləməsinə mane olan Fransa bu ölkəni silahlandırmaqla həm beynəlxalq platformalarda, həm də ikitərəfli münasibətlərdə Azərbaycana qarşı açıq düşmənçilik siyasəti yürüdür".

Onun fikrincə, bunun qəbuledilməzliyi Prezident İlham Əliyev tərəfindən dəfələrlə bildirilib. Fransa ksenofobiya, azərbaycanofobiya, islamofobiya siyasətindən əl çəkməlidir. Dünyada az ölkələrdən biridir ki, öz ərazisindən min kilometrlərlə məsafədə yerləşən dənizaşırı adalarda koloniya saxlayır, xalqları və dövlətləri özünün müstəmləkəsinə çevirib. Bu isə müasir dövrdə qəbuledilməzdir: "Prezident İlham Əliyev də Qoşulmama Hərəkatının sədri kimi bununla bağlı barışmaz mübarizə aparır və müasir dünyanı bu eybəcərliyə, beynəlxalq humanitar hüquqazidd fəaliyyətə son qoymağa çağırır. Təəssüflər olsun ki, Fransa tərəfindən bu siyasət hələ də həyata keçirilir. Onun müstəmləkəsi altında olan xalqların fundamental haqları hər gün pozulur".

Fransanın vətəndaşlarına Azərbaycana səyahətlə bağlı xəbərdarlığını xatırladan V.İskəndərov deyib ki, bu ölkə qarayaxma kampaniyası ilə insanların təhlükəsizliyi ilə bağlı narahatlığını bildirir. Fransızların həbs olunduğunu və digər doğru olmayan şeylər iddia edilir. Azərbaycan XİN bununla bağlı bəyanat verib və Fransanı belə əməllərdən çəkinməyə çağırıb. Bu da Fransanın ölkəmizə qarşı apardığı çirkin piarın bir hissəsidir.

Müsahibimiz qeyd edib ki, Fransa fakt qarşısında qalıb, Azərbaycanın neokolonializm ilə bağlı qaldırdığı konkret məsələlər bu ölkəni çətin duruma salıb: "Orta əsrlərdən qalan çirkin siyasət XXI əsrdə də davam edir və bunun qarşısını dünya birliyi almalıdır. Bununla mübarizədə öndə gedən ölkə Azərbaycandır. Fransa isə çətin duruma düşərək hər vəchlə Azərbaycana qarşı qarayaxma kampaniyası aparır, ölkəmizin inkişafını həzm edə bilmir. Hər kəs bilir ki, Azərbaycanda sabitlik var, bunun nəticəsidir ki, ölkəmizdə beynəlxalq səviyyəli tədbirlər keçirilir".

O qeyd edib ki, Fransa Makronun simasında belə cəhdlər etməklə özünə zərər vurur. Daxildə böyük problemləri olan Paris başqa ölkələrin işlərinə qarışınca, qarayaxma kampaniyası aparınca öz məsələləri ilə məşğul olmalıdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Fransa Koloniyalarının Azadlıq Cəbhəsi Fransa XİN-in Azərbaycana səyahət xəbərdarlığı ilə bağlı bəyanatına cavab verib

Fransa Koloniyalarının Azadlıq Cəbhəsi Fransanın Avropa və Xarici İşlər Nazirliyinin (XİN) Azərbaycana səyahət xəbərdarlığı ilə bağlı bəyanatına cavab verib.




AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir: "Fransanın baş naziri hələ öz hökumətini formalaşdırmasa da, istefaya gedən daxili işlər nazirinin addımları və Fransa Xarici İşlər Nazirliyinin Azərbaycanla bağlı həyəcan xəbərdarlıqları heç kəsi çaşdırmır.

Hökumətin növbəti addımı, şübhəsiz ki, "Fransa vətəndaşları"na sözügedən ölkəni ziyarət etməyi tamamilə qadağan etmək olacaq. Bu qərar insan hüquqları və onların sərbəst hərəkəti ilə ziddiyyət təşkil edir və tamamilə qeyri-qanunidir. Fransa dövlətinin addımlarının yalnız bir məqsədi var - Bakı Təşəbbüs Qrupunun Birləşmiş Millətlər Təşkilatı çərçivəsində ona Qoşulmama Hərəkatı tərəfindən verilmiş mandatı yerinə yetirməyə davam etməsinə yol verməmək. Bakı Təşəbbüs Qrupunun missiyası dünyada kolonializmə son qoymaqdır.

Fransa beynəlxalq səviyyədə imicinin pisləşdiyini yaxşı anlayır - bunun kökündə Bakı Təşəbbüs Qrupunun təşkilata üzv ölkələrin ərazilərinin "insan hüquqları ölkəsi" (Fransa) tərəfindən necə zəbt edildiyini, yerli xalqlara qarşı necə davrandığını və bu gün də davranmağa davam etdiyini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırması dayanır. Kanakinin (Yeni Kaledoniya) cari vəziyyəti bunun ən yaxşı nümunəsidir.

Fransa əsarəti altındakı son koloniyalardakı təşkilatların Azadlıq Cəbhəsi koloniyalarını qorumaq üçün ən kobud və antidemokratik hiyləgərliklərə əl atmaqdan çəkinməyən, siyasi tənəzzüldə olan bir ölkənin bu üsullarına qarşı üsyan edir. Burada məqsəd varlığını davam etdirməyə imkan verən maraqlarını qoruyub saxlamaqla böyük dəniz güclərinin hit-paradında yerini qorumaqdır.

Biz öz tərəfimizdən Bakı Təşəbbüs Qrupu ilə BMT-nin müəyyən etdiyi çərçivədə, nəhayət, müstəqilliyimizi əldə etmək və xalqlarımızın maraqlarını qorumaq naminə zəruri hesab etdiyimiz hər hansı digər tərəfdaşla bundan sonra da işləyəcəyik".

Bəyanatı Fransa müstəmləkəsi altında olan ərazilərdəki 14 siyasi hərəkat rəhbəri imzalayıb.

Xatırladaq ki, bu ilin iyulunda Fransa koloniyalarında müstəqillik uğrunda mübarizə aparan siyasi partiya və hərəkatların rəhbərləri Bakıda birinci qurultaylarını keçirərək Fransa Koloniyalarının Azadlıq Cəbhəsini yaradıblar.

Fransa və Niderlandın 17 koloniyasının səlahiyyətli nümayəndələri Azadlıq Cəbhəsinin yaradılması haqqında Yekun Bəyannaməni imzalayıblar. Həmçinin iştirakçılar Cəbhənin Nizamnaməsini təsdiqləyiblər.

Jurnalist araşdırması

# Tələbələrin əbədi problemi

## Universitetlər hələ də onları yataqxana ilə tam təmin edə bilmirlər

**Hər yeni tədris ili başlayanda ali təhsil müəssisələrinə daxil olan, regionlardan paytaxta üz tutan tələbələrin əsas problemləri özlərinə yaşayış yeri tapmaları ilə bağlı olur. Universitetlərin əsasən Bakıda cəmləşməsi isə bu məsələni, xüsusən, ön plana çəkir.**

Yataqxana yerlərinin azlığı regionlardan Bakıda təhsil almağa gələnlərin kirayə bazarına üz tutmasına səbəb olur ki, bu da aztəminatlı ailələrin büdcəsi üçün əlverişli sayılmır. Digər tərəfdən, yeni dərs ilinin başlanmasından istifadə edən maklerlər kirayə qiymətlərini qaldırırlar. Elə bu il də qiymətlərin ürəkaçan olduğunu deyə bilmərik. Elanlardan görünür ki, mənzillər otaqlar şəklində kirayə verilir və bir otağın qiyməti şəraitdən asılı olaraq 150 manatdan başlayır.

Məsələnin aktuallığını nəzərə alıb universitetlərin tələbə yataqxanalarının vəziyyətini, təminatın hansı səviyyədə olduğunu öyrənməyə çalışdıq.

### Tələbə yataqxanalarının ümumi tutumu 5851 nəfər təşkil edir

Elm və Təhsil Nazirliyindən verilən məlumata əsasən, 2023/2024-cü tədris ilində ölkə üzrə tələbələrin ümumi sayı 229020, yataqxanaların ümumi tutumu isə 5851 nəfər təşkil edir. Universitetlərin cəmi yataqxana sayı 26, korpusların sayı 63-dür.

Nazirlikdən bildirildi ki, Təhsilin İnkişafı Fondu təhsil infrastrukturunun inkişafına dəstək verməyə çalışır. Hazırda mövcud tələbə yataqxanalarının texniki tərəfdən yararlılığı qiymətləndirilir. "Bu sahədə artıq ilkin addımlar atılıb, özəl şirkətlərin biri ilə texniki maliyyə əsaslandırılması sənədi hazırlanır. Bu sənəd hazır olduqdan sonra sərmayəçilərə təqdim olunacaq və ali təhsil müəssisələri ilə investorların maraqlarının uzlaşmasına çalışacağıq. Bütün bunlardan sonra növbəti addımlar atılacaq".

Bunda əsas məqsəd dövlət-özəl tərəfdaşlığı çərçivəsində bu prosesləri mümkün olduğu qədər inkişaf etdirərək özəl şirkətləri, sərmayəçiləri təhsil sahəsinə, məktəb və yataqxanaların təmir və tikintisinə cəlb etməkdir.

### Qarabağ Universitetinin yataqxanasında lazımi şərait yaradılıb

Bu ildən Xankəndidə fəaliyyətə başlayan Qarabağ Universitetinin yataqxanası tələbələri qəbul etməyə hazırdır. Universitetin mətbuat katibi Aytən Quliyeva deyir ki, yataqxanada tələbələrin yerləşdirilməsi ilə bağlı müvafiq işçi qrup yaradılıb: "Yataqxana mənziltipli otaqlardan ibarətdir və zəruri avadanlıqlarla təchiz olunub. Tələbələr dərsdən sonra idman zallarından istifadə edə, dərnəklərdə fəaliyyət göstərə biləcəklər".

A.Quliyeva bildirdi ki, universitetin, həmçinin Beynəlxalq Dil Mərkəzi də fəaliyyət göstərəcək. Bu da tələbələrin xarici dil biliklərinin artırılmasına töhfə verəcək.

Onu da qeyd edək ki, tələbələr həm təhsil, həm də yataqxana haqlarından azaddırlar.

### NDU-nun tələbə yataqxanası 470 yerlikdir



Naxçıvan Dövlət Universitetindən bildirildi ki, tələbə yataqxanası universitet şəhərciyində yerləşir. Yataqxanada tələbələr üçün 470 yer ayrılıb ki, bunun da 270-i oğlan, 200-ü qızlar üçün nəzərdə tutulub. Yataqxanada tələbələrin asudə vaxtının təşkili üçün hər cür şərait yaradılıb. İdman zalı, tennis, şahmat otaqları, oxu, istirahət zalları, eyni zamanda tələbə yataqxanası ərazisində onların asudə vaxtlarını səmərəli dəyərləndirməsi üçün müxtəlif istirahət yerləri var. Yataqxananın illik ödənişi 800 manat, yarımillik ödənişi 400 manat təşkil edir. Şəhid ailələri, qazilərin övladları və maddi cəhətdən imkanı zəif olan tələ-



bələr üçün güzəştlər nəzərə tutulub. Yataqxanaya yalnız universitetə daxil olanlar qəbul edilir.

Yeni tədis ilinin başlanması ilə əlaqədar yataqxanada təmir işləri aparılaraq, 100-dən artıq çarpayı yenilənib: "Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər dövlət proqramına əsasən, Naxçıvan Dövlət Universitetində yeni tibb kampusunun yaradılması da nəzərdə tutulub. Həmin kampusun ərazisində 1000 nəfərlik tələbə yataqxanasının inşası da planlaşdırılır".

### BDU-nun 220 nəfərlik "Tələbə Evi"



Bakı Dövlət Universitetinin (BDU) İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin müdiri Kəmalə Quliyeva bildirdi ki, universitetin "Tələbə Evi" 220 nəfərlikdir və yataqxanada hər bir şərait mövcuddur. "Burada camaşırxana, oxu zalı, idman sahəsi, tibb məntəqəsi var. Eyni zamanda internet və 24 saat təhlükəsizlik kameraları ilə təmin olunub. Bir nəfərin ödənişi 75 manat təşkil edir. Əsasən şəhid, qazi övladları, valideynlərini itirmiş, sosial həssas qrupdan olan ailələrin övladları qəbul edilirlər", - deyə o əlavə edib.

K.Quliyeva qeyd etdi ki, hazırda yeni yataqxananın tikilməsi ilə bağlı dövlət-özəl əməkdaşlığı çərçivəsində müzakirələr aparılır.

### Beş binadan yalnız birində tələbələrin yaşayışı mümkündür



Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) mətbuat katibi Nicat Abdullayev isə bildirdi ki, universitet vaxtilə ən böyük yataqxana kompleksinə malik olsa da, 1990-cı illərdə Ermənistan tərəfindən ərazilərimizin işğalı nəticəsində yurdlarından didərgin düşmüş məcburi köçkün vətəndaşlarımız yataqxanada məskunlaşıblar. "Beş binadan yalnız biri əsaslı təmir olunaraq tələbələrin istifadəsinə verilib. Həmin bina isə 400-ə yaxın tələbə tutumuna malikdir. Burada həm oğlan, həm qız, həm də əcnəbi tələbələr yerləşdirilib. Yataqxananın aylıq ödənişi 50 manat təşkil edir. Sosial həsas qruplardan olan, o cümlədən müharibə iştirakçıları, təhsildə müvəffəqiyyət göstəricisi yüksək, lakin sosial vəziyyəti aşağı səviyyədə olan tələbələrimiz rektorun əmri ilə ödənişdən azad edilib. Onlar yataqxanada yerləşdirilən tələbələrin təxminən 20 faizini təşkil edirlər", - deyə o əlavə etdi.

Onun sözlərinə görə, yataqxanada bütün zəruri şərait yaradılıb. Fasiləsiz isti və soyuq su, istilik təchizatı, kəsintisiz və sürətli internet, 24 saat müha-



fizə, yeməkxana, camaşırxana var. Tələbələrin asudə vaxtlarının səmərəli keçirilməsi üçün istirahət otaqları mövcuddur. 2024-2025-ci tədris ilinə hazırlıq məqsədilə yataqxananın otaqlarında, dəhlizlərində, eləcə də binanın önündə təmizlik, zəruri təmir və abadlaşdırma işləri həyata keçirilib.

N.Abdullayev dedi ki, keçmiş məcburi köçkünlər öz doğma torpaqlarına qayıtdıqdan sonra kompleks əsaslı şəkildə təmir olunacaq, bəzi binalar yenidən qurularaq tələbələrin ixtiyarına veriləcək. Hazırda universitet Elm və Təhsil Nazirliyi ilə birgə yataqxana kompleksinin əsaslı təmiri və yenidənqurulması üçün iş aparır.

### ADNSU-nun 320 tələbəlik yataqxanası fəaliyyət göstərir

Azərbaycan Neft və Sənaye Universitetinin (ADNSU) İctimaiyyətlə əlaqələr və marketinq departamentinin direktoru Bəhruz Nəzərov qeyd etdi ki, universitetin 320 nəfərlik tələbə yataqxanası fəaliyyətdədir. Yataqxanada həm yerli, həm də əcnəbi tələbələr qalırlar. Yataqxanalar birotaqlı olmaqla iki və üç nəfərlikdir. Bir otağın qiyməti 100 manatdır, üç nəfər qaldıqda bir şəxs üçün 34 manat, iki nəfər qaldıqda isə adambaşına 50 manat tələb olunur. Həssas qruplardan olan tələbələr isə Tələbə Həmkarlar İttifaqı Komitəsinin xətti ilə güzəştli əsaslarla yataqxanada yerləşdirilir.

Mövcud yataqxananın yenidən təmir olunması, həmçinin yeni yataqxana binasının inşası da nəzərdə tutulur.

### UNEC və AzTU-nun yataqxanalarında keçmiş məcburi köçkünlər məskunlaşıb

Azərbaycan Texniki Universitetinin (AzTU) İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Sevinc İsgəndərova qeyd etdi ki, universitetin yataqxana binalarında 1988-1990-cı illərdən qaçqın və məcburi köçkün ailələri məskunlaşıb: "Son illər bu binalarda 124 ailə yaşayırdı. Torpaqlarımız işğaldan azad edildikdən sonra 10 ailə doğma yurd-yuvalarına köçürüldü. Qalan 114 ailə isə hazırda yataqxana binalarında yaşayır".

O dedi ki, yataqxana kompleksi tamamilə yararsız vəziyyətə düşüb, binaların vəziyyəti yaşayış standartlarına cavab vermir. Köçürülmə prosesi tam yekunlaşdıqdan sonra yataqxananın təmir olunması və ya sökülərək yenidən tikilməsi ilə bağlı qərar veriləcək.

UNEC-in İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elnarə Ömərova da qeyd etdi ki, hazırda universitetin yataqxanasında keçmiş məcburi köçkünlər məskunlaşdığından tələbələrin istifadəsinə verilə bilmir. Məcburi köçkünlər köçürüldükdən sonra yataqxana təmir edilib istifadəyə veriləcək.

### Tibb Universitetinin yataqxanalarının tutumu 1000 nəfərə yaxındır



Azərbaycan Tibb Universitetinin (ATU) Mətbuat xidmətinin rəhbəri Günel Aslanova bildirdi ki, hazırda ali təhsil müəssisəsinin 4 yataqxanası fəaliyyət göstərir, 3 saylı yataqxana isə əsaslı təmirə dayandırılıb. Yataqxanaların ümumi tutumu 1000 nəfərə yaxındır. 1 və 2 saylı yataqxanalarda qızlar, 6 saylı yataqxanada oğlanlar, 5 saylı yataqxanada isə əcnəbi tələbələr yaşayırlar. Hər il sentyabr ayının 1-dən etibarən yataqxanaya müraciət etmiş tələbələrin yerləşdirilməsi prosesi başlayır. Azərbaycan vətəndaşı



**Ceyhun Məmmədov:**

**- Yataqxanalar təmir-bərpa edilməli və ya yerində yenisi inşa edilməlidir. Bu məsələdə beynəlxalq təcrübədən də yararlanmaq olar. Bəzi ölkələrdə dövlət-özəl əməkdaşlığı qurulub. Özəl şirkətlər yataqxana tikərək universitetlərə öz töhfələrini verirlər. Azərbaycanda da bu sahəyə özəl qurumlar cəlb edilə bilər.**



**Kamran Əsədov:**

**- Özəl yataqxanalar dünyanın müxtəlif ölkələrində mövcuddur və onlar ödənişli olsalar da, kirayə mənzillərə nisbətən daha ucuzdurlar. Bundan başqa, Bakıda tikilən yüksəkmərtəbəli binaların bir neçə mərtəbəsi universitetlər tərəfindən alınaraq yataqxana kimi istifadə edilə bilər. Təhsilin əlçatanlığı üçün tələbənin yaşayışı məsələsi də nəzərdən keçirilməlidir.**

olan tələbələr 100 faiz yataqxana ilə təmin olunurlar.

O qeyd etdi ki, 2013-cü ildən universitet özünü maliyyələşdirməyə keçdikdən sonra yataqxanalar ödənişli əsaslarla fəaliyyət göstərir. Qiymət otağın tutumundan asılı olaraq dəyişir. Ödəniş təknəfərlik otaqlar üçün ayda 110 manat, 2 nəfərlik otaqlar üçün 80 manat, 3-4 nəfərlik otaqlar üçün isə 60 manat təşkil edir.

G.Aslanova vurğuladı ki, şəhid ailələrindən olan və valideyn himayəsindən məhrum olan tələbələr yataqxanaya ödənişsiz yerləşdirilirlər: "Qazi övladlarına və orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş valideyni olan tələbələrə də müəyyən güzəştlər edilir. Universitet yataqxanaları rektorun, həmkarlar ittifaqı komitəsinin və təsərrüfat şöbəsinin nəzarəti ilə daim diqqət mərkəzində saxlanılır. Yataqxanalarda oxu zalı, istirahət otağı fəaliyyət göstərir və daim internetlə təmin olunur".

### ADU-nun yataqxanasının aylıq ödənişi 30 manatdır

Azərbaycan Dillər Universitetinin (ADU) Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Zəhra Hüseynova bildirdi ki, universitetin iki yataqxanası olsa da, hazırda 1 saylı yataqxanada və 2 saylı yataqxananın müəyyən hissəsində keçmiş məcburi köçkünlər yaşayırlar.

Aylıq ödənişi 30 manat olan 2 saylı yataqxana 205 tələbə tutumuna malikdir. "Məcburi köçkünlərin qayıdışından sonra yataqxana yenidən təmir olunaraq tələbələrin istifadəsinə veriləcək. Universitetimizin tələbələrinin müraciətləri bitdikdən sonra yer qalarsa, digər ali təhsil müəssisələrinin tələbələrinin də müraciətlərinə baxıb kömək etməyə çalışarıq", - deyə o əlavə etdi.

### 500-dən yuxarı bal toplayan tələbələr ödənişsiz yaşayış yeri ilə təmin olunurlar

Sumqayıt Dövlət Universitetindən isə bildirdilər ki, təhsil müəssisəsinin yataqxanası 2019-cu ildə yenidən əsaslı təmir olunaraq tələbələrin istifadəsinə verilib. "Tələbə Evi" 256 nəfərlik tutuma malikdir. Tələbələrin rahatlığı üçün yüksək standartlara cavab verən otaqlar keyfiyyətli internet və istilik təchizatı ilə təmin olunub, eyni zamanda onların asudə vaxtlarını səmərəli keçirmələri üçün bütün imkanlar yaradılıb. Burada vanna otağı, mətbəxlər, cama-



şırxanalar mövcuddur. Həmçinin yataqxananın birinci mərtəbəsində kitabxana, kompüter otağı, yeməkxana, tibb və izolyasiya otaqları fəaliyyət göstərir.

Qiymətlərə gəlincə, bir tələbə üçün aylıq ödəniş 50 manat təşkil edir. Tələbələr yataqxanaya qeydiyyat üçün universitetin sosial şəbəkə hesablarında verilən məlumatlara əsasən müraciət edə bilərlər. 2024/2025-ci tədris ili üçün 500 və daha yüksək balla nəticə göstərmiş tələbələr yataqxanada pulsuz qalmaq hüququna malikdirlər.



Universitetdən gələcəkdə yeni yataqxananın tikintisinin də nəzərdə tutulduğu bildirildi.

### Tələbələr yataqxana problemindən çox əziyyət çəkirlər

VI çağırış Milli Məclisin deputatı Ceyhun Məmmədov hesab edir ki, təhsilimizin qarşısında duran ən ciddi problem və çətinliklərdən biri tələbə yataqxanası ilə bağlıdır. Məcburi köçkün və qaçqınların bir hissəsi universitetlərin yataqxanalarında məskunlaşıblar. "Demək olar ki, bu gün də universitetlərin böyük əksəriyyətinin yataqxanalarında onların yaşayışı davam edir. Həmin yataqxanalarda şərait o qədər də yaxşı deyil, eyni zamanda son illər tələbələrin sayı sürətlə artır, yeni ali təhsil müəssisələri yaradılır - bütün bu amillər yataqxana məsələsinə ciddi təsir göstərir", - deyə o bildirib.

C.Məmmədov qeyd edib ki, illik 2-3 min manat təhsil haqqı ödəyən valideyn üçün əlavə pul verib övladının yaşayışını təmin etməsi illik bir neçə min manata başa gəlir. Yataqxana çatışmazlığı, xüsusilə, regionlardan gələn tələbələr üçün ciddi problem yaradır.

O hesab edir ki, yeni yataqxanaların inşası üçün imkanlar yaradılmalı, vəsait ayrılmalıdır: "Eyni zamanda boşaldılan yataqxanalar təmir-bərpa edilməli və ya yerində yenisi inşa edilməlidir. Bu məsələdə beynəlxalq təcrübədən də yararlanmaq olar. Bəzi ölkələrdə dövlət-özəl əməkdaşlığı qurulub. Özəl şirkətlər yataqxana tikərək universitetlərə öz töhfələrini verirlər. Azərbaycanda da bu sahəyə özəl qurumlar cəlb edilə bilər".

Müsahibimiz bu prosesin gecikdiyini və gənclərin yaşayış yeri üçün çox əziyyət çəkdiklərini deyir. İllər ötdükcə məsələ daha da aktuallaşır. Hər bir ölkənin inkişafı təhsili ilə bağlıdır. Təhsili daha da gücləndirməyə və gəncləri narahat edən hər bir məsələnin operativ həllinə nail olmaq lazımdır.

C.Məmmədov vurğulayır ki, yataqxana problemi həm də universitetlərin reytinqinə təsir edir. "Ona görə bu istiqamətdə davamlı işlər aparılmalıdır. "Ali təhsil haqqında" qanun layihəsində də bu məsələ ilə bağlı vacib məqamlar əksini tapıb. Bu qanunun da sürətli formada qəbul edilməsinə nail olmalıyıq. Bu problem təhsilimizin, övladlarımızın gələcəyi üçün çox vacibdir. Burada həm Elm və Təhsil Nazirliyinin, həm də özəl sektorun üzərinə böyük məsuliyyət və vəzifə düşür. Müvafiq qurumlar birlikdə problemin həllinə çalışmalıdırlar. Əks halda bu proses uzanacaq və təhsilimiz üçün ciddi problemlər yaratmaqda davam edəcək".

### Yataqxana məsələsi bu il də həllini tapa bilmədi

Təhsil eksperti Kamran Əsədov qeyd edir ki, uzun illərdir ki, ali məktəbə qəbul olanlar ciddi problemlə üzləşirlər. Bu, kirayə ev və ya yataqxana ilə bağlıdır. "Yeni tədris ilinə az müddət qalmasına baxmayaraq, tələbələrin əbədi problemi - yataqxana məsələsi həllini tapa bilmir. Baxmayaraq ki, qeyd olunan problemin aradan qaldırılması ilə bağlı rəsmi qurumlar hər il məlumat verirlər", - deyə o əlavə edir.

Ekspert hesab edir ki, bu məsələnin həlli üçün xarici təcrübədən yararlanmaq lazımdır: "Bunlardan biri özəl yataqxana təcrübəsidir. Belə yataqxanalar dünyanın müxtəlif ölkələrində mövcuddur və onlar ödənişli olsalar da, kirayə mənzillərə nisbətən daha ucuzdurlar. Bundan başqa, Bakıda tikilən yüksəkmərtəbəli binaların bir neçə mərtəbəsi universitetlər tərəfindən alınaraq yataqxana kimi istifadə edilə bilər. Təhsil siyasətimiz hər kəs üçün əlçatan olmasına yönəlib. Bu istiqamətdə addımlar da atılır. Məsələn, ali təhsil müəssisələrinə qəbulda iki dəfə şans verilir, universitetlərin tərkibində hazırlıq kursları yaradılır. Ancaq təhsilin əlçatanlığı üçün tələbənin yaşayışı məsələsi də nəzərdən keçirilməlidir".

Onun fikrincə, sovet vaxtı tələbələrin böyük qismi yataqxana ilə təmin olunurdu ki, bununla da kirayə haqqından azad olurdular. Amma Birinci Qarabağ müharibəsindən sonra yataqxanalara qaçqın və məcburi köçkünlərin yerləşməsi tələbə yataqxanası problemini qabarıq şəkildə göstərməyə başladı. Nəzərə alaq ki, dünyanın məşhur universitetlərinin reytinqlərdə ilk sırada olmalarının bir səbəbi tələbələr üçün yaradılan mühitdir. Dünyanın aparıcı universitetləri kampus şəraitində fəaliyyət göstərir ki, bu da xüsusi şəhərcikdir. Tələbələr orada yataqxana, nəqliyyat, kitab və digər problemlərlə üzləşmir, hətta işləyib pul da qazana bilərlər.

K.Əsədov vurğulayır ki, kampusların salınması, hətta şəhərin mərkəzində bəzi ali məktəblər üçün yataqxanaların tikilməsi və ya bir sıra universitetlərin şəhərdən kənara köçürülməsi dəfələrlə gündəmə gəlib. Bu istiqamətdə işlərin getdiyi bildirilir. "Ümumiyyətlə, təhsilin əlçatan olması abituriyentin ali məktəbə daxil olması ilə məhdudlaşdırıla bilməz. Odur ki, bu məsələ həll olunmalıdır. İş adamları da yataqxana tikərək tələbələrin ixtiyarına verə bilər", - deyə o əlavə edir. Sosial problemlərin təhsilin keyfiyyətinə təsir göstərdiyini qeyd edən ekspert bildirir ki, bunlar həllini tapmalıdır.

Beləliklə, səslənən bütün fikirlər göstərir ki, ali təhsil müəssisələrinə qəbul olmaq sevinclə yanaşı, müəyyən problemlər də gətirir. Statistikaya əsasən demək olar ki, universitet yataqxanalarının tutumu ali təhsil müəssisələrində təhsil alan tələbələrin heç 3 faizini də təmin etmir. Təbii ki, Bakıda yaşayan və ya paytaxtda evi olan regiondan gələn tələbələr var. Amma hər bir halda müşahidələr göstərir ki, yataqxanaya ehtiyacı olanların sayı getdikcə artır. İllərdir tələbə yataqxanası probleminin həlli üçün müzakirələrin isə hələ ki nəticəsi yoxdur.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Məktəb çantasının ağırlığı uşağın bədən çəkisinin 10 faizindən çox olmamalıdır

"Alimlərin araşdırmaları göstərir ki, ibtidai sinif şagirdlərinin içərisində dərs vəsaitləri olan bir məktəb çantasının çəkisi 5-6 kiloqrama çatır".

AZƏRTAC xəbər verir ki, bunu Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun travmatoloq-ortopedi Elşən Məhərrəmov deyib. O qeyd edib ki, məktəb çantasının ağırlığı uşağın bədən çəkisinin 10 faizindən çox olmamalıdır: "Əks təqdirdə onurğa əyriliyinə və qamət pozğunluğuna səbəb ola bilər. Bundan əlavə, ayaqların, bel ağrısının və yeriş problemlərinin inkişafı ilə nəticələnmə ehtimalı var. Ağır məktəb çantası travma riskini artıra bilər. Sözsüz ki, uşaqlar tez yorulur və bu, dərslərin mənimsənilməsi imkanlarına təsir göstərir.

Hazırda uşaqlarda vacib məqam düzgün bədən duruşunun formalaşması və qorunmasıdır. Zəif qamətin formalaşmasına təsir edən müxtəlif amillər var".

Travmatoloq məktəb çantası seçərkən diqqət edilməli məqamlardan da danışıb: "Məktəb çantasını seçərkən uşağın yaşı, boyu və çəkisini, inkişaf xüsusiyyətlərini nəzərə almaq vacibdir. Çantanın anatomik cəhətdən rahat olması da olduqca mühüm məsələdir. Ölçü baxımından çanta çox böyük olmamalı, üst hissəsi boyuna, aşağı hissəsi isə aşağı arxaya təzyiq etməməlidir.

Həkimlər uşaqların belindəki yükü düzgün bölüşdürməyə kömək edəcək sinə qayışı olan kürək çantaları seçməyi məsləhət görürlər. Uzunboylu uşaqlar üçün şaquli kürək çantaları uyğun gəlir, qısaboylu uşaqlar üçün isə üfüqi kürək çantaları seçmək daha yaxşıdır. Valideynlərə tövsiyə edərdim ki, uşaqlara çəkisi ağır olan çantalar almasınlar".

Uşağın düzgün qamətinin 4 yaşından başlayaraq 10 yaşına kimi formalaşdığına diqqət çəkən mütəxəssis vurğulayıb ki, uşağın sağlam qaməti sinə və budların mövqeyi ilə müəyyən edilir: "Bədənin və ayaqların müstəvisi əyilmədən düz bir şaquli xətt yaratmalıdır. Yalnız bu vəziyyətdə bədənin və daxili orqanların normal işləməsi təmin edilir.

Oxu masasının quruluşu təhsil məlumatlarının qavranılması proseslərinə, eyni zamanda uşağın təhlil, əzbərləmə qabiliyyətinə təsir göstərə bilər. Düzgün qamətin olmaması isə ağrıya səbəb olan dayaq-hərəkət sistemi xəstəliklərinin (skolioz, kifoz, lordoz və digər) inkişafı ilə nəticələnir.

Onun sözlərinə görə, başın bir az əyilməsi duruş üçün daha faydalıdır. Başın böyük əyilmələri ilə əlavə motor bölmələri işə cəlb olunur, nəbz sürətlənir, tənəffüs amplitudü azalır, görmə və duruş problemlərinin yaranması mümkündür.

"Masaların rahat və təhlükəsiz olması olduqca vacibdir. Onlar uşağın boyu ilə tənzimlənməli, masa üstü əyilmiş və tezgahdakı künclər yuvarlaqlaşdırılmalıdır. Şagirdə düzgün oxu masasının seçilməsi üçün ümumi qəbul edilən standartlar mövcuddur. Əsas seçim meyarları arasında, ilk növbədə, masanın ölçüsü ilə şagirdin boyu arasında düzgün nisbətə riayət edilməsini qeyd etmək lazımdır. Belə ki, uşağın boyu 110-120 santimetr olduğu təqdirdə masanın hündürlüyü 52, oturacaq isə 32 santimetr olmalıdır. Uşağın boyu 120-130 santimetr olduğu zaman isə masanın hündürlüyü 57, oturacaq 35 santimetr müəyyən edilib. Məktəblinin boyu 10 santimetr artdıqda masa və oturacağın hündürlüyü müvafiq olaraq 5 və ya 3 santimetr artır", - deyə E.Məhərrəmov əlavə edib.

# İlon Maskdan xəbərdarlıq: Tramp uduzsa, bu, ABŞ-də demokratik seçkilərin olmadığını göstərəcək





Məşhur amerikalı milyarder İlon Mask xəbərdarlıq edib ki, Respublikaçılar Partiyasından prezidentliyə namizəd Donald Tramp yarışda məğlub olarsa, bu, ABŞ-də artıq demokratik seçkilərin olmadığını göstərəcək.

Bununla bağlı iş adamı sosial şəbəkə səhifəsində yazıb: "Demək olar ki, bütün Demokratik Partiya liderlərinin açıq şəkildə bəyan etdiyi məqsəd 15 milyona yaxın qeyri-qanuni immiqrantı mümkün qədər tez leqallaşdırmaq və daha on milyonlarla insanı ölkəyə gətirməkdir. Bu, Kaliforniyada 1986-cı ildə olduğu kimi, dərhal bütün ştatları mavi rəngə çevirəcək (demokratların rəngi - red.) və Amerikanı daimi birpartiyalı dövlət edəcək".

Daha əvvəl iş adamı çoxlu sayda yoxlanılmamış miqrantın ABŞ-yə qanunsuz daxil olmasının ölkə üçün "fəlakət resepti" olduğunu bildirib. Mask indiki Amerika administrasiyasının miqrasiya siyasətini dəfələrlə tənqid edib. Onun fikrincə, ABŞ hakimiyyəti ölkədə qeyri-qanuni miqrantların cinayətlərinin qarşısını almaq üçün heç bir iş görmür. Mask həmçinin Vaşinqtonun immiqrasiya siyasətini dəyişmədiyi təqdirdə ABŞ-nin sonu olacağını vurğulayıb.

Sentyabrın 11-də Bakı vaxtı ilə saat 05:00-da ABC telekanalı Kamala Harris və Donald Tramp arasında ilk və ehtimal ki, yeganə debatı yayımlayacaq. Ekspertlərin fikrincə, ola bilsin ki, seçki yarışının nəticəsini bu debat həll edəcək. Belə ki, hazırda rəy sorğularına görə, namizədlərin heç birini aşkar favorit hesab etmək olmaz.

"The New York Times" qəzeti və Siyena Kollecinin keçirdiyi ictimai rəy sorğusunun nəticələrinə görə, ABŞ prezidentliyinə namizədlər respublikaçı Donald Tramp və Demokrat Partiyasının nümayəndəsi Kamala Harris qeydə alınmış seçicilər arasında, demək olar ki, eyni dəstəyə malikdirlər.

Araşdırmaya görə, respondentlərin 48 faizi özlərini Trampın, 47 faizi isə Harrisin tərəfdarı adlandırıb. Bununla belə, iyulun sonundakı əvvəlki analoji sorğudan sonra rəqəmlər, demək olar ki, dəyişməyib.

Eyni zamanda nəşrin hesablamalarına görə, Kamala Harris ölkənin Viskonsin, Miçiqan və Pensilvaniya kimi "tərəddüd edən ştatlarında" Trampı bir qədər qabaqlayır. Nevada, Corciya, Şimali Karolina və Arizona ştatlarında isə hər iki siyasətçiyə dəstək bərabərdir.

Qeyd edək ki, respondentlərin 28 faizi Harris haqqında daha çox bilmək istədiklərini, 9 faizi isə Trampla bağlı bu istəyini ifadə edib.

Qəzetin şərh etdiyi kimi, Harris gənc seçicilər, qadınlar və latın amerikalılar arasında dəstəyi artsa da, Demokrat Partiyasının bütün potensialını səfərbər edə bilməyib.

Bu arada sorğuda iştirak edənlərin 60 faizi ölkənin növbəti prezidentinin hazırkı dövlət başçısı Co Baydendən köklü şəkildə fərqlənməli olduğunu bildirib. 53 faiz gözlənilən dəyişiklikləri Trampla, 25 faiz isə Harrislə əlaqələndirir.

Sorğu iştirakçılarının təxminən yarısı, əksəriyyəti respublikaçılar olmaqla, bahalaşmada və ABŞ qoşunlarının Əfqanıstandan çıxarılması ilə bağlı çətinliklərdə başqaları ilə yanaşı, Harrisi də günahlandırır. Siyasi spektrdə seçicilərin üçdəikisi onun cənub sərhədindəki immiqrasiya problemlərinə görə müəyyən dərəcədə məsuliyyət daşıdığını deyir. Bununla belə, respondentlərin 54 faizi Trampı prezidentlik üçün riskli seçim hesab edir, 52 faizi isə Harris haqqında eyni fikirdədir.

ABŞ-də prezident seçkiləri noyabrın 5-nə təyin edilib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


**OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN" *qəzetinə***
***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
Xaricdə Yaşayan Azərbaycanlı Alimlərin Forumunun iştirakçılarına
"Yaşıl iqtisadiyyatda kiçik və orta biznesin rolu"

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Süni intellekt zəlzələni proqnozlaşdıra bilirmi?

Elm və texnika zəlzələnin qarşısında hələ də acizdir. Bu təbii fəlakət güclü dağıdıcı təsirə malik olduğuna görə seysmoloqlar onun haqqında öncədən dəqiq məlumata sahib olub, yarana biləcək təhlükələrin qarşısını almaq üçün uzun illərdir səy göstərirlər.




Alimlər bildirirlər ki, zəlzələlərin harada baş verə biləcəyini söyləyə bilsələr də, onun zamanını və gücünü dəqiqliklə demək elmin malik olduğu imkanlarla hələ ki mümkün deyil.

Günbəgün inkişaf edən texnologiya və süni intellekt sayəsində tədqiqatçılar son zamanlar bu istiqamətdə müəyyən nailiyyətlər əldə edirlər. ABŞ-nin Berkli Kaliforniya Universitetinin və Kaliforniya Qubernatorluğunun Fövqəladə Xidmətlər İdarəsinin birgə işi sayəsində avqustun 13-də Los-Ancelesdə baş verən 4,4 bal gücündə zəlzələnin insanlar üçün qəfil olmasının qarşısı alınıb. Smartfonlara yüklənilən yeni tətbiq ilə Los-Ancelesdə yaşayan təxminən 4 milyon insan mobil telefona yüklənilən tətbiq vasitəsilə zəlzələ xəbərdarlığı alıb. Kaliforniyadan Vaşinqtona qədər smartfonlara daxil olan məlumatları toplayan proqram telefonun yerinə görə zəlzələ xəbərdarlığını göndərib. Berkli Universitetinin Seysmologiya Laboratoriyasının direktoru Riçard Allen deyib ki, xəbərdarlığın müddəti zəlzələnin yerindən və telefonların işləkliyindən asılı olaraq dəyişib.

Texas Universitetinin əməkdaşı Sergey Fomel komandası ilə birlikdə Çində yeddi ay davam edən təcrübə çərçivəsində zəlzələnin proqnozlaşdırılmasını həyata keçirib. Bu sahədə mühüm addımlar atan tədqiqatçılar süni intellekt alqoritmi ilə zəlzələləri 70 faiz dəqiqliklə proqnozlaşdırıblar.

Araşdırma haqqında danışan S.Fomel bildirib ki, əvvəlki cəhdlərin çoxu zəlzələlərin mürəkkəb strukturunun həllinə yönəlmişdi: "Biz isə statistik məlumatları süni intellektdən istifadə edərək təhlil etdik. Heç kim belə uğurlu və heyrətləndirici nəticə gözləmirdi".

Bir neçə saniyənin həyati əhəmiyyət kəsb etdiyi zəlzələ anı haqqında dəqiq proqnoz verməyin mümkün olub-olmadığı hələ də müzakirə mövzusudur. Bu təbii fəlakəti 100 faiz proqnozlaşdıran bir sistemin hazırlanması üçün tədqiqatçılar gecə-gündüz çalışırlar. Dünyanın ən aktiv zəlzələ nöqtələrindən birinə sahib olan Yaponiya yüksəktexnologiyalı məhsullar istehsal etməsinə baxmayaraq, zəlzələ proqnozu verə bilməyərək yalnız xəbərdarlıq mətni yayımlayır. Yaponiya Meteorologiya Agentliyi tarix, saat və məkan göstərməklə zəlzələləri proqnozlaşdıran məlumatların yanıldıcı olduğunu bildirir.

Süni intellektdən istifadə zəlzələlərin proqnozlaşdırılmasında ümidverici nəticələr verdiyi üçün ABŞ mütəxəssisləri yeni tətbiqi ABŞ-nin Qərb sahili, Yaponiya və Aralıq dənizi kimi seysmik cəhətdən aktiv bölgələrdə də sınaqdan keçirməyi planlaşdırdıqlarını söyləyirlər.

Artıq bir müddətdir ki, Android istifadəçilərinə zəlzələ başlayan zaman xəbərdarlıq SMSləri gəlir. Bəs bu, necə baş verir? Android sistemi ABŞ-nin zəlzələ ilə bağlı Erkən Xəbərdarlıq Sistemi olan "ShakeAlert"lə əməkdaşlıq edir. Qeyd etmək lazımdır ki, bütün smartfonlarda titrəmə və sürəti hiss edən kiçik akselerometrlər var. Telefon titrəməni aşkar edərsə, zəlzələnin baş verdiyi yer haqqında məlumatı zəlzələ təyinetmə serverinə göndərir. Daha sonra server zəlzələnin olub-olmadığını anlamaq üçün bir çox telefondan gələn məlumatları birləşdirir. Bunun üçün bütün dünyada mini seysmometrlər kimi istifadə edilən 2 milyarddan çox Android sisteminə malik telefonlardan istifadə edilir. Bu smartfonlar zəlzələnin vibrasiyasını və sarsıntı sürətini aşkar edir və müvafiq olaraq təsirlənmiş ərazilərdə Android istifadəçilərini SMS vasitəsilə xəbərdar edir.

Mövcud GPS texnologiyalarından 100 qat daha həssas sensorların istehsal edilməsinin lazım olduğu qənaətinə gələn Berkli Kaliforniya Universitetinin mütəxəssisləri yalnız bu baş verərsə, zəlzələləri əvvəlcədən proqnozlaşdırmağın mümkünlüyünü vurğulayırlar.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Revanşistlərin hakimiyyət arzusu

## Onlar Paşinyanı devirmək üçün yenidən fəaliyyətə başlayıblar

Ermənistanda müxalif qüvvələrin Nikol Paşinyan iqtidarına qarşı fəaliyyəti daha da genişlənir. Bu xüsusda keçmiş hərbi xunta yenidən önə çıxmağa cəhd göstərir. Yerli medianın yazdığına görə, sentyabrın ortalarından etibarən müxalifət tərəfdarları paytaxtın müxtəlif rayonlarında küçələri bağlamaq planı qurublar.

Belə görünür ki, qarşıdakı günlər ərzində ölkədə ictimai-siyasi gərginlik daha da artacaq. Müxalifətin etiraz aksiyaları fonunda vətəndaş müharibəsinə hazırlaşdığı nəzərlərdən yayınmır. Vəziyyəti gərginləşdirən başqa bir səbəb isə Paşinyana qarşı olan separatçıların bir qisminin sabiq prezidentlər Serj Sarkisyan və Robert Koçaryanın ətrafında birləşməsi, sonuncuların isə yenidən hakimiyyətə iddialı olmalarıdır.

Revanşist "Vətən naminə Tavuş" hərəkatının nümayəndələri bir neçə gün bundan əvvəl bəzi siyasi qüvvələrlə qapalı formatda görüşlər keçiriblər. Hərəkat lideri, keşiş Baqrat Qalstanyan onlardan sentyabrın 22-də İrəvanda keçiriləcək böyük toplantıda iştiraklarını xahiş edib. O bildirib ki, həmin gün planlarını açıqlayacaq.

"Hraparak" qəzetinin xəbərinə görə, Baqrat Nikol Paşinyan hökumətinə qarşı aktiv aksiyaların sentyabrın 23-dən başlayacağını bildirib. Amma bunun dinc itaətsizlik aksiyaları, yoxsa başqa bir formatda olduğunu deməyib. Nəşr yazır ki, son toplantıda iştirak edən siyasətçilərin sıraları olduqca seyrək idi.

Revanşistlərin iki ay öncəki toplantısı da hansısa nəticəni verməyib. Baqrat siyasi şura və ya məşvərət orqanının yaradılmasını təklif etsə də, razılığa gəlinməyib. Siyasi qüvvələr keşişdən aydın fəaliyyət planını təqdim etməyi tələb edirlər. Bu olmadığına görə isə vəziyyət dəyişir. Qeyri-müəyyənlik siyasi qüvvələri Baqrat ətrafında birləşməyə imkan vermir. Təsadüfi deyil ki, son toplantıda da şuranı formalaşdırmaq mümkün olmayıb.

Xatırladaq ki, müxalifət Qarabağdakı qondarma respublikanın buraxılmasının əsas səbəbkarı qismində Nikol Paşinyanı təqdim edərək, hakimiyyətin yürütdüyü siyasətin dövlətçiliyin itirilməsi təhlükəsi yaratdığını əsas gətirməklə cəmiyyəti baş nazirə qarşı qaldırmağa çalışsa da, buna nail olmayıb, bu istiqamətdə dəfələrlə fiaskoya uğrayıb. Hakimiyyətdən narazı olan erməni cəmiyyətində müxalifətə də heç bir inamın olmadığı, bu düşərgəyə etimad göstərilmədiyi göz önündədir.




"4rd.am" saytı yazıb ki, keçmiş hərbi xunta və onun liderlərindən olan sabiq prezident Robert Koçaryan yenidən hakimiyyətə iddialıdır. Lakin təhlillər onun da Ermənistan əhalisi tərəfindən dəstəklənmədiyini göstərir. Xüsusən də Koçaryanın revanşist mövqeyi, keçmiş Dağlıq Qarabağ münaqişəsinin yenidən alovlanmasının tərəfdarı olması, 1999-cu ildə Ermənistan parlamentində baş verən terror aktında, 2008-ci ilin martında əhaliyə qarşı yol verilən qırğında, çoxsaylı korrupsiya və digər cinayətlərdə əli olması fonunda cəmiyyətin mütləq əksəriyyəti ona nifrət edir. Erməni mediası isə onu satqınçılıqda, ölkəni vassala çevirməkdə ittiham edir.

Bundan əvvəlki etirazlarda baş nazir Paşinyanı təslimçilikdə ittiham edənlər çıxış yolu kimi onu devirməkdə görsələr də, bunun məsuliyyətini üzərilərinə götürmək istəmirlər.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti rəisinin müavini Xanbala Orucova atası

**TUBAİL ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti rəisinin müavini general-leytenant Xanbala Orucova atası

**TUBAİL ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti rəisinin müavini Xanbala Orucova atası

**TUBAİL MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti rəisinin müavini general-leytenant Xanbala Orucova atası

**TUBAİL ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti rəisinin müavini general-leytenant Xanbala Orucova atası

**TUBAİL ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Hərbi Ovçuluq İttifaqı" MMC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti rəisinin müavini Xanbala Orucova atası

**TUBAİL ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti rəisinin müavini general-leytenant Xanbala Orucova atası

**TUBAİL ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti rəisinin müavini Xanbala Orucova atası

**TUBAİL ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin I Mamalıq və Ginekologiya kafedrasının əməkdaşları kafedranın assistenti Ceyran Paşayevaya atası

**BAYRAM QƏMBƏR OĞLU BAYRAMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4124
Sifariş 2061

Qiyməti 60 qəpik